**Elmar Şahbazov**

# Cənnətin ətri

**Elmar Şahbazov. Cənnətin ətri**
Bakı, QANUN nəşriyyatı, 2017, 200 səh., 300 tiraj
Çapa imzalanmışdır: 04.12.2017

QANUN Nəşriyyatı
Bakı, Azərbaycan, AZ1102, Tbilisi pros., 76
Тел.: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212 42 37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-36-

© Elmar Şahbazov, 2017
© QANUN Nəşriyyatı, 2017

Çətin günlər geridə qalmış, istənməyən xatirələr unudulmuşdu. Xoşbəxtliyə toxunacaq qədər yaxın, qorxulardan düşünülməyəcək qədər uzaq adam “Günəş doğacaq” deyərkən qaranlıq çökdü. Alovlanan ümid məşəlləri kiçik qığılcımlar tək söndü. Zülmət sabaha dair bütün xəyalları korluğa gömdü. Korluq acizlik duyğusu, çarəsizlik hissi yaşatdı və bu yaşam düşüncəni parçalamağa qadir psixi sarsıntılar gətirdi. Qaranlıqda ağlını oynatmış insan sadəcə bir şeyi düşünə bilirdi: “Canının yanacağını bildiyi halda həyatını odlayaraq qisas almağı”.

Günorta hava günəşli və küləkli idi. Küləyin soyuq nifrətindən qızğın günəş ətrafında dövr edən qanadsız pərvanənin qəlbi isinmirdi, şəhərdə dolaşmaq qeyri-mümkün hala çevrilmişdi. Şəhərin aurasını damğalayaraq əsən soyuq nifrət ağacları belə təşvişə salırdı. Sağa-sola əyilib budağı budağına çırpılan çinarlar yaşıl yarpaqları ilə vidalaşmalı olurdular. Bu görünməz güc həyata son nəfəsini verən yarpaqları küçələr boyunca sürükləyib binaların künc-bucağında topalayırdı. Səmada quşların yerinə sellofan torbalar, kağız parçaları uçuşurdu. Bütün şəhəri toz-duman bürümüşdü. Usandırıcı havada bir-biri ilə yarışan Xəzər dalğaları özlərini möhkəmcə Bakı sahilinə çırpıb məhv eləyərək küləyə olan qəzəbini göstərirdi. Küləksə şiddətləndikcə şiddətlənir, qarşısına çıxan nə varsa qırır, dağıdır, aləmi alt-üst edirdi. Bunlar azmış kimi günəş dünyadan üz döndərib onu qaranlığın əsarətinə buraxdığında çılğın külək fürsəti əldən

verməyərək qara buludları sürüyüb Bakı səmasına toplamışdı. Yağış yağır, külək əsir, şimşək çaxırdı. Yağış damlaları göz yaşı kimi süzülüb pəncərədən aşağı axırdı. Gözlərimdə uyuşuqluq, əlimdə piyalə, sağımda yarım butulka qırmızı kəmşirin çaxır vardı. Rəngi bozarmış cızıq-cızıq kauçuk stul üzərində ayağımı ayağımın üstünə aşırmış, bənövşəyi şimşək çilçırağının arabir aydınlatdığı güclü yağışı və küləyin sağa-sola əydiyi ağacları seyr edərək ağır-ağır çaxırdan qurtumladırdım. Topa buludlar tək qara dərdim ağlımda saysız – yağış damlaları qədər fikirlər yaradırdı. Həmin gün kefimin yoxluğu soyuducuya doldurduğum pivələrin çoxluğu qədər idi. Çünki o zaman səkkiz gün olardı ki, Nərmindən ayrılmışdım. Zəhrimara qalmış ayrılıq yaman ağır gəlirdi. Onunla birlikdə olduğumuz zamanlarda bəzən ayrılmaq barədə düşünürdüm. İşə bax ki, ayrılmışdıq deyə özümü yaman pis hiss edirdim, ürəyim sıxılır, gözlərim dolurdu. Gah buxarlanıb səmaya qalxır, gah yağış olub yerə enirdim. Bu böyük dünyaya sığa bilmirdim.

Məyus halda oturub etdiyim qələtə görə məndən küsmüş sevgilimlə barışmaq üçün bəhanələr düşünürdüm. Düşündüklərim bir yana, ayrılığın sağlığına şokoladla qırmızı çaxır ideal harmoniya yaradır-

dı. Hər damlası qürura zəhər, göz yaşlarına məlhəm olurdu. Zəhərli məlhəmdən mədəmə boşaltdığımda kimsə qapını döydü. Stəkanı pəncərənin önünə qoyub saatlarla oturduğum stuldan qalxdım. Gözlərimi silib üst-başımı düzəldərək qapını açdım. Qarşımdakı iş yoldaşım Elnur idi. Elnur yağışda islanmış siçana bənzəyirdi. Yastılanmış saçından çiyinlərinə, boynuna su damcılayırdı. Üstü-başı büsbütün yaş idi. İslanmış siçan mənə:

– Niyə beş gündür işə gəlmirsən? – dedi.

Mən gözlərimi ovuşduraraq:

– Altı gündür, – dedim.

– Olsun altı gün, niyə gəlmirsən? Müdir mənə dedi ki: "Ona de ki, daha işə gəlməsin." Amma aramızda qalsın, səni qorxutmaq istəyir. Sabah gəl, üzr istə, bir də olmayacaq de, işə başla. Belə getsə həqiqətən səni qovalayacaq.

– Əşi, cəhənnəm olsun... üç ay özümü dolandırmağa pulum var, heç onun işinə ehtiyacım yoxdu. Axşam-axşam yağışda-qırğında bunu deməyə gəlibsən? Keç içəri, saçını-başını qurula, su siçovuluna oxşayırsan. Həm də içək bir az, soyuducuda pivə var, bəlkə çaxır içəsən? – oturduğum stulun yanına qoyduğum çaxırı əlimlə işarə etdim.

Elnur giriş qapısının arxasındakı asılqandan götürdüyü açıq mavi əl-üz dəsmalı ilə başını qurulayaraq mətbəxə keçib çay stəkanı ilə geri qayıtdı. Kəmşirin çaxırla onun stəkanını doldurdum; masa üzərinə qoyduğum şokolad parçalarını göstərərək:

– Şokoladı ora qoymuşam, – dedim.

Elnur ayağını ayağının üstünə aşıraraq stula yayxanıb şokolad parçasından iri birini qarnına ötürdü. İki-üç qurtum çaxırdan içib oturmaqdan yorulmuş kimi gərnəşərək:

– Hə, de bilək, dərdin nədir? Kim salıb bu hala səni? – dedi.

Pəncərə önünə qoyduğum stəkanı götürüb stula oturaraq:

– İnsanlar, qardaşım, insanlar. Pis, düşüncəsiz insanlar, – dedim.

– O pis və düşüncəsiz dediyin insanlar kimdir? – söylədiyində çaxır dolu stəkanı bir nəfəsə qarnıma boşaltdım.

Əlimin arxası ilə ağzımı silib gülümsəyərək:

– Axı nəyinə lazım? – deyə sual verdim, lakin stəkanımı doldurmaq üçün əyilib çaxır butulkasını götürmək istədiyimdə stul altımdan sürüşüb çıxaraq məni sağ tərəf üstə, butulkanın üzərinə yıxdığından nə cavab verdiyini eşidə bilmədim. Zədələnərkən –

aaa... – deyə çığırıb, – ay zibil, öldüm – ufuldandığımda çaxır butulkası aşıb həzin-həzin döşəməni qırmızıya boyayırdı.

Elnur əlindəki stəkanı cəld masaya qoyub iki əli ilə qoltuqlarımdan tutaraq məni ayağa qaldırdı. Qısılıb əlimin içi ilə möhkəmcə qabırğamı sıxdığımda o yıxılmağıma gülür:

– Piyan olub ha, – başını bulayıb, – nə oldu? Nə tez yıxıldın belə, – deyərək yersiz zarafatlar edirdi.

Ağrı bürümüş canımla onun zarafatlarına dözə bilmədiyimdən:

– Exğğ... – deyə iyrənc bir səs çıxarıb: – Cəhənnəm ol, həkim çağır, ölürəm, – dedim. O zarafat etmədiyimi anlayıb təcili yardıma zəng etdi.

Yarım saat sonra xəstəxana otağında nazik bəyaz örtüklü soyuq çarpayı üstə uzanmışdım. Həkim rentgen otağının bağlı olduğunu, sabah açılacağını, sabaha qədər xəstəxanada qalmalı olduğumu demişdi.

Elnur: – Sabah yanına gələcəm, – deyib məni orada tək qoyaraq getmişdi.

Rütubətli otağın rəngi bozarmış divarları arasındakı çarpayı üzərində şəhəri silkələyən külək və yağışın səsini dinləyərək yatmağa çalışırdım. Soyuqdan və küləyin uğultusundan sızlayan qabırğamla birlikdə yata bilmədiyimdən öz halıma acıyır, kimsəsiz yetim

bir uşaq hissi yaşayırdım. Nə yaxşı ki, arada tibb bacıları gəlib yoxlayırdılar. Nəsə istəyib-istəmədiyimi soruşur, yenə otağı tərk edirdilər. Mənə ağrıkəsici vuran, sürməli yaşıl gözləri, uzun qıvrım kirpikləri və iri çəhrayı dodaqları olan tibb bacısına gözüm düşmüşdü. İkinci dəfə yanıma gələndə sarışın gözələ:

– Getmə, yanımda qal, – dedim.

Gülümsəyib:

– Niyə? Ağrınız var? – deyə soruşdu.

İçdiyim çaxırın təsiri ilə:

– Yox, sadəcə gözlərinizə aşiq olmuşam, – dedim.

O üzünü bozardıb gözlərini süzdürərək qapını çırpıb getdi. Qapını çırpmadan öncə adsız barmağındakı üzüyünü göstərdi. O üzük taxılı barmağını elə göstərdi ki, sanıram, həmin hərəkəti ilə pis barmaq işarəsi də göstərmiş oldu. Qıvrım kirpikli yaşıl gözlər bir də məni yoxlamağa gəlmədi.

Bir ara Nərminə zəng etdim. Beş, ya da altı dəfə. Telefon çağırır, çağırır, amma o açmırdı. Mesaj yazdım: "Xəstəxanadayam, ölürəm, qabırğam sınıb deyəsən, bu sənə yazdığım axırıncı sözlərdi bəlkə də, haqqını halal et".

Yatanadək gözlədim, cavab gəlmədi. Ya yatmış, ya da inanmamışdı. O cavab yazmadığı üçün özümü

ruhən pis hiss etməyə başladım, – bədənimdəki ağrılarsa çoxdan sakitləşmişdi.

Səhəri gün qabırğamı rentgen aparatına salıb yoxladılar.

Həkim:

– Heç nəyin yoxdur, salamatsan, sadəcə əzilibsən, bir-iki maz yazıram, onlardan alıb sürtərsən, heç nəyin qalmaz, – dedi.

Xəstəxanadan çıxıb ən yaxın aptekdən, resepti verərək, mazları alıb avtobusla evə qayıtdım. Evə təzəcə çatmışdım ki, telefonuma zəng gəldi. Zəng edən Elnur idi:

– Salam, Rasim, necəsən? Rentgendən keçdin? Həkim nə dedi?

– Salam, dünən gördüyün kimi, hə keçdim, iki qabırğam sınıbmış.

– Bəs necə olacaq? İşə gəlməyəcəksən?

– Necə gəlim? Güclə hərəkət edirəm, həkim çox hərəkət etməməyi tapşırıb.

– Hə, yaxşı, müdirə deyəcəm vəziyyətin haqda. Sən hardasan indi?

– Güclə taksiyə əyləşib evə gəldim, özümü pis hiss edirəm, danışa bilmirəm, özünə yaxşı bax, sağ ol.

– Yaxşı, sən də sağ ol, bir şeyə ehtiyacın olsa çəkinmə, de.

– Olsa, deyərəm, çox sağ ol, – deyərək telefonu söndürüb soyuducuya tərəf getdim. Soyuducudan sərin pivə götürüb dişimlə qapağını açdım. Divanda uzanıb pivə içərək televizora baxır, başımı qarışdırırdım. Üçüncü butulkadan pivə aşırdığımda telefonum çağırdı. Bu dəfə zəng edən müdirim idi. Telefonu açıb xəstə kimi zarıyaraq danışdım:

– Salam, Teymur müəllim, ıh... Buyurun.

Müdir:

– Salam, Rasim, Allah şəfa versin, mənə indi Elnur dedi, özünü necə hiss edirsən? yaxşısanmı? – deyə suallar verirdi.

– Allah razı olsun, bir az ağrı var, pis deyiləm, – dedim və yenə də səsimdə nıqqıltılar var idi.

Müdir:

– Özündən muğayat ol, işə görə də narahat olma, nə vaxt sağalarsan, onda gələrsən, sən bizim yaxşı işçilərimizdən birisən, hələlik.

– Çox sağ olun, hələlik, – deyərək telefonu söndürdüyümdə necə yalançı və murdar bir varlıq olduğumu düşünürdüm. Bu düşüncələr ağlımdan keçən zaman üzümdə şeytani bir gülümsəmə də vardı.

Üç litr pivəni mədəmə boşaldaraq divandaca yuxuya dalmışdım ki, yenə kimsə zəng edərək narahat etdi. Telefona baxmamış Elnurun anasını ürəyimdə söyür-

düm artıq. Gözlərimi qıyaraq telefonun ekranına baxdım. Nömrə tanış gəlmirdi. Öncə cavab verməmək barədə, ardınca da "Xeyir bir iş ola bilər" – deyə düşündüm. Telefonu açıb:

– Alo, buyurun, – deyərək yuxulu səslə dilləndim.

Telefondakı:

– Salam, Rasim, mənəm Səidə, – dedi.

Ürəyimdə "tüpürüm belə xeyir işə" – deyib, telefondakından:

– Hə, Səidə, buyur, nə işdi? – deyə soruşdum.

Səidə:

– Yəqin bilərsən, o gündən bəri Nərmin evə gəlmir, mənim yanımdan köçüb hansısa tələbə rəfiqələrinin yanına, mən də işləmirəm, tələbəyəm, pulu çatdıra bilmirəm...

Əsəbiləşərək onun sözünü kəsib:

– Bəs mən nə edim? Sən də tələbə dostlarının yanına köç, sənə kömək edə bilməyəcəm, özüm çətin vəziyyətdəyəm, – dedim.

Səidə çığıra-bağıra:

– Necə nə edim? Sənə görə tək qalmışam bu xarabada, kirayənin vaxtına az qalıb, ev yiyəsi də tərs adamdı, məni evdən atacaq, – deyə deyindi.

Mən də ondan betər hay-küy saldım:

– Mənə görə deyəndə, məni o otağa çağıran sən idin, sənə zorla nəsə etməmişəm, cəhənnəm ol, köç hansısa tələbə yoldaşının yanına.

O məndən duyduğu sözlərlə variantını dəyişərək zarıdı.

– Bəs mən yazıq deyiləm? Mənə bir əl uzat, kömək et, tək qalmışam burda, pulum da azalıb. İki həftə sonra rayondan pul göndərəcəklər, indi pulum yoxdu, o zamana kimi mənə pul lazımdı axı. Hə, deyək köçdüm tələbə dostlarımın yanına, pulum yoxdusa bəs orda necə edəcəm?

Oyunbazlıq etdiyini bilsəm də ona yazığım gəldi və:

– Bir azdan sənə yüz manat gətirərəm, elə olanım budur, bundan artıq verə bilməyəcəm, – dedim.

Səidə yüz manat sözün eşidən kimi sevindiyini hiss etdirib məmnunluqla:

– Hə yaxşı, nə vaxt burda olarsan? – deyə soruşdu.

– Paltarlarımı geyinib gəlirəm, Əcəmidən Nərimanova altı-yeddi stansiya var, haradasa qırx dəqiqəyə orda olaram, – deyib onunla sağollaşdım.

***

Əlli dəqiqə sonra bir vaxt onun xalası qızı, mənim məndən küsmüş sevgilim Nərminlə kirayə tutduğu

mənzilin qapısını döydüm. Qapını açanda önümdə sadəcə bir mavi rəng köynək geyinmiş Səidə dayanmışdı. Köynəyin düymələrindən dördü açıq idi. Nümayiş etdirdiyi iri yumru döşləri gözlərimi qamaşdırırdı. Köynəyin ətəklərisə onun arxasını güclə örtməyi bacarmışdı. Yeridikcə köynəyin ətəyi yellənir, ətəyin altında yumru yancaqlarına sarılan qara üçkünc tumanı üzə çıxıb-gizlənirdi. O qapını açdıqda qapının arxasında gizlənmiş, sadəcə başını göstərmişdi. Qonşuların onu bu halda görmələrini istəmirdi yəqin ki. Evə girib ayaqqabılarımı çıxaranda:

– Bundansa önümə lüt çıxardın da, neynirdin bunu geyinib? – dedim. Sözüm ağzımda qaldı.

– Hə, elə? – deyib köynəyin düymələrini açıb əynindən çıxarmağa başladı.

Onun köynəyini soyunduğunu gördüyümdə geriyə dönüb giriş qapısının bağlı olub-olmadığını bir daha yoxladım. Qapıdan geriyə döndüyümdə əynində təkcə qara tumanı qalmışdı. Ürəyimcə olmasa da yalandan:

– Pulu verib qayıtmağı düşünürdüm, – dedim.

Səidə mənə tərəf addımlayıb:

– Bəsdi görək, yalançı, – deyib əllərini boynuma sarıyaraq yumşaq dodaqlarını dodaqlarıma yapışdırdı və bundan saniyələr sonra yatağa girdik. Mən də so-

yundum. Onun üzərində etdiyim azacıq hərəkətlərlə çox tərləmişdim, alnımdan tər damcılanırdı, yorğunluqdan yuxulayırdım...

Ayıldığımda səhər idi və yataqda tək mən idim. Yataqdan qalxıb paltarlarımı geyinərək aynaya yaxınlaşdım. Aynanın önündə bir parça vərəq vardı. Səidə mənim üçün cızma-qara etmişdi. Vərəqi əlimə alıb oxumağa başladım: "Səni oyatmaq istəmədim, pulu cibindən götürmüşəm, universitetə getməliyəm, sağ ol" yazmışdı.

Əl-üzümü yuyub yeməyə nəsə tapmaq ümidi ilə soyuducunu açdım. Soyuducuda duru yağ, üç yumurta, balaca kauçuk qabın dibində bir az da şor var idi. Bunlardan əlavə iki-üç boş banka. "Bu axmaq bunları niyə burda saxlayır ki" – deyə düşünərək çaydanı su ilə doldurub şəbəkəyə qoşdum. Onun kirli corabları, çirkli paltarları səpələnmiş tör-töküntülü evinə göz gəzdirərək çay dəmlədim. Soyuducudan tapdığım azca şoru taxta kimi çörəyə çəkərək səhər yeməyimi yeyib üstündən siqaret yandırdım.

Telefonda saata baxdığımda günorta saat bir idi. Tələsik üst-başımı düzəldərək hazırlanıb evdən çıxdım. Təbriz küçəsi ilə piyada gəzərək Dillər Universitetinin önünə getdim. Saat ikiyə 10 dəqiqə qalırdı. Yolun kənarında səki üzərində dayanıb siqaret çəkərək

Nərminin universitetdən çıxmağını gözləyərkən narın yağış yağmağa başladı. Yarpaqlarının ucu saralmış böyük bir ağacın altına keçib siqaretimi somurmaqda davam etdim. Saat üçə iki dəqiqə işləmiş universitet qapısı önündə tələbələr göründü. Səmada süzən durnalar kimi tələbələr qrup-qrup çıxıb yola düzəldiyində saysız tələbə qələbəliyi içində Nərmini tapmağa çalışır, üzdən üzə keçirdim. Arada gözüm açıq-saçıq geyinən qızlarda qalırdı və gözdən itənə qədər onların arxalarına baxırdım. Qəfil ayılıb qələbəlikdə yenidən Nərmini axtarırdım. Hər eynəkli, hər saçını arxadan rezinə keçirmiş qəhvəyi rəng saçı olan qız gördüyümdə ona oxşadırdım, hər hündür boy bir qız gördüyümdə elə bilirdim odu.

Axır ki, gözlərim məni yanıltmadı. Qəhvəyi saçını arxadan at quyruğu kimi yığmış, gözünə böyük çərçivəli eynək taxmış qəmzəli xanım universitet qapısından bayıra çıxdı. Onun yanında buruq-buruq saçını yana tökmüş, keçi saqqal saxlayan bir heyvərə vardı. Cinlər beynimdə təbil çalır, sinir damarları yerindən oynayırdı. Əllərimi sıxıb əsəblə dayanmışdım. Bu vaxt onlar mənə tərəf addımlayırdı. Nərmin məni gördükdə əsəblə gözlərini süzdürərək üzünü yana çevirib yanındakı oğlanla nəsə danışmağa başladı. Keçi saqqal heyvərə də Nərmin nə deyirdisə başını

aşağı-yuxarı edib səsini çıxarmırdı. Onların mənim yanıma çatmağına bir-iki addım qalmış irəli atıldım, buruq saç oğlanın yaxasından möhkəmcə yapışıb divara sıxaraq:

– Bu qoyunbaş kimdi, Nərmin? – deyərək bağırdım. Elə bu vaxt yaxasından tutduğum, bilmirəm oğlanmı, yoxsa qızmı deməli, canlı fəryad çəkib:

– Bu kimdi, ay Nəriş? – deyərək madmuazel əzilib-büzülməsi ilə danışdı.

Nərmin: – Burax onu, – deyə mənə qəzəbləndi.

Ətrafdakı bütün tələbələr bizə baxırdı. Yaxından ötən bəzi qızların "aaa..." səsləri, bəzilərindən "elə bil heyvandır", bəzilərindən "özünü göstərir" kimi sözləri bir qulağımdan girib digərindən çıxırdı. Sadəcə buruq saçın səsini eşitdiyimdən ürəyim yumşaldı, yaxasını buraxıb:

– Bağışla, elə bildim oğl..., heç nə, səni başqası ilə qarışdırdım, – dedim.

Nərmin:

– Gəl gedək, Firuz, gəl, – deyərək buruq saçı dartdı və mənə: – bir də bura gəlib məni biabır eləmə, – deyərək yanımdan uzaqlaşdı.

Yavaş-yavaş güclənən yağış selinin altında onların yolun qarşı tərəfinə keçərək dayanacağa getməsini və avtobusa qalxıb uzaqlaşmalarını seyr elədim. Saçla-

rımı islatmış yağış suyu başımdan süzülərək üzümə axır, üzümdən boynuma süzülürdü, mənsə eləcə yerimdə donub qalmışdım. Cibimdən siqaret çıxarıb yandıraraq avtobus dayanacağına tərəf getdim. Gic kimi dayanacaqda oturub fikirli halda siqaret çəkir, yolda axan suları sıçradaraq şütüyüb keçən avtomobilləri izləyirdim. Heç nə etmədən on, ya da on beş dəqiqə dayanacaqda oturduqdan sonra avtobusla metroya, ordan da ev istiqamətinə yola düşdüm.

Metrodan çıxdığım vaxt yağış daha da güclənmişdi, binaya girənədək tamam islanmışdım. Evə qayıdıb hamama girdiyimdə isti suyun altında dərin xəyallara daldım. Nərminlə olub-keçən bütün anlar gözümün önündən gəlib keçirdi. İsti duşun altında taxta parçası kimi oturmuşdum, sadəcə göz qapaqlarım yumulub-açılırdı. Nərminin xalası qızı Səidə ilə tutduğum əmələ it kimi peşman olmuşdum. Bu işin içindən necə çıxacağımı, nə bəhanə uyduracağımı, nə edəcəyimi düşünürdüm.

Nərminin məndən küsməsinə səbəb: bir dəfə Nərmini görmək üçün onların kirayə qaldıqları evə getmişdim, amma o evdə yox idi və xalası qızı Səidə evdə tək idi. Bu hal birinci dəfə deyildi. Nərminə zəng etmədən onlara getdiyim dördüncü hal idi ki, o evdə olmur, hansısa təlimdə, ya da Alman dili kursunda

olurdu. Sonuncu dəfə o evdə olmayanda Səidə ilə baş-başa qalmışdıq. Onun sərbəst olduğu və məndən xoşlandığı mənə çoxdan bəlli idi. Onun mənə qarşı hisslərindən istifadə etmək istəyirdim, amma necə edəcəyimi bilmirdim. Həmin gün istəyimə çatdım. Necə oldusa onunla öpüşdüm və sonra da yatağa girdik. Evin açarı Nərmində də olduğu üçün onun evə nə zaman girdiyindən heç xəbərimiz olmamışdı. Həmin gün Nərmin bizi yataqda yaxalayıb heç nə demədən ağlayaraq evdən çıxıb getdi...

Mən o zaman Nərmini itirmək istəmirdim. O, Səidənin tayı deyildi, o tamam başqa idi, o mənim üçün ilahidən göndərilmiş bir hədiyyə idi – kimi fikirlərlə yaşayır, – bu hədiyyəni əbədi həyata qədər qəlbimdə, sol tərəfimdə saxlayacağam, – deyə düşünürdüm. Onunla bir balışa baş qoymaq, bir yataqda qocalmaq istəyirdim. “Ah Səidə, məni nə hala saldın” – deyə fikirləşib yenə ürəyimdə Səidəni söydüm. Hamamdan çıxıb birbaşa yerimə girərək yatdım.

***

İki saat ərzində səssiz-səmirsiz yatdığım çarpayıdan telefon zəngi ilə narahatcasına oyanıb qalxmalı oldum. Zəng edən iş yoldaşım Elnur idi. Telefonu yarı yuxulu halda açıb:

– Alo, hə Elnur, eşidirəm, – dedim.

Elnur:

– Salam Rasim, necəsən? Bağışla dünən gələ bilmədim, bu gün Teymur müəllimlə sənə dəyməyə gələcəyik, – dedi.

Yalanımın üstü açılacağı qorxusundan onun sözü ilə dik atılıb eşitdiyimin doğruluğuna əmin olmaq üçün:

– Nə? Nə vaxt? – deyə soruşdum.

– Bir saatdan sonra işdən çıxıb ora gələcəyik, – dedi.

– Hə, yaxşı, hələlik, – deyib telefonu söndürdüm. Tələsik paltarımı geyib aşağı düşdüm. Qara buludlar səmanı həbs etsə də binanın önündə kiçik gölməçələr yaratmış yağış dayanmışdı. Kanalizasiyaya yol tapmamış çirkli suları dalğalandıran asta külək əsirdi, amma hava üşüdəcək qədər soyuq deyildi. Təbiətin qəribə oyunu içində yaşadığım binadan yüz metr aralı yolun qarşı tərəfində yerləşən aptekə gedib, iki büküm beş metrlik tənzif alıb yüyürərək evə döndüm. Tənzifi cırıb aynanın önünə keçərək belimə sarımağa başladım. Söylədiyim yalan əbədiyyətədək hər kəs üçün həqiqət bilinsin deyə onlar burda olan vaxtı artistlik eləməli idim.

On metr tənzifi belimə sarıyaraq qısaqol köynək geyinib aynada özümə tamaşa edirdim. Əksimə bax-

dıqca dişlərimi ağardırdım. Həqiqətən də xəstəyə oxşayırdım. Aynadakı tamaşanı bitirib mətbəxə keçdim. Qapısını bağlamağı unutduğum balaca soyuducumdan pivə götürüb köhnə divanıma uzandım. Ağzım zəhər kimi idi, mədəmin turşusun dilimdə dada bilirdim. Pivədən iki qurtum içib ağzımın dadını dəyişərək, televizoru yandırıb kanalları dəyişməklə məşğul oldum.

Pivə tək başına ləzzət etmədiyindən şalvarımın arxa cibində qalıb yastılanmış qutudan əzik bir siqaret götürüb yandıraraq məzə etdim. Daimi yeri divanın altı olan külqabı əvəzi işlətdiyim boşqabı götürüb dizimin üstə qoyaraq içinə kül boşaldırdım. İkinci pivəni yarıladığımda qonaqların qapını döydüklərini eşitdim. Heç istəməsəm də qapını açıb saf insanları evə buraxdım. Onları qarşıladığımdan bəri kartımı oynayırdım. Sağ ayağımı çəkərək yeriyir, arada da nıqqıldayırdım.

Oyunbazlığıma heyran qalmışdım doğrusu. Onlar evdə olduqları iki saat ərzində xəstə kimi hərəkət etdim, az qalmışdı ki, özüm də bu oyuna inanam. Mənim saf qonaqlarım şübhələnmədən belə iki saat sonra cəhənnəm olub getdilər və mən belimi sıxan tənzifdən qurtuldum. Acından mədəm ağrıyırdı, amma yemək yeməyə ərinirdim. Ara-sıra Nərminə

zəng edir və uzun-uzadı mesajlar yazırdım. Artıq onsuz on gün keçmişdi, daha hər şeyin bitdiyini, onun geri, mənə qayıtmayacağını düşünürdüm. Bu kimi düşüncələrdən uzaq qalmaqdan ötrü dostum Raufa zəng etdim.

– Salam, Rauf, necəsən? Nə var, nə yox? İşlər necə gedir?

Rauf:

– Salam qardaşım, yaxşıyam, sağ ol, sən necəsən? Səs-sorağın gəlmir, işlər qaydasındadı? – dedi.

Mən acınacaqlı tonda:

– Yox, heç nə qaydasında deyil, özümü pis hiss edirəm, gəl bura bir az söhbət edək, – dedim.

Rauf:

– Hə yaxşı, qardaş, gəlirəm, nəyəsə ehtiyacın varsa alım gətirim? – deyə soruşdu.

Mən:

– Çörək də gətirsən əla olar, – dedim, zənglə danışdığımız bir vaxt polisə düşməyək deyə, marixuana əvəzinə bu jarqonu istifadə edirdik.

Rauf:

– Yoxdu, vallah Rasim, mən də istəyirəm, iki gündü tapa bilmirəm, olsa-olsa üç günə söz verib uşaqlar, görüm nə olacaq? – dedi.

Mən:

– Hayda... bəs nə edək indi? Özümü çox pis hiss edirəm axı, olsa idi əla olardı. Sənə qurban, gör nə edirsən, bir təhər elə gör tapa bilirsən, – dedim, az qalmışdım ki, yalvarım.

Rauf:

– Bir nəfər var, gözlə ona zəng edim, iki dəqiqəyə xəbər edəcəm, – deyərək telefonu söndürdü.

Siqaret çəkərək tez-tez telefonun saatına baxırdım. Raufun dediyi vaxtdan üç dəqiqə keçdi, zəng gəlmədi. Beş dəqiqə keçdi, zəng gəlmədi. Artıq on dəqiqə keçmişdi və mənim səbrim tükənmişdi. Telefonu kiliddən çıxarıb Raufu yığdım:

– Alo, nə oldu, ay qardaş? İki dəqiqə dedin, yarım saatdı, xəbər gəlmir səndən.

Rauf:

– Vallah, ay Rasim, mən də xəbər gözləyirəm, mənə də beş dəqiqəyə xəbər edəcəm dedilər. Gözlə, bircə saniyə zəng edim, indicə səni yığacam, – deyərək telefonu üzümə söndürdü. Bu dəfə sözünün üstündə durdu, iki dəqiqədən sonra zəng gəldi.

– Hə, Rauf, nə oldu? Tapdın? – deyə soruşdum.

Rauf:

– Yox, zəng elədiyim adam da dedi yoxdu. Gör nə deyirəm, dərman var, gətirim? – soruşdu.

Damarı qaşınan ağır narkomanlar kimi:

– Nəyin varsa gətir, gözləyirəm, – dedim.

Rauf:

– Yarım saata orda olaram, aptekə dəyim gəlirəm, hələlik sağ ol, – deyib telefonu söndürdü. Raufla sağollaşmağımın üstündən qırx üç dəqiqə keçmişdi və mən bu vaxt ərzində iki şüşə pivə içmiş, beş dənə siqaret çəkmişdim. Telefonu götürüb yenə onu yığdım, o zəngimi məşğula verdi, ikinci dəfə yığdım, o yenə zəngimi məşğula verdi. Artıq onu söyməyə hazırlaşırdım ki, qapı döyüldü. Səbirsizliklə qapını açıb Raufu evə buraxaraq:

– Gəl çıx da, harada qaldın? Ürəyim partladı ki, – dedim.

Rauf cibindən bir list psixotrop dərman çıxarıb mənə uzatdı:

– Buyur, sakitləş, – deyib güldü. Ayaqqabılarını çıxararaq: – hə, nə edirsən, nəylə məşğulsan? Çoxdandı görüşmürük, darıxmışdım səndən sarı, – dediyində verdiyi psixotrop dərman listinə baxırdım.

Kapsullardan beşinin əskik olduğunu görüb:

– Heç, avaraçılıq eləyirəm... Bunun yarısı hanı? – deyərək listi Raufa göstərdim.

Rauf sinəsini qaşıyıb:

– Mən beşin aptekdə atdım elə, təsirin iki saata bildirər ancaq, sən də at, yubanma, –söyləyərək divanda əyləşdi.

Listdəki bütün kapsulları çıxarıb butulkanın dibində qalmış pivə ilə mədəmə ötürdüm.

Rauf pivə şüşəsini görüb:

– Qalıb pivə, ya hamısını əmmisən? – deyə soruşdu.

Soyuducudan iki butulka pivə gətirib masaya qoyaraq divanda oturdum.

Bir saat sonra bütün bədənim qaşınırdı, burnumu qaşımaqdan yara etmişdim daha, Rauf da qaşına-qaşına divanın bir küncünə qısılıb yuxulayırdı. Arada gözünü açıb mənə baxaraq gülümsəyir, yenə gözlərini yumurdu. Dodaqlarını tərpədərək nəsə deməyə çalışırdı, amma başa düşmürdüm. Qaşıntılarım tədricən daha da çoxaldı. Bədənimdə elə bir nöqtə qalmamışdı ki, ora dırnağımı sürtməyim, burnumun içindən qıçımın arasına kimi. Qaşı, qaşı, yenə də qaşı, bitib-tükənmək bilməyən qaşıntılar. Yavaş-yavaş xumarlanırdım. Gözümü yumur, yuxu görürdüm, gözümü açıram evdəyəm. Gözümü yumduğum an yuxu görürdüm. Hər gözümü açıb-yumduğumda yeni bir yuxu görürdüm. Nə xəyal qururdumsa gözlərimi yumduğum an beynimdə canlanırdı. Xəyaldan xəyala səyahət etdiyimdə Rauf:

– Rasim, Rasim, ay Rasim? – deyə çağırdı.

Dərmanın dəmi ilə özümü çox yorğun hiss etdiyimdən ona yalnızca:

– Hmm? – deməyi bacardım.

Rauf nəfəsini dərə-dərə:

– Rasim, nə fikirləşirəm gözümün qabağına gəlir, sənin də ayaqların gizildəyir? – deyə soruşdu.

Ona yenə:

– Hmm, – deyə cavab verdim.

Birinci "hmm" deyəndə sual mənasında demişdim. İkinci "hmm" isə təsdiq mənasında dedim ona. Raufun dediyi kimi mənim də ayaqlarım gizildəyirdi və başım fırlanırdı. Gözlərimi yumduğumda sanki möhkəmcə fırlayırdılar, elə sanırdım ki, ətrafımdakı əşyaların hamısı dövrə vurur. Dünya-aləm ətrafımda möhkəmcə dövrə vurur. Bu dövrələr getdikcə şiddətlənirdi və mənim başım gicəllənməyə, mədəmsə bulanmağa başlamışdı. Zəhrimarın təsiri güclü idi. Binanın üçüncü mərtəbəsində köhnə divanımın üzərində Dənizkənarı bulvardakı karuselin həzzin alırdım. Həzzinə tüpürdüyümün təsiri gücləndikcə mədəmin bulantısını artırırdı. Qusacağımı düşünərək bir təhər ayağa qalxdım. Hamamdan ləyən gətirib divanın yanına qoydum. Elə düşündüyüm kimi də oldu. Qırmızı ləyənə sarı rəng su qusdum. Rauf başını qaldırıb mənə baxaraq gülüb yenə yuxuya daldı. Ləyəndəki

əsərimi unitaza boşaldıb ağzımı yaxaladım və ləyənlə birlikdə yatağıma getdim. Yorğana bükülüb başımı balışın altına salaraq səhərə qədər yarı yuxulu halda yatmağa çalışdım. Tez-tez ayılıb yuxuya dalırdım.

***

Səhər oyandığımda Rauf xorul-xorul quru döşəmənin üstündə yumşaq çarpayıda uzanmış tək yatırdı. Onu ayağımla tərpədib:

– Oyan, oyan... elə yatıb elə bil isti yorğan-döşəkdədir, dur ayağa, – deyərək oyandırmağa çalışdım.

O quru yerdə ağzı üstə əl-ayağını elə uzadıb yatmışdı ki, öldüyünü zənn etdim, qorxaraq əlimi burnuna yaxınlaşdırdım və ayının isti nəfəsinin əlimə dəydiyini hiss edib ona daha möhkəm bir təpik vurdum.

Rauf yerindən dik atılıb:

– Nə olub, ay eşşək, belə adam oyadırlar? – deyərək qalxıb divanda uzandı.

Əl-üzümü yuduqdan sonra Raufun ayaqlarını itələyərək divanda özümə yer edib oturdum. Həmin vaxtı başım ağrıdan partlayırdı. Ac qarına siqaret yandırıb tüstüsünü ciyərlərimə somurduğumda mədəm axşamkı kimi bulandı. Tualetə qaçıb yarı yerə, yarı unitaza qusub yerimə qayıtdım. Rauf oyanıb səssiz-

səmirsiz eləcə divanda oturdu, tərpənmədən gözlərini televizorun qara ekranına zilləmişdi. Bir müddət sonra özünə gələrək əl-üzünü yuyub yanıma qayıtdığında:

– Gəl çıxaq şəhəri gəzək, bir az eynimiz açılsın, adam oturduqca ürəyi sıxılır, – dedi.

Bunun yaxşı fikir olması ilə razılaşıb təmiz paltarlarımı geyindim. Hər ikimiz də saçlarımızı kremləyib arxaya darayaraq Fəvvarələr bağı istiqamətində yola düzəldik.

Günorta saat ikinin yarısı bikar-bikar fəvvarələr meydanında gəzir, dar şalvar, qısa yubka geyinmiş qadınların yeridikcə silkələnən yanlarına, incə baldırları, ətli budları olan çılpaq qıçlarına baxırdıq. Açıq-saçıq geyimliləri nəzərdən qaçırdığımda Rauf onları gözlə işarə edərək göstərirdi. Eyni tərzdə mən də ona ehtiras xəzinələrinin koordinatlarını verirdim. Orada yarım saata yaxın dolaşdıqdan sonra içmək qərarına gəldik. Fəvvarələr meydanından çıxıb ara küçələrlə gedərək qırmızı rəng divarlarından çılpaq qadın portretləri, naxışlı qara tavanından yuvarlaq əldədüzəlmə dəmir çilçıraq asılmış, çeşid-çeşid spirtli içkilərlə zəngin böyük barı olan kiçik bir pubun yeşiyə oxşar oturacaqları olan iki nəfərlik masasında əyləşib pivə və krevetka sifariş etdik.

Əl qədər qırmızı ətək, belinin yarısını açıqda qoyan qara mayka geyinmiş, boz idman ayaqqabıları olan, gödək saçının ucunu maviyə boyatmış, pirsinq taxılı kiçik dodaqlarına qara pomada çəkmiş, balaca boy, toppuş ofisiantın gətirdiyi pivə bakalından ikinci qurtum alanda yenə mədəm bulandı. Pubun tualetinə qaçıb gözlərim qızaranadək qusdum, yerimə qayıtdığımda pivəyə ara verib krevetka yeməklə başımı qarışdırdım. Lənətə gəlmiş qırmızı böcəkləri, qabıqlarından təmizləyib yemək elə də asan deyildi. Dallarındakı bir balaca, barmaq ucu qədər parçadan sarı zəhmət çəkib heç təmizləmək belə istəmirdin. Amma xəstəlik kimi birini təmizləyib yedikdən sonra digərinə, digərindən digərinə keçə-keçə önümə çəkdiyim boş qabı krevetka qabığı və başı ilə doldurmuşdum. Qabda yeddi-səkkiz krevetka qalmış:

– Rauf, bu balaca böcəklər, elə duzlu balıq dadı verir, ondansa balıq istəyərdik də, – dedim.

Rauf:

– Daha qurtarıb, bir şey qalmayıb, pul vermişik, heyifdi, yeyək, – deyərək gülümsəyib, –əllərini iylə, – sözlərini əlavə etdi.

Mən iki əlimin də barmaqlarını birləşdirərək burnuma yaxınlaşdırıb qoxuladığımda:

– Ay zibil, əlimdən leş iyi gəlir, elə bil bir Kam.AZ balıq qarnı təmizləmişəm, – deyib dodağımı büzərək başımı buladım. Əlimi solfetlə silib yenidən burnuma dayadım və yenə həmin üfunət dolu iy barmaqlarımdan gəlirdi. Tualetə keçib əlimi iki-üç dəfə sabunla yusam da əllərim qoxuyurdu. O iy düz iki gün əllərimdən getmək bilmədi. Krevetkanın ardınca saçaqlı pendir və noxud sifariş etdik. Dörd bakal pivə ilə sifariş etdiyimiz məzələri tükədərək sərxoş halda pubdan çıxıb Fəvvarələr meydanına doğru ara küçələrdə addımladığımızda Raufla "bu gün bir qızla tanış olmadan evə qayıtdı yoxdu", – deyə sözləşdik. Üstəlik fikrimizdən dönməyək deyə də ağır bir söyüş qoyaraq razılaşdıq. Razılığımıza əsasən birinci mən, ikinci Rauf yaxınlaşmalı idi. Dostum, Nizami küçəsində irəlilədiyimizdə önümüzdə gedən biri dar cins şalvar geyinmiş, digəri isə dizdən yuxarı yubka geyinmiş qızları göstərib:

– Hə, getdin, görək nə edirsən, – deyərək güldü...

* * *

Normal halda həyəcanlanan Rasim pivənin təsiri altında ürək rahatlığı ilə cins şalvar, qara köynək, qəhvəyi gödəkcə geymiş sarışın qız tərəfdən onlara yaxınlaşıb birlikdə addımlamağa başlayanda:

– Salam xanımlar, necəsiz? Bəlkə birlikdə gəzək? – dedi.

Sarışına aman vermədən sağında addımlayan qara saçlı qız:

– Yox, – deyərək üzünü bozartdı.

Arsızlığıma salıb ikinci bir cəhd etməyə çalışdım:

– Niyə? – deyərək.

Enli qaşları, qara saçı, qartal dimdiyinə bənzər burnunun fındıq boyda deşikləri olan, qısa yubkalı qız gözlərini süzdürüb:

– Yox deyirəm, narahat edirsən, – dedi.

Daha bezdirməmək məqsədi ilə:

– Bağışlayın, sağ olun, – deyib addımlarımı yavaşladaraq Raufun mənə yetişməsinə imkan verdim.

Rauf sağıma keçən kimi:

– Nə oldu? Razı olmadılar? – deyə soruşdu.

Başımı sağa-sola yelləyib:

– Yox dedilər, daha doğrusu yaxınlaşdığım heç dinmədi. Yanındakı qara saçlı qız yox dedi – dedim.

Rauf:

– Həmişə elə olur, yaxınlaşdığın qız heç nə demir, ancaq yanındakı ifritə xainliyindən aman vermir tanış olasan, – dedi.

Başımla onun sözlərini təsdiqləyib əlimi önə uzadaraq:

– Daha olan oldu, indi sıra sənindi, buyur görək nə edirsən, – dedim.

Rauf bicliklə gülümsəyib:

– Bax gör qardaşın neynir, öyrən, – dedi.

O ac pişik kimi sağa-sola, o yana-bu yana baxa-baxa irəlilədiyində qəfil bizə sarı gələn iki qızı göstərərək:

– Tapdım, dön, bunlar mənlikdi, – deyib yanımdan iri addımlarla uzaqlaşdı.

Qızlara yaxınlaşdığında beş-altı metrlik məsafə ilə onu təqib edirdim. Ara-sıra onun qızlara dediyi "niyə yox, filmə baxaq, çay içək, çünki şirinsən, axı səndən xoşum gəlir" kimi bir çox qırıq-qırıq sözləri qulağıma çatırdı. Artıq Fəvvarələr meydanından çıxıb qızların ardınca Dənizkənarı bulvarda gəzirdik. Rauf onlardan əl çəkmirdi, qızlar da gah dayanır, nəsə deyir, gah da addımlayırdılar. Mən də bir məşğuliyyət kimi Raufun tanış olmağa çalışdığı tünd qara saçlı boz parça jilet, dam-dar qara şalvar geyinmiş qızın aşağı-yuxarı yellənən arxasına baxa-baxa siqaret çəkməklə məşğul idim. Biz daha Dənizkənarı bulvardan çıxıb 28 May metrosuna tərəf qızların arxasınca gedirdik. Üç min metr gəzdikdən, yarım saatdan çox danışdıqdan sonra axır qızları dilə tutmağı bacardı. Başını geriyə çevirib üzündəki lalə-nərgizlə məni:

– Gəl bura, – deyərək çağırdı.

Mən də sevinclə yüyürərək tez onlara çatdım. Salam verərək digər qızın yanına keçdim. Raufun yanında durduğu mənim yanında durduğumdan qat-qat gözəl idi. Mənə düşən qızı gördüyümdə "Bəy verən atın dişinə baxmazlar" misalı ilə özümə təskinlik verdim. Qızlarla birlikdə 28 Mall sinemaya gedib həmin vaxtı ən tez seansı olan hansısa filmə baxdıq. Filmin ardınca çay içib uzun-uzadı mənasız söhbətlər etdik. Ən sonunda telefon nömrələrini alıb evlərinə yola saldıq. Axşamtərəfi Raufla da sağollaşıb ayrılaraq divarlarının rəngi solmuş, dilə gəlsə "təmizlə məni, təmizlə, nə olar" – deyə yalvaracaqmış kimi görünən, dağınıq evimə qayıdıb təkliyimlə baş-başa qaldığımda Nərminin xəyalları yenə caynağına alıb parçalamağa başladı. Telefonu götürüb ona zəng etdim. Telefonlarıma cavab vermədiyindən "facebook profilinin dostluq bölməsində olan qızlara yazıb indi harada qaldığını öyrənə bilərəm" fikri beynimi işıqlandırdı. Öz-özümə "niyə haçandı ağlıma gəlmir bu?

Çox ağıllısan, Rasim, çox deyərək facebookda gəzmək üçün telefonun internetini aktiv etdiyimdə whatsappdan üç mesaj gəldi və mən interneti açmağımın əsas məqsədindən yayınıb whatsappa girdim. Yazan həmin gün tanış olduğum Günel xanım idi. O mənə ayrı-ayrılıqda: "Salam, necəsən? Mənəm Günel" yaz-

mışdı. Mesaj Aresin oğlu Erotun libido enerjili oxu kimi qəlbimə sancıldığından Nərmini unudaraq Erotun anası Afrodita tək ehtiras saçan Günelə cavab yazmağa başladım. O sanki whatsapp proqramının içində yatmışdı, mən ona yazan kimi o mənə cavab yazmışdı. Onunla durmadan axşama kimi yazışmışdım, söhbətimizin ortasından biz artıq intim hislərimizdən danışırdıq. Söhbətimizin davamı da demək olar ki, ancaq onun dodaqlarından, sinəsindən və bədəninin görmək istədiyim digər yumşaq hissələrindən olmuşdu. Güneli iki gün sonra evə dəvət edib yunan tanrıları kimi sevişdim. Libido günəşi ilə çiçək açmış üçgünlük sevgimizi kiçik mübahisə ilə soldurub toxumları Marsa səpərək ayrıldıq.

Bu zaman içində bir dəfə Səidə zəng edərək: – Kirayədən köçürəm, əşyalarımı aparmağa kömək lazımdı, – demişdi. Mən ona: – Cəhənnəm ol, – deyib telefonu üzünə söndürmüşdüm. Onun əlindən nömrəmi dəyişib yeni nömrə aldım. Bu yeni nömrəmlə Nərminə zəng etmişdim və mən olduğumu tanımayıb telefonu açanda:

– Salam, Nərmin, xahiş edirəm, söndürmə, gözlə, qulaq as mənə, xahiş edirəm, – dedim.

O, kinayəli tərzdə:

– Nə sözün var ki, deməyə? – dedi.

Mən yalvarırmış kimi:

– Çox darıxmışam, Nərmin, çox darıxmışam, nə olar, bağışla məni, sənsiz alınmır, heç bilmirəm nə edim, – dedim.

O acıqlı səslə:

– Səidə ilə yatmazdan əvvəl fikirləşəydin onu, – deyərək telefonu söndürdü.

Sonrakı zənglərimə daha cavab vermədi. Onunla iki kəlmə danışmaq, səsini eşitmək məni mum kimi əritmişdi. "Kişilər ağlamaz" sözünü danıb bələkdəki körpə tək ağladım o vaxtı. Özümü o zaman bədbəxtlər sırasında sonuncu mərhələdə, tamam tənha, yalnız, kimsənin gərəyi olmayan kimi hiss edirdim. Bu hisslər içində sıxılıb əzildiyimdən darıxdım, həm də çox darıxdım, sevildiyimi hiss etməkdən ötrü darıxdım. Sevilməyən insan duyğusu ilə pərişan halda yaxınlarımın, doğmalarımın yanına getmək qərarına gəldim, sevildiyimi duyum deyə. Axşam qorxularımın kölgəsində bir neçə şalvar, köynək götürüb kiçik qara rəngli əl çantasına yığaraq hazırlaşdım. Səhəri tələm-tələsik evdən çıxıb doğma şəhərim olan Mingəçevirə getmək üçün avtovağzala yollandım. Mingəçevir-Bakı marşrutlarından kapotuna qara fon üzərində iri ağ hərflərlə Bakı və Ford yazılmış, oturacaqlarını kir basmış, pəncərələrinə ipə taxılı qara

rəng parçadan pərdə çəkilmiş, açıq mavi rəng, balaca köhnə bir avtobusa əyləşib yola düşdüm. Həmin vaxtı yanımda gözəl bir xanım əyləşmişdi. Şəhəri çıxana kimi ona nə deyim söhbət açım, deyə düşünürdüm. Qaradağ postuna çatdığımızda standart bir fikir gəldi ağlıma və qorxa-qorxa üzümü xanıma tutub:

– Tələbəsiz? – deyə soruşdum. Tünd qara saçları, saçları kimi qara, dümdüz qaşları, iri qəhvəyi gözləri, qar kimi bəyaz üzü olan xanım mənə baxıb:

– Yox, bacımın yanına gəlmişdim, – deyərək dodağının kənarlarını gözlərinə tərəf dartdı və ürəyimi sakitləşdirdi. Bütün yanıqlar kimi mən də "qız güldüsə, hər şey tamamdı" – deyə düşündüm. Ona sual verməkdə çətinlik çəkirdim, sözlər ağlıma güclə gəlirdi, fikrimlə əlbəyaxa olaraq axır ki:

– Mingəçevirə gedirsiz? – deyə ikinci sualı dilimə gətirdiyimdə yanımda oturan gözəl xanım sağ əli ilə saçını üzündən götürüb qulağının arxasına ataraq dodağını büzüb qaşlarını çatdı. Həyatında ilk dəfə bu sözü eşidirmiş kimi qəribə tərzdə baxaraq:

– Avtobus Mingəçevirə gedir də bəs, – deyib dişlərini göstərdi.

Mən daha da ürəkləndim və onun cavabına yalandan da olsa güldüm. "Az qalmışdı yandırım" – deyə düşünərək:

– Hə, elə düşündüm ki, bəlkə hardasa düşəcəksiniz, ona görə soruşdum, – dedim.

Xanım dodaqlarını uzadıb:

– Yooox, – deyib – Mingəçevirdə qalıram, elə ora gedirəm, – sözlərini əlavə etdi.

– Hə, sevindim, mən də Mingəçevirdə qalıram, – deyib siqaretdən saralmış dişlərimi gizlətməyə çalışaraq güldüm.

Xanım gözlərini qıyıb çəpəki baxır, amma gülümsəyirdi. O iki-üç saniyə belə baxdıqdan sonra: – Lap yaxşı, – dedi.

Onun son sözündən sonra nə deyəcəyimi bilmirdim. Çiyin-çiyinə oturduğum gözəlçə ilə söhbət edib tanış olmaq üçün həyəcanla tələsik beynimdəki lüğəti vərəqləyirdim. Və birdən yadıma düşdü ki, hələ də adını soruşmamışam:

– Adınız nədir? Bayaqdan söhbət edirik, soruşmağı unutmuşam, – dedim.

– Röya, bəs sənin? – deyərək adımı soruşdu.

– Adım Rasim, baş hərflərimiz eynidi, Allahın işinə bir bax... – çəkinə-çəkinə söylədim.

Röya əlini uzadıb:

– Tanış olmağımıza sevindim, – dedi.

Əl verəcəyini ağlımdan keçirmədiyimdən azca karıxıb cəld əlimi irəli uzatdım. Qəflət həyəcanından Röyanın nazik barmaqlarını astaca sıxaraq:

– Mən daha çox sevindim, – deyib şit-şit gülümsədim.

Ansızın bir şey diqqətimi cəlb etdi. Avtobusda səssizlik vardı. Başımı qaldırıb ətrafıma baxdığımda gördüm ki, avtobusda oturan hər kəs, cavanından ağsaqqalına lal-dinməz diqqətlə bizi dinləyir. Başımı qaldırıb ətrafa baxmağımla üzlərini o yana-bu yana çevirib başqa yerə baxmağa, kimisi yanındakı ilə söhbət etməyə başladı. Heç nəyə məhəl qoymayıb yenicə tanışdığım xanımla söhbətimə davam etdim. Avtobus Kürdəmirdə saxlayıb hərəkətə fasilə verdiyində Röya ilə kafedə qıraqdakı tozlu masalardan birində oturub çay içdik. Avtobus sürücüsü siqnal verib hamını avtobusa səsləyəndə kafedəki kiçik köşkdən bir böyük cips, günəbaxan tumu, yarım litrlik iki su alıb avtobusa əyləşərək yola qoyulduq.

Mingəçevirə çatana qədər 30 qram günəbaxan tumu, dörd-beş dilim cipslə başını aldadaraq harada, hansı küçədə, hansı binada yaşadığını, hansı məktəbi bitirdiyini, neçə yaşının olduğunu, facebook, instagram adreslərini, telefon nömrəsini, demək olar ki, bütün arxivini öyrəndim. Mingəçevirə çatdığımızda onu yaşadığı binaya kimi ötürdüm. O bizim məhəllədən dörd məhəllə yuxarıda, Dostluq parkına yaxın bir binada qalırdı. Röya ilə yaşadıqları binanın arxasın-

da sağollaşıb çinar ağacları arasında çəkilmiş səki ilə gəzərək avtobus dayanacağına, dayanacaqdan da şəhərarası marşrutla evimə getdim.

Evimizə çatdığımda artıq günəş səmadan enərək başını yerə soxmuşdu və hava qaralmağa başlamışdı. Evimizin qapısını döydüyümdə önümə anam çıxdı. O məni görməyinə çox təəccüblənmiş, həm də çox sevinmişdi. Kor insan belə onun gözlərindəki sevinci görə bilərdi. Anam məni qucaqlayıb həm sağ, həm də sol yanağımdan öpüb:

– Hardasan, ay qaçqın, axır evin yolunu tapdın, nə əcəb edib gəldin, gəl keç, keç otur divanda, – deyərək məni ortasında ətrafına taxtadan altı stul düzülmüş köhnə masası, üzərinə sarı rəng örtük keçirilmiş divan qarşısında plazma televizoru olan, tavanında almaz formasında büllur şüşəli çilçıraq asılmış balaca qonaq otağına gətirib yanımda əyləşdi. Qardaşımın balaca oğlu mətbəxdən üstümə qaçıb:

– Necəsən, əmi? – deyərək qucağıma atılıb, – ana, ana, əmim gəlib, – deyərək təzədən qucağımdan düşüb mətbəxə qaçdı. Qardaşım arvadı əllərində sarı rezin əlcək, boz ev xalatının üzərindən taxdığı kiçik mavi gülləri olan sarı önlüklə mətbəxdən çıxıb:

– Xoş gəlmisən, Rasim, necəsən? Haçandır gəlmirsən, işlərin necə gedir? – dedi.

– Yaxşıyam, şükür, gəlinbacı, siz necəsiz? – dedim.

Anam üzünü gəlininə tutub:

– Qızım bizə çay gətir, içək, oğlum yoldan gəlib, yorğun olar yəqin, – dedi.

Gəlinbacım:

– Şükür, biz də yaxşıyıq, – deyib – yaxşı ana, gətirirəm, dəmə qoymuşdum elə, – deyərək mətbəxə keçdi.

Mən anamdan:

– Atamla Elçin hardadı? Hələ işdən gəlməyiblər? – deyə soruşdum.

Anam kəfgiri işləməyən tünd qırmızı rəng divar saatına baxıb:

– İndiyə çoxdan gəlməli idilər, bazar da çoxdan bağlanar, harda olsa gələrlər, darıxma, – dediyi vaxt qapı döyüldü. Qonaq otağından çıxıb ağ rəng çəkilmiş yumru əlcəkli dəmirdən giriş qapısına tərəf gedəndə atamla qardaşımın deyindiyini eşidirdim.

***

Qapını açıb onları qarşıladığımda onların üzündən zəhrimar yağırdı. Məni gördüklərində üzlərindəki soyuq qəzəb əriyərək isti təbəssümə məğlub oldu.

Atam:

– Bay, bay, xoş gəlibsən, avara.

Qardaşım:

– O... üzünü görək, ay qardaş – dedi.

Onlarla görüşüb nə baş verdiyini, niyə əsəbiləşdiklərini soruşdum. Atamın dediyinə əsasən: "maşını piyada keçidində saxlayıb piyadaya yol vermək istəyəndə axmağın biri gəlib arxadan maşını vurduğuna görə" – əsəbi idilər. Onlar qəza baş verən yerdən birbaşa usta yanına getdiklərinə görə həmin gün evə gec gəlmişdilər...

Anamla gəlinbacım yeməkləri, salatları, ev üsulu hazırlanmış heyva və gilas kompotlarını masaya düzərək axşam süfrəsini hazırlayıb bizi süfrəyə çağırdılar. Biz də ata və iki oğul kişi-kişi divandan qalxıb hazır süfrə başına keçərək söhbətimizi masa arxasında davam etdirdik. Önümə çəkdiyim boşqaba cücə və kartof qızartması qoyaraq atamdan:

– Bazarda işlər necə gedir? Alver yaxşıdı? – deyə soruşdum.

Atam çörəkdən bir əl kəsib adətən eşitdiyim:

– Yox bala, alver sıfır, əvvəl günə əlli-altmış manat qazancımız olurdu, indi beş-on manat qazananda sevinirik, – cümlələrini təkrar etdi.

Elçin ağzındakı yeməyi çeynəməyib ağzı dolu:

– Bu gün bir az yaxşı oldu, pensiyalar verilib deyə camaat bazara girib-çıxırdı, – dedi.

Atam qardaşımın sözünü təsdiqləyib:

– Hə, bu gün yaxşı oldu, şükür, pensiyalar veriləndə iki-üç gün alver düzəlir, elə ki, pensiyanı yeyib qurtardılar, əvvəlki kimi olur, – dedi.

Mən:

– Yaxşı olar inşallah, – deyib qardaşımın balaca oğlu Yalçına baxıb, – dərslər necə gedir, göyçək oğlan? – dedim.

Gəlinbacım oğluna imkan vermədən:

– Gələn il başlayacaq məktəbə, əmisi, – dedi.

Yalçın uşaqlara məxsus utancaqlıqla gülümsəyib:

– Hələ məktəbə getmirəm ki, mən, – deyərək şipşirin çürük dişlərini nümayiş etdi.

Mən:

– Yalçın yaxşı uşaqdı, o həmişə beş alacaq, görərsiniz! – deyib Yalçına göz vurdum.

Bu dəm atam və qardaşım bir ağızdan "görək də" – deyib güldülər. Beləcə yeməyimizi yeyib, ardınca çay içib gündəlik məişət söhbətlərinə yekun vuraraq yataqlarımıza getdik.

Gecə mənim üçün qonaq otağında döşəməyə sərilmiş döşəyə uzanıb whatsapp üzərindən bir neçə cümlə Röyaya yazdım. Ondan cavab gəlmədiyindən facebook profilimi açıb dost-tanışın paylaşdığı şəkilləri, statusları oxumadan bəyənib sosial aləmdə gəzərək vaxt öldürməklə məşğul oldum. Facebookda

yayımlanan xəbər səhifələrində “məşhur müğənni cəsarətli addım atıb kameranın önünə çılpaq çıxdı”, “Monika Belluççini heç belə görməmişdiniz,” nə bilim “filankəs sinəsini göstərdi” başlıqları altında xəbərlər gördüyümdə onlara təcili surətdə girib baxırdım. Amma başlığa uyğun şəkil görməyəndə xəbər səhifəsinin rəhbərindən tutmuş xəbərçisinə qədər söyərək başqa səhifələrə keçid edirdim. Daha sonra instagrama girib facebookdakı məşğuliyyətimi orda davam etdim.

Gecə saat ikiyə işləmiş hamının yatdığından əmin olduğumda ağır qalın yorğanın altından çıxıb işıqları yandırmadan telefon fənəri ilə astaca giriş qapısına getdim. Asılqana taxılı jaketimin cibindən siqaretimi götürərək asta addımlarla binanın arxasına keçib səki kənarına qoyulmuş skamyalardan birində oturdum. Yola çəkilmiş işıqların sarı şüaları altında xəfif küləklə titrəşən xəzan vurmuş yarpaqları seyr edərək, səssizliyə gömülmüş şəhərin ifasından məst olaraq fikrə getdim. Çiyinlərimi büküb, ayaqlarımı bir-birinə sıxaraq oturub arxa-arxaya üçüncü siqareti çəkdiyimdə yarpaqlar kimi titrədiyimin fərqinə vardım. Somurduqca xışıldayan üçüncü siqareti kötüyünəcən çəkib zibilqabına ataraq yatağıma qayıt-

dım. Səhəri gün nahar edib atamgillə birlikdə bazara yollandım.

Bazarda qardaşımla atama kömək etdikcə nostalji hisslər yaşayırdım. Uşaqlıqda onlarla birlikdə burada işlədiyim vaxtlar yadıma düşürdü. Əksər malların qiymətini bilməz, həmişə hesablamaqda əziyyət çəkərdim. Uşaq vaxtı atamgilə kömək etməyi özümə dərd bilərdim. Elə hey nəyisə bəhanə edib atamgilin yanından qaçaraq məhəlləyə – dostlarımın yanına gedər, onlarla birlikdə futbol oynayardım. O zamanlar kitab oxumaqdan əlavə ən böyük dərdim alver etmək olduğundan “böyüyəndə heç vaxt dükanda işləməyəcəm, əsgər olub pis adamları öldürəcəm” – deyə xülyalar qururdum. Böyüyüb əsgərlərin pisləri öldürmədiyini, pislərdən yurdunu qoruduğunu, pis adamları nəinki öldürmək, toxunmaq belə mümkün olmadığını dərk elədim və “xəyallarda həqiqətlər, həqiqətlərdə xəyallar var” şüarı ilə xülyalar yox, xəyallar qurdum. Ən böyük xəyalım xoşbəxtliyi qazanmaq üçün pul qazanmaq idi. Pulun varlığı məni xoşbəxt etməyəcəkdi, pulun gücü ilə xoşbəxt olacaqdım, kasıblara, əlacsızlara yardım edərək, acların qarnını doyuraraq, kimsəsizlərə kimsə olaraq... Ən azından evimə bir tikə çörək apararaq xoşbəxt olmaq üçün dükanda durmalı, ya da başqa işdə işləməli ol-

duğumu anladım və uşaq vaxtı qaçmağa çalışdığım dükana girib piştaxtanın arxasına keçərək müştəriləri gülərüzlə qarşılayıb yola saldım.

Dükanımıza arada analarının yanında gözəl qızlar da gəlirdi. Amma nazları o qədər böyük idi ki, Olimp dağı onların yanında fındıq boyda görsənərdi. Hələ bir adama oxşamaz qız mənə gözünü elə süzdürmüşdü ki, ürəyimdən başına qapaz vurmaq keçmişdi, özümü güclə saxlamışdım.

Dükanda müştəri olmayan vaxtlar interneti açıb facebooka, instagrama girirdim. Elə zamanların birində Röyadan mesaj gəldi. Mən də həmin an hər şeyi deaktiv edib onunla yazışmağa girişdim. Ondan mənə hər mesaj gəldikcə telefonun səsi dükanı bütün bürüyürdü. Atam mənə baxıb:

– Nə var o telefonda? Bütün günü az qala başınızı soxasız ekranın içinə, arada başını qaldır, gör dünyada nə var, nə yox, – deyib təəssüf hissi ilə başını yellədi.

Qardaşım:

– Elə nə var, telefonda var, dünyanı bu balaca çərçivəyə sığışdırıblar, ona görə gözlərini ayırmırlar da, – deyərək gəlib başımın üstünü kəsdirib Röya ilə yazışmağımı oxuyurdu. Qardaşım yazdıqlarımı oxuya-

oxuya əyilib qulağıma: – Ə, yekə kişisiz, bunlardan birini də mənə düzəldin də, nə olar ki? – dedi.

Başımı qaldırıb qardaşıma gülərək:

– Evli adamsan, yeri get işinlə məşğul ol, – deyəndə atam bizə baxıb başını təəssüf hissi ilə bir daha sağa-sola yellədərək:

– Dünyaya kiçik çərçivədən baxanlar, durun vitrini səliqəyə salın, deyim kişi adamsız, arvad kimi az pıçı-pıçı edin, – dedi.

Bir əlimdə telefon Röya ilə yazışaraq qardaşımla birlikdə vitrindəki malların yerlərini düzəldir, azalan malların yerinə yenilərini qoyur, tükənmək üzrə olanların siyahısını çıxarır, atamıza yarınmağa çalışırdıq. Saat dördə qalmış dükanı bağlayıb qara rəngli "Hyundai Santa Fe"mizə əyləşib evə yollandıq. Atamın günlərlə deyinməyinə, əsəblərinin pozulmasına səbəb olan qəzaya görə maşınımızın arxa hissəsinə diqqət yetirdim. Maşının arxa hissəsində azca batıq var idi və otuz santimetr uzunluğunda ola-olmaya cızıqlar, sol tərəfinin çatlamış stop işığı. Bunlardan savayı nə qədər baxdımsa nəzərimə başqa əzik, xəsarət dəymədi. Axşam yeməyindən sonra ailəcə oturub türk kanalından evlənmə proqramını izlədiyimizdə anam əlini dizimə qoyub:

– Səni nə vaxt evləndiririk? Daha yaşın keçir, şükür şəhərdə evin də var, işin də, hansı qıza elçi getsək başı üstə gələr, – dedi.

Ağzımı açmamış qardaşım Elçin:

– Əşi, arvadı neynir axı, mən bir günə çıxdım, qaldı Rasim, – dedi.

Bu sözlərdən inciyən qardaşımın yoldaşı oturduğu yerdən qalxıb çəp-çəp Elçinə baxaraq otaqdan çıxdı.

Qardaşım səsinin tonunu qaldırıb gəlinbacımın arxasınca:

– Gəlib indi gözlərini çıxaracam, onun baxmağına bax hələ, – deyə deyindi.

Atam əsəbi-əsəbi qardaşıma baxaraq:

– Eşşək-eşşək danışma, qocaldın da ağıllanmadın sən, – dedi.

Otaqdakı ab-havadan qorxan balaca Yalçın dodaqlarını əsdirərək anasının arxasınca qaçdı. Atamın sözü ilə pərt olmuş qardaşım sakitcə asılqandan jaketini götürüb qapını çırparaq evdən çıxdı. Qapının çırpılması ilə evə bir anlıq səssizlik çökdü, kimsə danışıb-dinmirdi. Qardaşımın arxasınca ayağa qalxıb gedəndə anam:

– Get gör hara getdi, yanında ol, – dedi.

Atam qardaşımın hərəkətinə narahatlıq keçirdiyini büruzə verməməyə çalışaraq:

– Yenə qayıdıb gələcək, hara gedəcək, otur yerinə, – desə də tələsik qardaşımın arxasınca getdim. Həyətə enib onu binanın sağ tərəfinə keçdiyini gördüyümdə dalınca qaçaraq ona yetişdim. Məni gözləyirmiş kimi yanına çatdığım an üzündəki qəmli ifadə ilə ürəyini açdı:

– Ağlın varsa evlənmə, qardaş canı, guya evlənəndə nə olur ki? Bax mənə, hər gün eyni şey, hər gün dükan-ev, dükan-ev, başqa heç nə. Nə gəzə bilirəm, nə istirahət edə bilirəm, qazandığım da ancaq yeməkdədi. İnanırsan, Rasim, bezmişəm daha, hər şeydən bezmişəm. Nə qədər eyni şeyləri eləmək olar? Vallah, qardaş, sənə məsləhətim: nə qədər gec evlənsən o qədər yaxşı. Atama bax, ağzımı açmağa qoymur. Arvad mənim – özüm bilərəm, peşmanam bir söz deyəm, həmişə belə edir. Bezmişəm daha, elə bir vəziyyətdi ki, işin içindən çıxmaq da olmur, adam nə etsin, nə eləsin bilmir. Uşaq kimi elə hey ağlımdan keçir ki, bir gün ayılam görəm hər şey yuxu imiş, üzümə lənət əgər evlənsəm. Çıxıb gedərəm Rusiyaya, günümü gün edərəm, gündə bir rus qızı ilə gəzərəm. Nə bilim bəlkə də Almaniyaya gedərəm, Türkiyəyə gedərəm, ancaq səyahət edərəm, bir yerdə qalmaram. – O, bitirdiyi hər cümlənin sonunda: – Başa düşürsən də məni? Hmm? Başa düşürsən? – deyərək sual ver-

diyində sakitcə başımı yelləyib təsdiqləyirdim. Danışmadan dinləməkdən yorularaq cibimdən siqaret qutusunu çıxarıb birini yandıranda o məndən siqaret istədi.

***

– Axı sən çəkmirdin? – dedim.

Elçin:

– Ver birini çəkim, bir dənədən heç nə olmaz, kefim yoxdu, ver yandırım.

Onu yayındırmaq üçün:

– Bu sənin kefini düzəldən deyil onsuz, mən bikarçılıqdan çəkirəm, – söylədiyimdə əlimdən siqaret qutusunu çəkib:

– Ver də bu zəhrimarı, çəkmək istəyirəm, – deyərək içindən birini götürüb yandırdı. O öskürərək siqareti somuranda halına acıyırdım, mənim iri cüssəli, pəhləvana bənzər böyük qardaşım oyuncağı əlindən alınmış uşağa bənzəyirdi. Piyada yeriyərək dəmir şəbəkələri olan taxta çərçivəli pəncərələrinin şüşələrini toz basmış, rəngi solmuş mavi qapısı üzərində sarı işıq sallanan kiçik bir kafenin önündən keçdiyimizdə qardaşım: – dayan, gəl gedək pivə içək, – dedi.

Pivədən nə zərər gələ bilər ki, düşüncəsi ilə sakitcə razılaşıb ardınca dörd-beş kauçuk masası və az müş-

tərisi olan, divarları boyanmamış köhnə kafeyə girdim. Giriş qapısının yanında sınıq-salxaq masa arxasındakı üzünə qalın süngər çəkilmiş qədimi stullara əyləşdiyimizdə qardaşım kafeni işlədən ağsaqqal dayını səsləyib:

– Bizə iki pivə, bir də noxud ver, dayı, – dedi.

Saçı-saqqalı ağarmış, şişkin gözlü qırmızıyanaq dayı:

– Bu soyuqda pivə nə gəzir? İçən yoxdu deyə gətirmirəm, istəyirsən uşaq göndərim, dükandan alıb gətirsin, – dedi.

– Bəs içməyə nəyin var? Ondan gətir.

Qırmızıyanaq dayı:

– Ancaq araq var, amma yaxşı araqdı, iç, kefini tut, azca başın ağrısa, gəl mənə nə deyirsən de.

– Gətir dayı, içməyə yanında nəsə də qoy, sənə qurban.

Dayı:

– Baş üstə – deyib, bir az sonra əlində podnos oturduğumuz masaya yaxınlaşmış, üstünə yarım litrlik araq butulkası, xiyar şorbası, iki rumka və bir litrlik rəngli su qoyub: – nuş olsun, – deyərək gedib yerinə oturmuşdu.

İçdiyim ikinci rumkadan sonra arağın acılığını hiss etmədim. Bütün rumkalar yağ kimi canıma yayılır-

dı. Qardaşım içdikcə araqdan süzür, rumkaların boş qalmasına aman vermirdi. Üçüncü qab xiyar şorbası ilə ötürdüyümüz ikinci arağın yarısına çatdığımızda qardaşım gözləri nəmli söhbət edirdi. Neçənci rumka olduğunu xatırlamıram, amma onu xatırlayıram ki, qardaşım ağlayırdı və az qala məni də ağlatmağı bacaracaqdı. Dumanlı başla belə anlaya bilirdim ki, işlərin axırı yaxşı qurtarmayacaq, ona görə də qardaşıma:

– Gəl gedək, daha gecdi, – dedim.

O düşündüyüm kimi:

– Olsun da gec, səhərə kimi taksi işləyir, minib gedərik, – deyib cibindəki pulları çıxarıb göstərərək, – pulumuza nə gəlib? – əlavə etdi.

Onu kafedən çıxarıb evə aparmaqdan ötrü, – özümü pis hiss edirəm, gəl evə gedək, – dedim.

Qardaşım qızğın gözlərini üzümə tuşlayıb:

– Nə? Özünü pis hiss edirsən? – Əli ilə yerində oturmuş, araq gətirən ağsaqqalı göstərib: – bəs o oğraş dedi ki, yaxşı araqdı, dayan, mən indi ona göstərərəm, – deyərək ayağa qalxmaq istəyəndə onun qolundan tutub yerinə qaytardım.

– Özümü pis hiss edirəm dedikdə, sən anladığın mənada demədim. Yəni deyirəm ki, yaman keflənmişəm, araq yaxşı araqdı, narahat olma, – deyərək onu sakitləşdirməyə çalışdım.

Qardaşım qaşlarını çataraq boynunu yuxarı dartıb:

– Ha... Belə de, – deyərək başını irəli verib masadakı dolu rumkaları göstərib, – bunu da içək, gedək. Yaxşı? – dedi.

– Yaxşı, bunu da içək, gedək, yuxum gəlir daha mənim.

– Az uşaq kimi zarı, – deyərək rumkasını qaldırıb: – götür, içdik, – sözlərini əlavə edib arağı qarnına ötürdü.

İki butulka arağı içib bitirdikdən sonra hesabımızı ödəyib qırmızıyanaq dayı ilə öpüşüb sağollaşaraq oradan ayrılmışdıq. Kafedən çıxdığımızda qardaşım israrla Kür qırağına getmək istədiyini söylədi, evə aparmaq üçün nə qədər çalışsam da onu fikrindən döndərə bilmədim. Qoluna girib: "Gəl gedək evə, axı nə var orda" – deyə-deyə lül-qənbər sahilə getdim. Danışmadan səssizcə Kür qırağında oturub çayın həzin səsinə qulaq asırdıq. Hava soyuq, səma açıq idi. Günəşin gücü ilə gecəni aydınlatmağa çalışan ayın şöləsi keçdiyi yerlərə can verən çayın üzərində bərq vururdu. Qaranlıq səmaya naxışlanmış sayrışan sonsuz ulduzları saydığım bir vaxtda telefonuma zəng gəldi. "İki yüz on iki" – deyərək dayanıb telefonuma baxdım. Zəng edən atam idi. Telefonu açıb səsimin tonuna sabitlik gətirməyə çalışaraq:

– Hə, ata, buyur? – dedim.

Atam:

– Harda qaldız, a bala? – soruşdu, səsindən narahat olduğunu hiss edirdim.

– Kür qırağındayıq, bir azdan qayıdacayıq, narahat olmayın, – deyib sağollaşaraq telefonu söndürdüyümdə Elçin:

– Bax, görürsən, Rasim? – deyə dilləndi.

Onun nə demək istədiyini anlamayıb soruşdum:

– Nəyi?

– Məni sevmirlər, – deyə cavab verdiyində az da olsa nə demək istədiyini anlayaraq:

– Kimlər sevmir? – soruşdum.

– Atam, anam... kimsə.

– Kimsə mi? Ən azından bunu bilirəm ki, qardaşımı çox sevirəm. Özü də mən bilən sevgi gözə görsənmir, onu hansısa adsız duyğuyla hiss eləyirlər.

– Kimsə deyəndə səni nəzərdə tutmamışdım, sən mənim bircə qardaşımsan, həyatdakı hər kəsdən yaxınsan mənə. Qaldı ki, o dediyin duyğu var ha, sevgini hiss etdirən, isim belə verə bilmədikləri duyğu zəhrimara qalmış sevgi hissini niyə yaşatmır mənə? Belə duyğusuzam ki mən?

– Yox, duyğusuz deyilsən, ola bilsin hiss elətdirmirlər, amma sevirlər.

– Yox, Rasim, yox. Sadəcə sevmirlər. Bu qədər. Həqiqət budur.

Mən:

– Həqiqət deyil axı. Mən bilirəm həqiqət deyil. Bu nəticəyə necə gəlibsən? Hardan gəlir bu fikirlər ağlına? Daha bəsdir, uşaq kimi danışma, – dedim.

– Uşaq kimi danışmıram. Azca məni fikirləşsəydilər mənə zəng edərdilər, amma sənə zəng etdilər, niyə? Çünki heç kim Elçini istəmir, – deyə zarıyıb yanaqlarını islatdı.

Qardaşımı sakitləşdirməyə çalışdığım vaxt polis nəfəri bizə yaxınlaşıb:

– Nə baş verir burda? – dedi.

Polisin qoluna girib kənara çəkərək:

– Qardaşımdı, içkilidi bir az, özünü pis hiss edir, başqa heç nə yoxdu, – dedim.

Polis:

– Ver sənədlərinə baxım, – dedi.

Sakitcə cibimdən pulqabını götürərək içindən vəsiqəmi çıxarıb polisə təqdim etdim. Polis vəsiqəmə baxıb geri qaytararaq: "Özünüzü yaxşı aparın", – deyib yanımızdan ayrıldı.

Qayıdıb qardaşımın yanında oturanda qardaşım:

– Nə deyirdi o? – dedi.

– Heç nə demirdi, gedək evə? – deyə qardaşımdan soruşdum.

Soyuq gecədə onu bir təhər razı salıb axır evə apara bildim. Evə girməmişdən əvvəl binanın önündə öyü-yüb-qusaraq kafe sahibinin tarixindən gələcəyinə kimi nəyi var idisə söyüb batırdı. Həmin gecənin səhəri ba-şım ağrıdan partlayanda mən də qardaşımın işlətdiyi "xoş sözlərlə" qırmızı yanaq yalançını yad elədim. Dünənki gecədə olan xoşagəlməz münasibətləri elə dünənki gecədə qoyub günü xoş, firavan, olanları heç olmamış kimi qaydasında keçirdik.

Həmin günü Röyaya zəng edib görüş təklif etdim. O mənə:

– Evdəkilər işdən qayıdıb, nə deyib çıxacam? İcazə verməyəcəklər, – dedi.

– Yaxşı onda, sabah görüşsək necə? – deyə soruş-dum.

Röya:

– Ay dəli, sabah bazardı, bizimkilər heç işə getmə-yəcək, birinci gün görüşsək, olmaz?

İçimi xıs kəsə-kəsə:

– Yaxşı, birinci gün görüşərik, birinci gün gələndə sözünü dəyişmə daha, yaxşı? – dedim və son sözümü bir xeyli uzatmışdım.

Röya:

– Dəlisən e..., mən də istəyirəm ki, görüşüm sənlə, fürsət axtarıram, – dedi.

– Yaxşı danışdıq onda, birinci gün görüşürük, aldatma ha... sözünü dəyişsən öldürəcəm səni.

– Öküzsən ki, öküz, başa düşdüm də...

Mən:

– Öküz dedin yadıma düşdü, sənə bir bənd şeir yazmışam, – söylədiyimdə o sevinərək:

– Həqiqətən deyirsən? Çox sağ ol. Oxu hələ, gözləyirəm, – dedi.

– Yaxşı, oxuyuram, dinlə, – deyib şeirimi oxudum:

*Əgər mənə öküz desən,*
*Mən sənə keçi söyləyəcəm.*
*Əgər mənə canım desən,*
*Canımın içi söyləyəcəm.*

Bax bu qədər, necədir, xoşuna gəldi? – soruşduğumda qalib gəlmiş kimi gülürdüm.

O da gülüb:

– Budu şeir? Görürsən, sən həqiqətən öküzsən. Elə bildim romantik oğlan olub şeir yazıbsan, – dedi.

– Nə olub ki? Gül kimi şeirdi. Bəyənmirsən heç bəyənmə. Canın sağ olsun. Birinci gün görüşənədək, hələlik, – deyərək sağollaşıb telefonu söndürdüm.

Səhər yeməyini nahar vaxtı yeyib evdən ayrılaraq bazara, atamgilin yanına getdim. Onlara kömək elədiyimdə Raufdan zəng gəldi. Telefonu açıb:

– Salam, Rauf, necəsən? Nə var, nə yox? – dedim.

Rauf:

– Şükür, yaxşılıqdı, səndə nə var, nə yox? Bir qutu çörək almışam, bilirəm son vaxtlar kefin yoxdu, gətirim, ya yox? – dedi.

Mən:

– Ay mənim kor bəxtim, Mingəçevirdəyəm, bilmirəm Bakıya nə vaxt gələcəm, amma bu yaxınlarda gələcəm, sən canın, mənə də saxla.

Rauf:

– Doğrudan? Yemədin, getdin, canın sağ olsun. Zarafat edirəm, çoxdu onsuz, narahat olma, saxlayacam, – dedi.

Raufla olan söhbətimdən sonra Bakıda olmadığıma görə heyfsiləndim. Marixuanaya olan istəyimdən daha çox həmin günün bitməsini, bazar gününün ötməsini, Röya ilə görüşəcəyim günün tezliklə yetməsini istəyirdim.

***

Saat dördədək bazarda işləyib evə qayıtdım. Yenə adi ev söhbətləri edərək axşam yeməyin ye-

yib hamı yatdığında bazar günü gecəsi saat birədək oyaq qalıb whatsapp proqramında Nərminlə yazışdığım köhnə mesajları lap əvvəlindən sözbəsöz, sətirbəsətir oxuyur, onun bir zaman mənə yazdığı "səni sevirəm" sözlərinə dəfələrlə baxırdım. Biz bu sözü hər günün başlanğıcında, sonunda, sağollaşanda yazır, həmişə də arxasınca ürək smayliki yollardıq. Bütün yazışmaları oxuyaraq ən sona gəlib yetmişdim. Daha ondan mənə bir sözdən, bir nöqtədən, vergüldən ibarət nəsə yazıb göndərdiyini görmək mümkün deyildi. Ancaq mənim ona yazdığım uzun-uzadı, ardı-arası kəsilməyən məni bağışlaması üçün mesajlar, sevgi mesajları, hüznlü, kədərli sözlər, ağlayan kiçik başlar vardı. Bazar gecəsi o mesajlardan birini də yazdım: "Salam, Nərmin, nə deyim, nə yazım məni bağışlayasan – bilmirəm. Elədiyim şeyin yanlış olduğunu anlayıram, amma daha eləmişəm, əlimdən nə gəlir? Zamanı geri qaytara bilmirik ki. Əgər bu mümkün olsa idi belə səhv etməzdim. O səhvimi düzəldə bilməsəm də, sənə söz verirəm, Allaha and olsun bir daha hansısa qadınla heç əl görüşməyəcəm, heç dönüb gözucu belə kimsəyə baxmayacam. Bunları ona görə yazıram ki, səhvimi başa düşürəm. Anlayıram, etdiyim yanlışdı, daha sən də anla ki, çox peşmanam. Kaş ayaqlarım qırılaydı ora gedə bilməyəydim. Mən

şeytana uydum, yanlış etdim, sən də şeytana uyub məni incitmə. Daha məni bağışla nə olar, çox darıxmışam sənin üçün. Nə edəcəyimi bilmirəm heç, sənsiz yolumu azmışam. Sənsizlik dumanlı dağ yolunda maşın sürmək kimidi, yolun irəlisin görmək olmur. Ölüm addım-addım solunda gəzir. Bu korluqda hər an yolunu aza, yamacdan yuvarlanıb qayalara çırpıla bilərsən. Sən mənim dünyamın nuru, günəşisən, qayıt başımın üstünə, qayıt öz səmana daha, ətrafımı alan qaranlığı, dumanı məhv et, qurtar məni. Bir daha yazıram, nə qədər yazmaq lazımdısa yazacam, BAĞIŞLA məni. Səni Sevirəm."

Sonunda ağlayan başlardan böyük bir komanda yaradıb whatsappda yas məclisi qurdum. Mesajın ardınca fikirlərlə savaşaraq xəyallara dalıb səhər saat ona qədər xorul-xorul yatdım. Məni yuxumdan qardaşım oğlu Yalçın: "Əmi, ay əmi, oyan daha, bəs bu gün məni parka aparacaqdın", – deyərək oyatdı.

Yemək yeyib Yalçını da götürərək bazara, atamgilin yanına, bazardan da parka getdik. Cibimdə məni narahat edən pulqabını və siqaret qutusunu yanıma qoyaraq Kür qırağındakı skamyaların birində oturub siqaret çəkir, Yalçının ona aldığım cipslərdən yeməsinə, arada da götürüb çaya atmasına baxırdım. Mən ona:

– Niyə cipsləri zay edirsən, yıxılarsan özü də, gəl otur yanımda, – dedim.

Yalçın bir əli ilə cips paketini, digər əli ilə çay kənarına çəkilmiş dəmir sürahilərdən tutub mənə baxaraq:

– Zay eləmirəm, əmi, quşlara verirəm, yazıqlar acdı, yıxılmaram, qorxma, – deyib cipsini gah qarnına, gah da qağayılara atmaqda davam etdi.

Çaykənarı çəkilmiş səkilərin üzərində gəzərək bizə sarı gələn qızları gördüyümdə:

– Yalçın, tez qaç yanıma, gör əmi nə deyir sənə, tez, tez gəl yanıma, – dedim.

Yalçın əlini sürahidən çəkib yerə hoppanaraq yanıma qaçmış:

– Hə, əmi, nə deyirsən? – demişdi.

– Bax, o qızları görürsən, – deyərək bizə sarı gələn qızları göstərdim.

O başını aşağı-yuxarı edərək:

– Hə, hə, – dedi.

– Qızlar bizim yanımıza çatanda, sən onlara deyərsən ki, nə qəşəng qızdı bunlar, yaxşı? De ha! – dedim.

Yalçın gülüb:

– Utanıram axı, – dedi.

– Eee... burda nə var ki? əgər desən, səni qayığa mindirəcəm, bax görürsən, – deyərək çayda üzən motorlu qayıqları ona göstərdim.

Yalçın bir qayıqlara, bir mənə baxıb:

– Yaxşı, – deyərək güldü.

Əmi-bala oturub qızların yaxınlaşmasını gözlədik. Qızlar az qalmış başımı aşağı salıb heç nədən xəbərim yoxmuş kimi telefonla oynayır, gözucu Yalçına baxırdım. Biri yaşca böyük, iri cüssəli, ikisi ondan cavan və cılız üç qız skamyamızın önündən keçərkən Yalçın "nə qəşəng qızdı bunlar" – deyib əlini ağzına tutaraq güldü. Qızların Yalçından eşitdiklərinə sevindikləri hiss olunurdu, onlar gülərək Yalçına yaxınlaşıb hərəsi yanağından bir çimdik götürdü. Yaşca böyük görsənən xanım:

– Ay Allah nə şirin uşaqdı, bir baxın, – deyərək qızları dürtüşdürüb mənə baxaraq: – Allah saxlasın, sizin uşağınızdı? – dedi.

– Çox sağ olun, qardaşım oğludu, mən subayam, – dedim.

Yaşca kiçik görsənən qızlardan biri kinayəli gülüşlə:

– Hə, guya uşağı sənin öyrətdiyini bilmirəm, uşağı da özün kimi avara eləmə, – deyərək digərlərinin qolundan tutub dartışdıraraq apardı. Onlar elə deyərək yanımızdan uzaqlaşanda biz əmi-bala bir-birimizə baxaraq bic-bic gülürdük. Qızlar yanımızdan uzaqlaşan kimi Yalçın qaçıb yenə çayqırağı çəkilmiş sürahinin üstünə çıxdı. O qayıqlara baxaraq:

– Əmi, bəs gəmiyə minəcəkdik, gəl gedək minək, – dedi.

– Yaxşı, – deyib ayağa qalxanda telefonuma zəng gəldi.

Zəng edən Gəlinbacım idi:

– Salam, Rasim, Harada qaldınız? Nə vaxt gəlirsiz evə, – deyə soruşdu.

– Salam, gəlinbacı, bir azdan gəlirik, – deyib sağollaşaraq Yalçına baxdığımda gördüm ki, o dəmir sürahilərin digər tərəfinə keçərək çayın içinə baxır. Tələsik ona tərəf qaçaraq:

– Yıxılarsan, tez keç bu yana, – dedim.

Yalçın ona sarı qaçdığımı görüb həyəcandan çaşaraq müvazinətini itirib çaya düşdü.

***

Dəli olmuş kimi üzümü qayıqlara tərəf tutub "kömək eləyin!...", – deyə bağıraraq Yalçının arxasınca çaya atıldım. Buz kimi su iliklərimə işlədiyində ixtiyarsız ağzımı açıb soyuq havanı sinəmə çəkdim. Geyindiyim qalın paltarlar islanıb ağırlaşaraq hərəkət etməyə, alnıma yapışmış kəkilimdən gözlərimə axan su önümü görməyə əngəl olurdu. Bu əngəllərlə çaya batıb-çıxaraq üzməyə çalışırdım. Çətinliklə Yalçını çapaladığı yerdən dartıb üzə çıxarmaq istədiyimdə

o canını qurtarmağa çalışaraq məni aşağı itələyib boğurdu. Bacardığım qədər dərindən nəfəs alıb suya bataraq onu suyun üzündən saxlayırdım. Sinəm sıxıldıqca beynim keyləşirdi, tədricən taqətdən düşürdüm. Sinəmdəki hava tükəndikcə ürəyimin döyüntüsü şiddətlənirdi. Hava ağzımdan kiçik balonlar kimi çıxıb yuxarı qalxaraq qorxularımı şişirdiyində yaxınlaşan motorlu qayıqların səsi ümidimi dirçəltdi. Çayın içindən qayıqların altını görə bilirdim, düz yanımızda idilər, yəni başımızda.

Qəfil əllərim yüngülləşdi, Yalçını çəkib qayığa atmışdılar. Bir əl də məndən tutub qayığın üzərinə dartdı. Motorlu qayıq sürənlərin çevik hərəkətləri həyatımızı qurtardı. İkimiz də qayığın küncündə soyuqdan titrəyərək büzüşüb oturmuşduq. Yalçın titrəyərək qorxudan zırıldayırdı da. Bizi qayıqdan düşürüb ora ən yaxın olan yeni tikilmiş böyük kafeyə apardılar. İslaq geyimlərimizdən sular axanda kafedə olan hər kəs ətrafımızı hasar kimi almışdı. Maraq olduğumuz qələbəlikdə tanış üzlər də gözümə dəydi. O tanış üzlərdən biri mənim sinif yoldaşım Vüqar idi. Vüqara əsərək pul qabımın skamyanın üstündə qaldığını dediyimi, o da gedib həm pulqabımı, həm də siqaret qutumu gətirdiyini xatırlayıram.

Kafe sahibi müştərilərlə birlikdə əynimizdəkiləri çıxarmağa yardım edib quru geyimlərlə dadımıza yetdi. Mənim üçün hardansa şalvar-köynək tapıb əynimə geyindirdilər. Yalçınınsa saçın-başın qurulayıb iki böyükbədən jaketə bükdülər. Həmin vaxtı Vüqar ona verdiyim pul və ölçülərlə bazara gedib əyin-baş alaraq qayıtmışdı. Əmi-bala yepyeni paltarlarımızı geyinib köhnələrini zibilliyə ataraq evə qayıtmaq üçün taksiyə əyləşdik. Əlimi cibimə salıb telefonun olmadığının fərqinə varanda:

– Qardaş, telefonu parkda yerə salmışam, hara düşdüyünü xatırlayıram, qayıdaq onu götürüm, gedək, – dedim.

Taksi sürücüsü:

– Baş üstə, – deyib maşını geriyə, Kür qırağına sürdü. Oturduğum skamyanın ətrafını axtararaq telefonu tapıb taksiyə döndüm. Telefonu qoruyucu örtüyə saldığımdan sevinirdim, çünki telefonu zədə almaqdan qurtarmışdı. Cibimə hey ağırlıq edən örtük və ekrana çəkilmiş zərbəyə davamlı şüşə öz əhəmiyyətini göstərmişdi. Evə döndüyümüzdə anam:

– Təzə paltar almısız? Mübarəkdi, xoş günlərə geyinin, – deyib əynimizdən çıxardığımızı görməyərək, – bəs köhnələr hanı? – sualını verdi.

Mən: – Çox sağ ol, təşəkkür edirik, onları atdıq, köhnəlmişdi daha, – deyərək olanları gizlətdim.

Anam əlini sağa-sola çevirib:

– Nç, nç, nç, heyf deyildi? Gül kimi paltarlar idi, a bala. Harınlamısan sən, – dedi.

Eyni sualları qardaşımın yoldaşı da verdi və biz yenə eyni cavabları verdik. Çünki yol boyu olanları evdəkilərə danışmayacağımız barədə Yalçınla sözləşmişdik və nə deyəcəyimiz barədə kiçik bir təlim keçmişdim. Yeni geyimlərin əynimizə böyük olması heç kimdə şübhə oyatmamışdı. Gəlinbacım sadəcə "elə bil bir az böyükdü paltarlarınız", – demişdi.

Evdə oturub çay içdiyimdə iş yoldaşım Elnur zəng etdi. Bazar günü olduğunu, işdə olmadığını, mənə dəymək istədiyi ilə bağlı sözlər söylədi. Qabırğamın qırıldığına şübhəsi olmayan bədbəxtə: "Bakıda deyiləm, özümə baxa bilmirdim deyə evimizə gəlmişəm, gələn bazar buyur gəl, qapım üzünə həmişə açıqdı", – deyib sağollaşdım.

Səhəri gün tezdən Röya ilə görüşməkdən sarı Dostluq Parkına getdim. O vəd etdiyi vaxtda, səhər saat 8:30 da parka gəldi. Həmin vaxtı demək olar ki, parkda bizdən başqa kimsə gözə dəymirdi. Onu gözdən uzaq, ağacların sıx olduğu yerə aparıb dodaqlarına yapışdım. Hərarətli döşlərini sinəmə sıxıb zərif bədəninə əl

gəzdirərək yumşaq dodaqlarını vəhşi kimi öpürdüm. Nəfəskəsən isti öpüşlərdən doyduqdan sonra şəhəri dolaşdıq. Onun ata-anası müəllim işlədiyindən və məktəbdən günorta qayıtdıqlarına görə günortaya yaxın ayrılmalı olduq. O tələsik evlərinə getdi, mənsə bazara, qardaşımgilin yanına yol aldım.

Dükanda atamla qardaşıma kömək edərək Səidə barəsində düşündüm. Nömrəmi dəyişdiyimdən daha mənə zəng vurub narahat edə bilmirdi. Onun soyuducusunu açdığımda gördüyüm mənzərəni xatırladığımdan özümü pis hiss etdim, nədənsə o fitnəkar gözəlçəyə yazığım da gəlirdi. Raufun dediyi marixuana barədə də fikirləşdim: “Əclaf görəsən saxlayıb mənə nəsə, ya hamısın çəkib qurtarıb?” Hətta zəng edib mənə ot saxlaması barədə təzədən and verdirib, əhd-peyman bağladım. Həmin vaxtı ən çox düşündüyüm Nərmin oldu: “Bəlkə özünə sevgili tapıb, yox-yox, elə deyil o. Lənət şeytana, bəlkə mənə acıq versin deyə özünə sevgili tapıb. Hə, niyə olmasın, onunla kim sevgili olmaq istəməz ki?! Sevgilisi olsa idi indiyə deyərdi. O xəyanət eləməz mənə, ya eləyər? Elədi, elədi – nə bilmək olar, deyiblər ki, atdı, itdi, arvaddı – etibar yoxdu. At hara, arvad hara? Kim deyib bunu görəsən? Ehhh, ağlımı itirirəm artıq. Lənətə gəlsin, görəsən kimləsə öpüşüb. Ahhh, elə bir şey olsa

tüpürərəm ona. Bakıya qayıdanda hökmən onun evini tapacam...” kimi fikirlərlə öz-özümə danışırdım. Məni fikirlərimdən arada mal seçmək bilməyən, zəhlə tökən müştərilər ayırırdı, bütün çeşidlər haqqında suallar verən və sonunda almayaraq gedənlər. Mən yenə fikir dəryasına dalır, Nərmin dənizində boğulurdum. Dünyanın ən təmiz dənizi Ueddeladan belə təmiz sandığım bu dənizdə hər gün daha da dərinliyə bataraq boğulurdum. Ueddela balıqlardan, Nərminsə mənim göz yaşlarımdan xəbərsiz idi. Sahil qumlarını yuyan, sahildə köpüklənən dəniz suları deyil, mənim göz yaşlarım idi. Göz yaşlarımda çırpınır, çırpındıqca daha da dərinə gömülürdüm, gömüldükcə nəfəsim kəsilirdi. Boğulurdum.

Bir zəhlə tökən yaşlı müştəri qiymət soruşaraq məni dərin fikir dəryasından çəkib çıxararaq boğulmaqdan qurtardı. Həmin müştəriyə:

– Buyur xala, nə dediniz eşitmədim? – dedim.

Balaca yuvarlaq xala qardaşıma səslənərək:

– A bala, sən gəl mənə kömək elə, – məni göstərərək: – Allah bilir bunun fikri hansı qızın yanındadı, – dedi. O nur üzlü ağbirçək sanki beynimi oxumuşdu. “Hardan bildi?” – deyə düşündüm və xaladan şübhələndim. Nəticədə bu sözlərin şablon ifadələrdən biri olduğunu xatırlayaraq rahatladım.

Günün axşamını siqaret çəkib Nərmini düşünərək bitirib yatdım. Səhəri günorta saat birə qalmış Röya zəng etdi. Telefonu açdığımda ona aman vermədən:

– Salam, canım, necəsən? – dedim.

Röya:

– Salam, yaxşıyam, sağ ol, sənə şad xəbərim var, səncə nə? – dedi.

Mən ağlıma gələn ilk şeyi atdım:

– Lotereyadan pul udubsan?

– Ay dəli, nə danışırsan? Yox!... Bu gün atamla anam Bakıya yola çıxdılar, bacımın qızı olub, ora gediblər, yəni dur bizə gəl, gözləyirəm, – dedi.

Mən:

– Allah o uşağın canın sağ eləsin, inan buna hər kəsdən çox mən sevindim, gəlib nə edəcəyik? Hmm? – şeytani sualımı verdim.

– Çox sağ ol, Allah sənə də qismət etsin, necə yəni nə edəcəyik? – deyərək nə demək istədiyimi anlamamış kimi soruşdu.

– Guya nə demək istədiyimi başa düşmədin sən? Hmm? – dedim.

Bu söhbətdə fikrimi açıqca deməyib uzun-uzadı danışsam da o özünü anlamazlığa qoydu.

Mən ona: – Gəlib başa salaram, – deyərək sağollaşıb yola çıxdım.

...Bir neçə saat sonra onun ata-anasının yatdığı yataqda tər içində beli üstə uzanıb səssizcə kiçik çilçıraq asılmış bəyaz tavana baxaraq ona az öncə dediklərimi anlayıb-anlamadığını düşündüyümdə o nəm salfet ilə qıçının arasını silirdi. Xoşbəxt düşüncələrlə yataqda uzandığım vaxtı qapı döyüldü.

***

İkimiz də tez yataqdan çıxıb tələm-tələsik paltarımızı geyinməyə başladıq. Şalvarı ayaqlarıma keçirərək:

– Kimdi? Kim gələcəkdi? – deyə alçaq səslə ondan soruşdum.

O alt dodağını önə verərək başını sağa-sola yellədirdi, bu gözlənilməz qonağın gəlişinə yaman qorxduğu hiss olunurdu. Paltarını geyinərək məni qəhvəyi rəng köhnə şifonerdə gizlədib qapını açmağa tələsdi. Qaranlıq şifoner içində həyəcan və qorxu hisslərimlə birlikdə qısılıb səslərə qulaq asırdım.

Gözlənilməz qonaq sözləri: "Salam, xala qurban, necəsən? Kim var evdə? Mənə anan zəng elədi, dedi Röya təkdi evdə bu gün, onunla qal, mən də gəldim."

Röyanın səsi: "Keç xala, qapıda niyə dayanmısan, evdə heç kim yoxdu, təkəm, uzanmışdım." Onların ayaq səslərini eşidirdim, tap-tup, tap-tup səsləri getdikcə zəiflədi və kəsildi. Onların səsi çox alçaqdan

duyulurdu. Arada Röyanın səsini eşitdim: "Sən əyləş xala, mən çay qoyub gəlirəm."

Qapı örtülməsinin səsini eşitdim və addım səsləri gəlib gizləndiyim yerin önündə kəsildi. Röya şifonerin qapısını astaca dartaraq fısıltı ilə:

– Tez çıx, tez ol, yavaş-yavaş yeri, – dedi.

Qısılıb qaldığım yerdən çıxıb köynəyimi geyinə-geyinə barmaqucu giriş qapısına sarı getdim. Ayaqqabılarımı götürüb qapını yavaşca açıb-örtərək sürətlə ordan ayrıldım. Binanın arxasına keçdiyimdə belə ürəyimin bütün gücü ilə çırpındığını hiss edirdim. Nəfəsim kəsiləcək kimi idi. "Tutulsa idin, bitmişdin Rasim" – deyirdim özümə. Başımı qaldırıb havaya baxdım, artıq günəş gözümə dəymirdi, hava çoxdan qaralmışdı.

Yol kənarında dayanmış taksilərdən birinə əyləşib evə qayıtdım. Axşam ailəmlə birlikdə söhbət edərək yarpaq dolması ötürürdüm. Anamın ləzzətli əlləri öz gücünü göstərmişdi, həmin gün üç qab dolma yedim. Axşam yenə Nərminə uzun-uzadı mesajlar yazdım, yenə də ondan cavab gəlmədi. Günlər öncə etmək istədiyim şeyi edib Facebookda Nərminin tələbə yoldaşlarından onun indi qaldığı yerin ünvanını soruşdum. İyirmi üç qıza mesaj yolladım, onlardan on doqquzu bilmədiyini, üçü Nərmin deyib ki, sənə bunu

deməyək, incimə, cümlələrinə oxşar cümlələr yazdı. Sevda adlı bir qızsa "siz onun nəyisiz? Niyə soruşursunuz?" – soruşduqdan və mən ona "Rayondan gəlmişəm, dayısı oğluyam, ünvanı demişdi, amma yadımdan çıxıb, indi də zəng edirəm telefonu açmır, zəhmət olmasa deyərdiniz, axşam-axşam küçədə qalmışam, pul verib qayıtmalıyam", – yazdıqdan sonra birbaşa adresi verdi. Deyəsən Nərmin ona xəbərdarlıq etməyi unutmuşdu. Qazanan mən oldum. Daha onun harada qaldığını öyrənmişdim, özü də qapı nömrəsinə kimi. Səhəri gün evdəkilərlə sağollaşıb avtovağzala, oradan da Bakıya yola düşdüm. Anam mənim üçün bir göy sumka da hazırlayıb əlimə vermişdi.

Bakıya getdiyim avtobusda keçəl başı işıldayan, yekə burnunun altında siqaretdən saralmış uzun sıx bığları, enli qaşlarının altında qıyıq gözləri olan, uzunsovsifət yaşlı bir kişi ilə çiyin-çiyinə oturmuşdum. Ağsaqqalın zir-zibili nə böyüklükdə idisə ayaqlarını aralayıb qabiliyyətsizcə oturmuşdu. Abırsız paça reklamçısına həya dərsi verməkdən ötrü ayaqlarına təpik vurmaq istəyirdim. Məni onun oturuşu, duruşu maraqlandırmırdı, əsəbiləşdiyim bir beyni xayaya görə Bakıyadək ayaqlarımı bir-birinə sıxaraq oturmağım idi. Xırs kəsə-kəsə o məxluqla yanaşı Bakıya gəlib çatdım və əlimdəki yüklə birbaşa evə getdim.

Evə çatdığımda ilk işim anamın verdiyi ərzaqları soyuducuya yığmaq oldu. Bir böyük qab dolma, bir kauçuk qabın içində kotlet, bir litrlik iki banka qatıq, bir banka da bol noxudlu dovğanı soyuducuya qoyub Raufa zəng edərək: "Çörəyi də götür, gəl, gözləyirəm", – dedim.

***

Marixuananın oyadacağı susuzluq hissini yatırmaqdan ötrü içməyə çay dəmlədiyimdə Rauf divanda oturub kiçik yazı masası üzərində siqaret gilizinə ot doldururdu. Çay və şirniyyatı masanın üstünə qoyub:

– Mingəçevirə gedəndə avtobusda yanımda bir qız oturmuşdu ki, gəl görəsən, – dedim.

Rauf gilizin başını bükərək:

– Həqiqi? Nə etdin, nəsə eləyə bildin? – dedi.

Çaydan bir qurtum götürüb:

– Niyə eləmədim, nömrəsini almışdım, səhəri gün görüşdüm, – dedim.

Rauf gilizi yaşlayıb:

– Yeri atdan e, yalan deyirsən, – dedi və gilizi damağına qoyaraq yandırdı. Ciyərlərinə tüstü somurduğunda telefonun albomunu açıb Röyanın şəkillərini ona göstərirdim. Ot dolu gilizdən tüstü udduğumda o telefonu əlinə alıb sakitcə şəkillərə baxırdı.

Gilizi somurub söndürdüyümüzdə artıq marixuananın güclü təsiri altında gülmək üçün bəhanə axtarırdıq. Diqqətim zəifləyir, gözlərim axır, ürəyim şirnidən sarı yanırdı, ayı kimi acıxmışdım. O anlar Afrika çöllərindəki ac aslanlar kimi ceyran parçalaya bilərdim. Zəhrimar adama yaman aclıq verirdi. Göz qapaqlarımın quruduğunu, susuzluqdan yandığımı, sinəmin sıxıldığını, beynimin dumanlandığını hiss edirdim. Ayağa qalxıb ağır addımlarla aynanın qabağına keçdim. Gözlərimdəki kiçik damarlar qan qoymuşdu, gözlərimin ağı qırmızıya çalırdı. Əksimə baxaraq qeyri-iradi gülür, aynadakı adamı lağa qoyurdum.

Rauf:

– Görən olsa elə bilər çəkibsən, – deyərək elə qeyri-adi səslər çıxarıb güldü ki, döşəməyə uzanıb əlimi xalıya çırpa-çırpa gülməyə başladım. O oturduğu yerdə irəli-geri yellənərək əlini dizinə çırpıb əcaib səslə güldüyündə mən döşəmədə beli üstə uzanıb ayaqlarımı göydə velosiped sürürmüş kimi hərəkət etdirərək dişlərimi ağardırdım. Elə gülürdüm ki, nəfəsim kəsilir, gözlərimdən yaş axırdı, hələ bir də özümü sevincli hiss edirdim. Dünya-aləm qulağıma deyildi. Nərmin o anlar ağlımın ucundan belə keçmirdi. Möhkəm aclıq gəldiyindən dolma və kotleti

soyuducudan çıxarıb isitmədən masaya düzdüm. Raufla birlikdə bütün dolma və kotletləri bütöv-bütöv udaraq qarnımıza ötürdük. İki qab yeməkdən geriyə sadəcə iki kotlet, üç-dörd dolma qalmışdı. O qədər siqaret çəkmişdik ki, görən sanardı ki, harasa yanır.

Səhər oyandığımda döşəmədə yatdığımın fərqinə vardım, bütün bədənim qurumuşdu. Necə orada yatıb qaldığımı xatırlamırdım. Xatırladığım təkcə dükana şirniyyat və siqaret almağa getdiyim idi, ondan sonrasını daha heç nə. Gərnəşərək başımı qaldırıb ətrafıma baxdığımda dairəvi düzülmüş boş pivə butulkalarının ortasında olduğumu gördüm. Divan televizorun, televizorsa divanın yerində idi. O an "deyəsən hələ ayılmamışam", – deyə düşündüm. Gözlərimi ovuşdurub yenə baxdım. Yenə həmin mənzərə canlanırdı. Yazı masası və Rauf ortalıqda yox idi. Raufu tapmaqdan ötrü ayağa qalxıb yataq otağına keçdim. Çarpayıda Rauf yox, yazı masası yatırdı. Keçib mətbəxə baxdım, Rauf burada da gözümə dəymədi. Dairəvi düzülmüş butulkaların arasından telefonumu götürüb ona zəng etdim və evimin içindən onun telefonunun zəng səsini eşitdim. Səsə tərəf gedərək hamamın qapısını açıb Raufu vannanın içində tuman-paça yatan tapdım. Onu gördüyüm vaxt bir dəli gülmək tutdu məni. Başına qapaz vuraraq:

– Ayə, sən fərli-başlı yer tapmadın da yatmağa, dur, cəhənnəm ol, – dedim. Böyrəklərim partladığından tələsik tualetə qaçdım. Tualetin qapısını açdığımda gözlənilən bir mənzərə ilə qarşılaşdım. Tualet bütün qusuntu idi. Lənət oxuyaraq işəyib əl-üzümü yumaq üçün hamama qayıtdığımda Rauf hələ də vannanın içində yatırdı. Krandan ovcuma buz təki su doldurub üstünə tökərək oyatdım. O məni söyə-söyə vannadan çıxıb:

– Səhərə qədər soyuqdan titrəmişəm burda, – deyərək əlini yudu.

Üzümü qurulayaraq:

– Paltarını da soyunub yatıbsan, özü də hamamda, titrəyəcəksən də, – deyib dəsmalı ona verdim.

Rauf hamamdan çıxdığında butulkaları görüb əlini uzadaraq ciddiyyətlə:

– Bunları niyə belə düzübsən? – dedi.

Çəp-çəp ona baxıb:

– Zarafat edirsən? Mən düzməmişəm, elə bildim sən eləyibsən, – dediyimdə oturacağı divara sarı televizorun yerinə dartılmış divandan yuxulu qız səsi gəldi:

– Mən düzmüşəm.

Raufla bir-birimizə baxıb təəccüblə divana sarı getdik. Divanda sarı saç, balaca boy, 25-26 yaşlarında cılız bir qadın uzanmışdı. Raufa baxaraq:

– Bu kimdi? – dedim.

Rauf:

– İndi yadıma düşdü, dünən gedib bardan götürmədik? Yadından çıxıb? – dediyində sarışının fahişə olduğunu anladım, amma gecəni xatırlamadığımdan:

– Yadıma gəlmir, – deyib qoyun kimi gözlərimi döyürdüm.

– Mənim yadıma gəlir, sən də dedin ki, bu qızı götürək xoşuma gəlir, yadına sal.

Fahişə divandan qalxıb ortalıqda gəzərək:

– Day mənim pulumu verin, getmək istəyirəm, – dedi.

Rauf:

– Mənə əlli manat ver, bunun pulun düzəldək.

– Xəstəsən sən? Nə əlli manat, mən pul verən deyiləm, fırıldaq gəlmə.

– Day pulumu verin, gedim, mübahisənizi sonra edərsiz, tez olun, yorğunam.

– Ay qardaş, dünən sənlə razılaşdıq axı, dedin əllisin mən verəcəm, əllisin də sən verərsən, indi nə artistlik edirsən?

– Elə şey yadıma gəlmir, elə söz deməmişəm, desəydim bilərdim.

– Ehhh... daha mənim pulumu verin, problemləri indiyə qalmışdı, – əlini mənə uzadaraq – ə, dostun düz deyir, nə özünü artistliyə qoyubsan?

– Zibilə düşdük də, – deyib pulqabımı axtardım. Bir xeyli axtarışdan sonra onu giriş qapısının arxasındakı asılqana taxılı jaketimin cibindən tapdım. İçindən iki iyirmilik, iki beşlik götürüb Raufa uzadaraq, – bu nə oyundu açıbsan başıma? Götür, – dedim.

Rauf cibindən bütöv əllilik çıxarıb pulun üstünə qoyaraq qıza verdi. Qız gödəkcəsini geyinib çantasını götürərək qapıdan çıxdığında mənə:

– Şirin dilli oğlan, dilini necə işlətmək lazımdı yaxşı bilirsən, yenə gözləyirəm, – deyib getdi.

Fahişənin dediklərindən sonra Rauf məni hər görəndə lağa qoyub gülürdü və mən hər dəfə "fahişə xoşsöhbət, munis adam olduğum mənasında dedi o sözləri" – desəm də onu başa sala bilmirdim. Bu sözləri Raufa hər deyəndə o məni daha da ələ salır "qız hardadı, yerini bilirəm, gəl gedək soruşaq görək nə mənada dedi?" – deyirdi. Mənsə hər dəfəsində "yeri rədd ol, yox bir. Ay düşük, sarsaqlıqdan əl çəkməyəcəksən də sən", – deyirdim.

O günün ertəsi Nərminin yaşadığı evə getdim. Getməmişdən öncə yaxşıca içmişdim. Aşa-aşa qapını döyüb:

– Nərmin, ay Nərmin, – deyə çağırdığımda qapını tanımadığım, adama bənzəməz bir qız açıb:

– Nərmin evdə yoxdu, başqa yerə gedib, – dedi.

– Hara gedib?

– Bilmirəm, qohumlarıgilə gedib deyəsən.

– Yalançı, onun Bakıda qohumu yoxdu, yalan deyirsən, – deyib başımı qapıdan içəri salaraq qışqırdım, – Nərmin, ay Nərmin, bilirəm evdəsən, gizlənmə məndən.

Adama oxşamaz qız qapını itələyərək:

– Get burdan, evdə yoxdu deyirəm, narahat edirsən, – dediyində sol ayağımı qapının arasına salıb əllərimlə itələdim. Güclə qapını açıb:

– Yalan deyirsən, evdədi, Nərmin, ay Nərmin! – deyə-deyə içəri soxuldum. Nərmini çağıraraq otaqları gəzdiyimdə o mətbəxdən çıxıb:

– Nədi, niyə narahat edirsən məni? Çıx get burdan, bir də bura gəlmə, – dedi.

– Axı sənsiz qala bilmirəm, tükənmişəm daha, bu qədər əzab bəsdi mənə, bağışla məni. Bir yanlışdı etmişəm, söz verirəm sənə: bir daha elə qələt etməyəcəm və sən məni bağışlamayınca burdan bura getməyəcəm.

– Xahiş edirəm çıx get burdan, narahat edirsən hamını. Qonşular şikayət etməmiş get.

– Axı mən səni sevirəm, niyə mənə belə edirsən?

– Daha mən səni sevmirəm, başa düşdün? SEV-MİRƏM. İndi çıx get burdan.

Dondum, sındım, parçalandım. Onun son sözləri ilə eləcə qaldım. Ayaq üstə quruyub qaldım. Çiyinlərimə ağırlıq düşdü. O an sinəm sancılanır, boğazım qıcıqlanır, ağrıdan gözlərim dolurdu. Nə edəcəyimi bilmədim. Susdum, baxdım və yenə də susdum, susdum, susdum. Bir kəlmə belə demədən, səssizcə başımı aşağı salıb evdən çıxdım. Ətraf aləm də susmuşdu sanki, qulaqlarım duymaz olmuşdu. Başımı aşağı salıb ayaqqabılarımın ucuna baxaraq ağır-ağır yeriyirdim. Küçədə dodaqlarım əsməyə başladı, yanaqlarım çoxdan islanmışdı. Öz-özümə danışırdım: "Artıq bitdi. Hə, hə, bu dəfə bitdi. Bu son idi, anladım. Əlimdən nə gələ bilərdi ki, o son sözlərini dedi, özü də çox gözəl dedi: MƏN SƏNİ SEVMİRƏM, BAŞA DÜŞDÜN? ÇIX GET BURDAN. Daha başa düşdüm. İndiyədək başa düşdüyüm ən aydın şey bu oldu. – DAHA SƏN YOXSAN."

***

Mingəçevirdən hərəkət edən ilbizlər Kürdəmiri keçmişdi, amma zaman keçmək bilmirdi. Nazlanaraq keçən günlər alkoqola dönməyimə səbəb olurdu. Bazar günü həmişəki yerimdə, pəncərə önündə oturub pivə içirdim. Axşamüstü Elnur yanıma gələndə mən artıq piyan idim. Onu da nə qədər içirtmişdimsə

o da piyan olub aşa-aşa güclə çıxıb getmişdi. Mənsə təkbaşına oturub qusaraq içməkdə davam etmişdim. Əsr kimi gələn ikinci gündə Röya zəng edib anasıgilin Mingəçevirə qayıtdığını, bacısına ev işlərində kömək etsin deyə Bakıya, bacısının yanına gəldiyini söylədi. O mənlə görüşmək, parkda gəzmək istədiyini, filmə baxmaq istədiyini və məni xərcə salacaq digər şeylər etmək istədiyini deyəndə mən hamısına "edərik, gedərik, yaxşı", – deyib görüşəcəyimizi vəd etdim. Elə həmin gün yeni nömrə alıb onu istifadə etdiyim bütün sosial şəbəkələrdə qara siyahıya atdım. Sonrakı aqibətindənsə heç bir xəbərim olmadı.

Yeddi gün keçmişdi. Durumuma öyrənişməyə çalışırdım. Nərmindən soyuduğuma, ürəyimdəki boşluğa alışdığıma inanmaq istəyirdim. Həyatımda ona məxsus nə varsa silib atırdım. Nömrəsini, telefonumdakı şəkillərini sildiyim kimi. Amma xatirələri silmək asan deyildi, insanı öldürüb yaşayan xatirələri. Ona olan pis sevgim ehtiyac halını almışdı, suya, havaya olan ehtiyac kimi. Buna alışmağa çalışırdım, havasız, susuz yaşamağa. Başımı qarışdırmaqdan ötrü işə geri qayıtmaq barədə fikirlər keçirdi ağlımdan. Bütün günü oturmaqdan sıxılır, heç nə etməməkdən yorulurdum...

Yeni ili evdə yalnız başımı siqaret və çaxırla qeyd edərək qarşıladım. Daha günlər əvvəlki kimi yox, sürətlə keçirdi. Sürətli günlərin birində, yanvarın əvvəllərində Səidə zəng etdi. Telefonu açıb:

– Nömrəmi haradan tapmısan? Sənin əlindən dəyişmişdim, – dedim.

– Salam-sağ ol yoxdu? Facebook profilindəki dostundan tapmışam, çoxdandır səsini eşitmirdim, dedim görüm necəsən? Yeni ilin də mübarək.

– Pisəm, çox pisəm, sən necəsən? Sənin də hər yeni saniyən mübarək.

– Həmişəki kimi, sağ ol, sənlə görüşmək istəyirəm, mümkünsə bu gün, elə indi.

– Niyə? Sizə istirahət filan yoxdu? Universitet qurtarmayıb?

– Bir şeylər demək istəyirəm, xahiş edirəm, yox demə, gəl. Universiteti qurtarmağıma iki il var, imtahanlar aralığındayıq, gələcəksənmi?

– Yaxşı, hara gəlim, saat neçədə?

– Nərimanovda MOON-ol-SUN kafesini tanıyırsan? Ora gələ bilərsən?

– Hə, tanıyıram, gələrəm.

– Saat 10-da görüşərik, gözləyəcəm.

– Yaxşı hələlik, sağ ol – deyib telefonu söndürdüm.

Ayna önündə qıvırcıqlaşan saqqalıma, qulaqlarımı örtən, səliqəsiz saçıma əl gəzdirərək paltarımı geyinib yola çıxdım. Bayırda şaxta adamın sümüyünə işləyirdi, nəfəs alıb-verərkən buxarlanaraq ağızdan çıxan isti hava siqaret tüstüsünə bənzər boz rəngə çalırdı. Yollar buz bağladığından maşınlar asta hərəkət edirdi. Kənar yerlərdə qar topaları da vardı. Soyuqdan əllərimi ceketin cibinə salmışdım. Arada şaxtadan rəngini itirmiş burnumu və qulaqlarımı əlimin içi ilə ovuşduraraq qızdırırdım. Addım atdıqca ayağımın altında qalan şaxta vurmuş qar şaqqıldayırdı. Bəzən ayağım sürüşürdü. Yıxılmağa az qalmış müvazinətimi düzəldirdim. Önümdə gedən yaşlı bir kişi mənim kimi çevik davranmadığından sürüşərək beli üstə yerə dəydi. Onu yerdən qaldırıb yenidən yoluma davam etdim. Geriyə dönüb baxdığımda həmən kişinin yenidən sürüşüb yıxıldığını gördüm. İkinci dəfə onu qaldırmağa getməyib metroya girdim. Dediyim vaxtdan on dəqiqə gec, saat on birə on dəqiqə işləmiş kafeyə gəlib çıxdım. Səidə ikinci mərtəbədə pəncərə qırağında oturub yoldan asta-asta irəliləyən maşınları izləyərək məni gözləyirdi. Görüşərək şüşədən masa arxasındakı yumşaq oturacağa əyləşib ofisianta iki dilim çiyələkli tort, iki stəkan çay sifariş etdim. İsti çayı əlimdə tutub barmaqlarımı qızdıraraq:

– Hə, de görüm nə deyəcəksən, Səidə xanım, daha məni çağırmağının səbəbindən danış, – dedim.

O, başını aşağı salıb tort dilimini çəngəllə eşib, deşərək:

– Dediyimə inanmağını istəyirəm, xahiş edirəm səmimi ol, başından eləmə məni, – dedi.

– Əvvəlki söhbətlərdəndisə, mən sənə o vaxtı da demişdim, əgər həmin sözləri deyəcəksənsə, eyni sözləri eşidəcəksən.

– O zamandan indiyə mənə qarşı hər hansı hiss yaranmayıb səndə? O qədər pisəm ki, məndən uzaq durursan? Mənlə ancaq yatmaq keçir ağlından?

– Səidə, o vaxt da demişdim sənə, indi də deyirəm, sən çox gözəl qızsan, buna şübhən olmasın, sadəcə olaraq mən istəmirəm, alınmır, biz də alınmaz bu. Özün də başa düşürsən məni, bizdən olsa-olsa dost olar ancaq, o da bəlkə.

Mən danışdıqca onun gözləri qızarır, qeyri-ixtiyari çəngəllə tortu əzərək qəmli-qəmli gözlərimə baxırdı. Onun mənə olan sevgisinin səmimiyyətinə inanırdım. Amma istəsəydim də, o an qəlbimdə ona qarşı sevgi yaranmayacaqdı. O gözəl olmağına gözəl idi, amma qəlbimdəki gözəllik o deyildi. Başlıca olaraq onun başqaları ilə də yatdığını bilirdim və bunu üzünə deyə bilmirdim.

Səidə çayından bir qurtum götürüb:

– Bilirdim belə deyəcəksən, ancaq içimdə közərən kiçicik ümid, o məcbur etdi məni. Mən razıyam, razıyam ki, dost qalaq, ən azından üzünü görəcəm, – deyib üzündəki gerçək hissi gizlətməyə və gülümsəməyə çalışdı.

Saata baxdığımda gec olduğunu görüb:

– Daha gecdi, gəl gedək səni evə ötürüb gedim, – dedim.

Sakitcə:

– Hə yaxşı, – deyib razılaşaraq masaya keçirdiyi boz qalın ceketini əyninə geyindi.

Kafenin qırmızı xalı sərilmiş, ağ rəngə boyanmış dəmir sürahili pilləkənləri ilə aşağı endiyimizdə:

– İndi harda qalırsan? Yaxındı bura? – soruşdum.

– Montində, piyada on-on beş dəqiqəlik yoldu hardasa, sən istəyirsən get, metro bağlanar, yolda qalarsan.

– Narahat olma, qayıdaram mən. Gedək səni ötürüm, – deyərək kafenin şüşədən giriş qapısını açıb bayıra çıxdıq.

Çox astadan soyuq külək əsirdi. Şaxta azca ölüşkəmiş, narın qar yağmağa başlamışdı. Buludlardan ayrılıb rəqs edərək dünyaya qovuşmağa can atan qar dənələri yerə düşdüyü an əriyib yox olurdu. Narın

qar yağışı altında asta addımlarla bir xeyli heç nə danışmadan lal-dinməz getdik. Yarıyolda "üşüyürəm", – deyərək qoluma girdi. Yarı yolu da eləcə başa vurduq. Yaşadığı evin giriş qapısı önündə sağollaşanda qəfil pəncəsi üstə duraraq dodaqlarımdan öpdü. Bir az uzun öpüş oldu bizim öpüşümüz. Məlhəm oldu, dərman oldu həsrətdən çatlamış dodaqlarımıza, sevgiyə həsrət o çatlaqlara. Bitməsini istəmirdim bu nəvazişin. Çünki o an sevgisini hiss edirdim, solum keyimiş, sinəm odlanmışdı. Adsız duyğu bunu duyurmuşdu. O astaca dodaqlarını çəkərək gözləri nəmli "çatanda xəbər et", – deyə ayrılığın və sevginin xəbərçisi olan sözlərlə yola saldı məni.

***

Ondan ayrılıb fikrə dalaraq metroya tərəf yola düşdüm. Səidəyə dediyim sözləri düşünərək qəbahət etmiş kimi hiss edirdim özümü. Bu peşmançılıq sevgidən yox, mərhəmətdən doğurdu. Acıyırdım ona. Onu sevə bilmədiyimə, sevgimi əsirgədiyimə görə təəssüflənirdim. Məyus halda addımlayarkən siqaret tüstüsü ilə hislərimi boğmağa çalışırdım. Fikirlərdə boğularaq telefonu çıxarıb saata baxdığımda düz on iki tamam idi. Metronun bağlandığına, sonuncu qatara gecikdiyimə əmin idim. Amma açıq olması

ümidi ilə oraya tələsdim. Sönük ümidim puça çıxdı. Nəriman Nərimanov metro stansiyasının girişini bağlamışdılar artıq. Yol qırağında dayanıb müştəri uman boz sıx saçları, üzünə yayılmış girdə burnu, enli qaşları olan, orta boylu yekə qarın bir taksi sürücüsünə yaxınlaşaraq:

– Salam dayı, Əcəmiyə gedə bilərik, – dedim.

Taksi sürücüsü:

– Niyə getmirik, otur getdik, – dedi.

Maşına oturmadan öncə:

– Neçəyə aparacaqsız? – deyə soruşdum.

"Vaz 2107" sürücüsü:

– Nə verərsən-verərsən, otur.

– Cəmi beş manatım var, bəs edər?

Sürücü:

– Otur gedək, bəs edər, – dedikdən sonra keçib arxa oturacaqda əyləşdim. O arxada oturduğumu gördüyündə: – keç qabaqda otur, cavan-cavan söhbət edərik, – dedi.

Ərindiyimdən:

– Mənə bura rahatdı, çox sağ olun, – dedim.

Sürücü:

– Sənə necə xoşdursa, qardaş, – deyərək maşını ağır-ağır zolağa saldı. Yola düzəlib sürəti artıraraq: – Hava dəhşətdi, heç sərf eləmir bu havada maşın

sürmək, ancaq nə edək? Çörəyimiz burdan çıxır, – deyib susdu. Cavab vermədiyimi görüb: – Əcəmidə hansı tərəfə gedəcəyik? – sualını verdi.

Mən:

– Metro qırağı harda istəsəz saxlayarsız, ordan gedərəm.

Sürücü:

– Baş üstə, qardaş, – deyib özünü tərifə başladı: – Mən yeddi il Rusiyada maşın sürmüşəm, bu şaxta nədi ki ordakının yanında? Heç nə. – Yoldakı maşınları işarə edərək: – Bunların maşın sürməyinə bax, gör necə sağa-sola sürüşdürürlər, – dedi. Ardınca "Mersedes"i göstərib, – hələ bunu heç sürmək olmur, əlindən çıxdı sənin deyil, ya maşına, ya da divara çırpacaqsan, salamat çıxsan dua elə, – sağ əlini iki dəfə qaldırıb sükana vuraraq – hayıf deyil 07? Maşınların şahıdı, hər cür maşın sürmüşəm, 07-dən başqası yalandı, vallah, qardaş, əlimə elə yatır ki, bir dəfə olsun yarı yolda qoymayıb məni.

Onun sözlərini yalandan təsdiq etdim:

– Hə, elədi.

O, sözlərimdən daha da həvəslənərək söhbətinə davam etdi:

– Necə istəyirsən sürüm. Saata bax, yol buz olsa da uzağı yeddi dəqiqəyə çatdıracam səni. Belə havada,

qarda, şaxtada fərqi yoxdu. Bütün şəraitdə sürürəm, daha vərdiş almışam, gör neçə ildi sürürəm, on yeddi ilə yaxın, indiyədək iki-üç kiçik qəza keçirmişəm, onunla da qurtardı. – Geriyə çevrilib mənə baxaraq: – inanırsan, qardaş, mən...

Qorxu ilə:

– Önə bax! – deyə qışqırdım.

Başını çevirib önə baxanadək aləm qarışdı. Ötmə edən avtomobilə çırpılmamaqdan ötrü əyləci sıxdığında maşın durmayaraq avtomobilə sarı sürüşməyə başladı. Sürücü qəfil hərəkətlə sükanı sağa çəkib qurtulmağa çalışarkən maşının arxası sola dartıldı. O əlli-altmışla getdiyimiz buz bağlamış yolda idarəetməni tamamən itirdi. Maşın gah sağa, gah da sola sürüşürdü. Əllərimi ataraq möhkəmcə qapılardan tutdum. Səsimi çıxara bilmədiyimdən udquna-udquna qaldım. Həyəcandan dilim-dodağım quruyur, ürəyim şiddətlə döyünürdü. Əzrailin yaxınlarda olduğunu hiss edirdim. Maşın sağa-sola sürüşərək səkiyə çırpılıb yolun qarşı tərəfinə keçdi. Sonuncu gördüyüm üstümüzə çıxan Kam.AZ-ın faraları oldu. O an qorxudan göz qapaqlarımı möhkəmcə bir-birinə sıxdım. Çox möhkəmdən tormoz, ardınca toqquşma səsi gəldi, başım zərblə maşının üstünə çırpıldı və bütün bədənimdə ağrılar hiss etdim.

***

Gözlərimi açıb qatı dumanı parçalayan günəşə baxır, harada olduğumu anlamağa çalışdım. Heç nə anlamadan taqətsiz gözlərimi yumdum. Gözümü açmağa gücüm yox idi. Bütün enerjimi toplayıb ikinci dəfə gözlərimi açdığımda ətraf qaranlıq idi, mən hələ də dumanlı görürdüm. Gözlərimi yumub yenidən açdım, dumanlar içində ağ xalatlı bir qadın mənə baxaraq dodaqlarını tərpədirdi. O mənə nəsə deyirdi, lakin heç nə eşitmirdim. Gözlərimi qırpıb açdığımda önümdə anam dayanmışdı. Deyəsən ağlayırdı. Hər gözümü yumub-açdığımda yeni bir insan üzü ilə qarşılaşırdım.

Qarşıladıqlarımdan yalnızca üçünü tanımışdım: anamı, qardaşımı və Nərmini. Digər üzlərin heç biri tanış deyildi. Yavaş-yavaş nə baş verdiyini anlamağa başladım. Məni xəstəxana otağında, çarpayıda uzandırmışdılar. Danışmağa halım yox idi. Boynuma plastik boyunluq bərkidilmişdi deyə başımı hərəkət etdirə bilmirdim. Hər iki ayağım gipsə salınmışdı. Sol qolumun damarlarına iynələr sancmışdılar. İynələrə qoşulu şəffaf sistem şlanqlarından rəngsiz və qırmızı mayelər axırdı. Başım gicəllənir, alnım qaşınırdı. Əlim tərpənmədiyindən alnımı qaşıya bilmirdim. Və o getdikcə məni qıcıqlandırırdı. Qaşıntı ilə mübarizə

etdiyim bir vaxtı qapı açıldı. İçəri əlində vərəqlər tutmuş ağ xalatlı qadın girdi. Damarlarıma qoşulan şlanqlara baxdıqdan sonra gülümsəyərək mənə:

– Möhkəm adam imişsən, özünü necə hiss edirsən? – dedi.

Mən udqunub qupquru dodaqlarımı dilimlə isladaraq güclə eşidiləcək tərzdə:

– Pis, alnımı qaşısanız bəlkə bir az toxdayam, – dedim.

Ağ xalatlı qadın:

– Yaxşı olacaqsan, darıxma, alnında yara var, ona görə qaşınır, qaşımaq olmaz, – deyib gülümsədi və səssizcə otağı tərk edib getdi.

Yamanca yorğun və yuxulu idim. Susuzluqdan ciyərlərim yanırdı. Bütün bədənimdə sızıltılar var idi. Bəzən o sızıltılar getdikcə artır, artır və artdıqca ağrıya çevrilirdi. Ağrılar tədricən artaraq o dərəcə şiddətlənirdi ki, dözməyə halım olmurdu. Çığıraraq yerimdə çırpınırdım. Səsimə gələn ağ xalatlılar ağrıkəsicilər vuraraq imdadıma yetirdilər. Günlər keçdikcə ağrıkəsicilər də təsir göstərmirdi və ağrılar dözülməz olurdu. Həmin vaxtlar Allahdan ölüm diləyirdim, bircə ölüm. O isə xəstə adamın bircə diləyin gerçəkləşdirmirdi. Xəstə yatdığım müddətdə anam özünü unudub qayğımı çəkərək tamam əldən düşmüş, arıqlayıb zəif-

ləmişdi. O elə bil yeddi il qocalmışdı. Ağlamaqdan gözlərinin altı qaralmış, içi qan qoymuşdu. Gözlərinin altında qaralan şişkinlik, üzündəki qırışlar, saçındakı ağ tellər ürəyimi parçalayırdı. İncə barmaqlı zərif əllərinin solğunlaşmış dərisini çoxdan sarı xallar bürümüşdü. Həyat iztirab verərək gözlərimin önündə onu qocaldırdı, mənimsə əlimdən tamaşa etməkdən savayı heç bir şey gəlmirdi. Anam yanı başımda oturaraq saçlarıma sığal çəkib:

– Yaxşı olacaqsan bala, yaxşı olacaqsan, sənin üçün hər gün allaha yalvarıb dua edirəm, – dediyində qapını açaraq həkimim otağa girdi.

Həkim yanıma gəlib:

– Salam, Rasim, necəsən? Bu gün daha yaxşı görünürsən, – dedi.

– Əvvəlkindən yaxşıyam, doktor, çox sağ olun, nə vaxt ayağa qalxa biləcəm?

– Rasim, nə vaxt ayağa qalxacağını dəqiq deyə bilmərəm, bəlkə üç, bəlkə dörd, bəlkə beş aya, o səndən asılıdı. Bura nə halda gəldiyini unuda bilmirəm, yaşayacağına ümidimiz yox idi, Allah sənə ikinci bir həyat qismət elədi. Bura gələndə çoxlu qan itirmişdin, bəxtin çəkdi bir xanım elə həmin gün sənə qan verdi, yoxsa qanitirmədən ölə bilərdin. Üç gün komada qaldın, ayılmağın özü bir möcüzə oldu.

Mən gülümsəyib:

– Əzrail bu dəfə bacarmadı, üç gün komada olmuşam? Qəribədi, heç nə xatırlamıram, bəs mənə qan verən qəhrəman kimdi, doktor? – dedim.

Həkim:

– Hə düz üç gün, xatırlamağın qəribə olardı. Bir qız qan vermişdi, tanımıram, – deyəndə anam: – Səidə, Səidə, mən bilirəm Səidə, – dedi.

Mən: – Hə bildim, sağ olsun.

Həkim:

– Özünə yaxşı bax, kefini pozma, yaxşı olacaqsan, təki möhkəm ol, indi gedirəm, yenə gələcəm, – deyərək gülümsəyib otaqdan çıxdığında anam söhbətini davam etdirdi:

– Deməli, sənin sevgilin də var imiş, Nərmin qızım mənim gəlinim olacaq demək. Çox yaraşır sənə, ayağa dur inşallah, gedərik elçiliyə. Çox bəyəndim onu, tərbiyəli qıza oxşayır. Səni elə çox istəyir ki, gəl görəsən, səni burda görəndə dəli olmuşdu. Sabah gələcək bura, dərslərinə görə gələ bilmədiyini dedi, hər fürsətdə gələcəm, dedi, – dedi və əlavə tərifələr.

Nərminlə bağlı söhbəti bitirib anamdan atamla qardaşımın məni ziyarətə gəlməmələrinin səbəbini soruşdum. Qardaşımla sadəcə bir gün söhbət etmişdim. Atamsa heç gəlməmişdi. Zar-zor öyrəndiyimə

görə: atam qəzaya düşdüyümü, komada olduğumu eşitdiyində infarkt keçirdib. Həkim: “Bir daha olarsa ölə bilər, ehtiyatlı olun”, – dediyinə görə ziyarətimə gəlməsinə mane olurmuşlar. Qardaşımsa dükandakı işlərlə məşğul olduğundan, atamın qayğısına qaldığından gələ bilmirmiş. Anam:

– Atan indi yaxşıdı, dükana da gedib-gəlir, qardaşın yanına gəlməyə qoymur, mən də istəmirəm gəlsin, telefonla danışırsınız, bəsdi. Səni belə görsə yenə halı pisləşər. Daha atanız qocalıb, bala. Hüseyn əvvəlki Hüseyn deyil! – deyərək ah çəkib ürəyimi kövrəltdi. Səidə barəsində soruşduğumda sadəcə:

– Xəbərim yoxdu, bala, – deyərək söhbəti dəyişdi.

Səidəni sonuncu dəfə evlərinə ötürdüyümdə gördüyüm idi. O vaxtdan bəri yanıma gəlməmişdi, heç telefonla da danışmamışdıq. Anama Səidənin nömrəsini deyib ona zəng etməsini istədim. Anam nömrəni yığıb zəng etdiyində telefonuna zəng çatmırdı. Həmin gün ona beş dəfə zəng etdik, amma əlaqə saxlaya bilmədik. Bilmədiyim başqa nömrəyə keçdiyini düşünərək ona istifadə etdiyi sosial şəbəkələrdən mesaj yazdım. Birindən belə cavab gəlmədi. Mən: “Maraqlıdır, niyə belə etsin? Qan verib, indi heç ziyarətimə gəlmir, nə də zəng edir» – deyə düşünürdüm...

Axşamlar yuxum gəlmirdi. Gecələri də oyaq olurdum. Bəzən səhər saat yeddidə gözümə yuxu gəlirdi. Adətən dörddə, ya da beşin yarısı yatırdım. Ondan tez yatmağıma sevinirdim. Bütün günü otağıma qoyulmuş kiçik televizordan xəbərlərə, tele-şoulara, evlilik proqramlarına, filmlərə, futbol yarışlarına baxırdım. İztirablı günlər keçmək bilmirdi və mən çox sıxılırdım. Elə günlər olurdu ki, Nərmin gəlmirdi. Belə vaxtlar daha da sıxılırdım. Zəng edərək telefonda uzun-uzadı danışırdım. Onun dərslərinin olduğunu bildiyimə görə bezdirmirdim. Amma yanımda olmasını çox istəyirdim. Hələ Nərminlə barışdığım üçün qəzaya düşməyimə sevinirdim də.

Bir gün Nərmin əlində kitab qapını açıb otağıma girdi. Onun içəri girməsi ilə üzümdə çiçəklər açdı. Nərmin dodağımdan öpüş götürüb altına stul çəkib:

– Bax, sənə kitab gətirmişəm, – deyərək əlində gətirdiyi kitabı göstərdi. – Qabriel Qarsia Markesin "Vəba günlərində eşq" kitabını almışam, deyəsən səndən danışırlar, – deyərək gülüb, – mən oxuyacam, sən dinləyəcəksən, razılaşdıq? – deyə soruşdu.

– Söhbət etsək olmaz? Səndən sarı darıxmışam, Markesdən sarı yox, sonra oxuyarsan, olar?

– Mən də darıxmışam, yaxşı sən deyən olsun, nə danışaq?

– İlk olaraq bir də öp, dilimdə dadı qaldı. – Söylədiyim üçün Nərmin stuldan azca qalxıb özünü irəli verərək dodaqlarımı bir də öpdü. Bu öpüş azca uzun olmuşdu. Həm də çox xoşuma gəlmişdi.

Nərmin:

– Hə, öpdüm, indi danış, – dedi.

– Yaxşı danışım, nədən danışım? – dediyimdə ağlımda Səidə ilə bağlı bir neçə sual var idi, amma ondan soruşmağa çəkinirdim. Küsəcəyindən qorxaraq başqa mövzulardan danışdım: –Anam mənə dedi ki, yataqdan qalx, Nərminə elçi gedəcəm. Deməli, yaxında evlənirik.

Nərmin sevinərək:

– Hə, mənə də dedi Lalə xala, inşallah...

***

Həmin gün həmişə olduğu kimi Nərmin gah balışımı düzəldir, gah su verir, gah da üzümün tərini silirdi. Bunlardan əlavə o gün mənə "Vəba günlərində eşq" kitabından 67 səhifə oxudu. Həyatımda ilk dəfə idi ki, bədii ədəbiyyat oxuyurdum. O da Nərminin vasitəsi ilə. Roman olduqca maraqlı idi, Markes sözlərdən möcüzələr yaratmışdı. Əsərin necə sonluqla bitəcəyini səbirsizliklə gözləyirdim. Bu möcüzə ilə qarşılaşmamışdan öncə "pullarını gör nəyə xərcləyirlər axmaq-

lar, kimlərinsə yazdığı cümlələrə", – deyərək kitabların cansıxıcı, kitab oxuyanlarınsa ağılsız olduqlarını düşünürdüm. Markeslə oxucuların ağıllı, kitabların da maraqlı olduğunu anlamışdım.

Nərmin yanımdan getdikdən sonra anam yenidən otağa qayıtdı. Oturub ana-bala dərdləşdiyimiz bir vaxtı axşam çağı saat 8-də, ya da 9-da Elnur gəldi. O mənim yanıma bəzən gündə, bəzən iki gündən bir gələr, bir saata yaxın söhbət edib gedərdi. O günsə bir xeyli danışıb çərənlədi, getmək bilmirdi. Çənəsi açılmışdı sanki, boşboğaz mənim danışmadığımı görüb anamla danışmağa başladı. Əclaf adam durmadan suallar verərək danışmağa belə halı qalmayan yaşlı anamı əldən salırdı. Onunla danışmaq məni yorduğundan həmin gecə bir az tez yatmağa müvəffəq olmuşdum. Səhəri gün ziyarətimə Rauf gəldi. O əhvalımı düzəltməkdən, başımı qarışdırmaqdan ötrü hey mənə lağ edirdi. Zarafat edir, özü də gülür, məni də güldürməyi bacarırdı. O bir dəfə otağa girəndə: "Yekə oğlansan, xəstəxanada özünə otaq tapan kimi adam saymırsan, o yumşaq arxanı qaldır, dur bir adamla görüş, tərbiyəsiz", – demişdi. Bir dəfəsində də oturub söhbət etdiyimiz yerdə: "Dur get çay gətir, dilim-dodağım quruyub, elə hey çolaq kimi uzanırsan", – demişdi. Onun bu sözlərinə o qədər gülmüşdüm ki,

bütün bədənimdə ağrılar əmələ gəlmişdi. Rauf həmin gündə:

– Ərindiyindən mərətinə şlanq salmısan, yeyib-içib yerində də işəyirsən, – deyərək üzümü güldürməyi bacardı.

Onun sözlərinə sirkələnərək ürəkdən gülüb:

– Ha-ha-ha. Buna görə çox xoşbəxtəm, gərək bunu pivə içdiyimiz vaxtlar edəydik, daha təcrübəm var, pivə içəndə istifadə eləyəcəm, – dedim.

– Daha qalx ayağa, darıxmışam keçən günlərdən sarı, birlikdə içdiyimiz, gəzdiyimiz vaxtlardan sarı, elə bil nəzər dəydi sənə, nə qədər vaxtdı bu haldasan? Səhv etmirəmsə qəzaya düşdüyün gün, – keçən ayın əvvəlləri idi. İndisə artıq fevralın axırlarıdı. Hardasa bir aydan çox olar? Hə?

– Qırx üç gündü, sən məni demirsən, belim quruyub bu vəziyyətdə qalmaqdan. Elə istəyirəm ki, bir-iki addım atıb yeriyim. İnşallah yenə ayağa qalxacam, darıxma heç nədən sarı.

– İnşallah, Rasim, inşallah. Daha mən gedim, çox yormaq istəmirəm səni, özüm tez-tez gəlmirəm yanına, istəmirəm yorum səni. Mən də bir dəfə qəza keçirmişdim, yanıma kimsə gələndə əsəbiləşirdim, gəlib çərənləyib gedirdi, mənim kimi, ha-ha-ha.

– Hə, düz deyirsən, qohumlar gələndə bezirəm, amma sən yox, sən yenə maraqlı bir şeylər danışırsan, narahat etmirsən, narahat olma.

– Yaxşı görək, bəlkə də gedəndən sonra söyürsən ki, bayaqdan rədd ol get də, baş-qulağım xarab oldu. Ha-ha-ha.

– Yox, qardaş canı, elə şey yoxdu, ayıb olar.

– Yaxşı, qardaş, özünə yaxşı bax, daha gecdi, mən gedirəm.

– Necə istəyirsən, özünə yaxşı bax, yenə gözləyirəm.

Rauf qapının cəftəsini çəkib, – sağ ol, – deyərək getdi. Onun ardınca anam otağa girdi. Həmişəki yerində, yatağımın sol tərəfindəki stulda oturdu.

Mən:

– Ana, bir aydan çoxdur ki, yatıram, demək olar ki, bütün qohumlarım yanıma gəlib-gedib, atam xəstə olsa belə yanıma gəldi, sağ olsun, tanışlarım, uzaq qohumlarım belə ziyarətimə gəliblər, gəl ki, yaxın dostum olan insan, o insan ki, məni çox istədiyini deyirdi, o yanıma gəlməyib. Heç zəng edib kefimi soruşmur, gəlməyi bir yana qalsın.

Anam qəhvəyi naxışlı sarı nimdaş yaylığını düzəldərək:

– A bala, indi elə zamandı qardaş qardaşı saymır, kimə etibar var axı. Ona görə əhvalını korlama. Təki

canın sağ olsun, tezliklə ayağa qalxarsan. Tanıyıram onu? Kimdi bu vaxt ərzində yanına gəlməyən dostun?

– Mənə qan verən qızı deyirəm, ana, Səidəni, – dedim.

Anam dərin bir nəfəs alıb-verərək heç nə demədən susdu. Əhvalının dəyişdiyini hiss etdiyimdən:

– Nə olub, ana, niyə kefin pozuldu? Sən məndən nəsə gizlədirsən? Çoxdandı hiss edirəm bunu, düzünü de mənə, nə baş verib? – dedim.

Anam məyus halda başını qaldırıb gözləri yol çəkirmiş kimi tutqun baxışlarını bir nöqtəyə həbs edərək:

– Sən komada olan ikinci gün mən bura gəldim, onda sənə qan verən qız – oturduğu yeri göstərərək – burada oturmuşdu, elə yanıqlı-yanıqlı ağlayırdı ki. O məni görüb ağlaya-ağlaya otaqdan çıxıb getdi, səhəri günü əlində bir zərflə gəlmişdi. Məndən səni göstərib kimin olduğumu soruşdu. Ayaqüstü bir az söhbət etdik. Sənə qan verdiyini, dostun olduğunu öyrəndim. O zaman mən də özümü pis hiss edirdim, o qız da. Çox söhbət edə bilmədik. Əlində tutduğu zərfi mənə verib gözləri yaşlı çıxıb getdi. Ondan sonra bir də gəlmədi.

Mən anamın sözün yarıda kəsib:

– Nə zərf, hanı? Səndədi? Yanındadı? – soruşdum.

Anam ayağa qalxıb pəncərə önünə qoyduğu əl çan-

tasından bir zərf çıxarıb mənə gətirdi. Sonra da ağlaya-ağlaya otaqdan çıxdı. Səsləsəm də hay verməyib qapını örtüb getdi. Sağalmağa başlayan qollarımı zar-zor qaldırıb zərfi cıraraq içindən məktubu çıxardım. Bir A4 səhifəsinə əllə səliqə ilə yazılmış sözləri oxumağa başladım.

***

*"Salam, Rasim, sən bunu oxuyursansa dualarım qəbul olub demək ki, sən həyatdasan demək ki. Əgər bunları oxuyursansa Allahıma yüz dəfə, min dəfə, milyon dəfə şükürlər olsun. Sənin yanına gəlmişdim. Sən yataqda eləcə laldinməz yatırdın. Həkimlərdən vəziyyətin barədə soruşdum. Komada olduğunu, ölüm təhlükəsinin uzaqlarda olmadığını, ölmə ehtimalının olduğunu dedilər. Mənə qəti bir fikir söyləyən olmadı. Nə edəcəyimi bilmirəm. Özümü çox pis hiss edirəm. Sənin qəzaya düşməyinin səbəbkarı, günahkarı mənəm. Səni çağırmasa idim, indi ayaq üstə olardın, bağışla buna görə məni. Heç zaman belə olsun istəməzdim. Sanki bütün xoşbəxtliyimi əlimdən alıblar. İndi bircə şeyə görə təskinlik tapıram, o da ürəyinə girməyimə görə. Mənlə sağollaşıb getməyindən az sonra sənə zəng etdim. Telefonu bir qız açıb qəza keçirdiyini, çox qan itirdiyini dedi, deyəsən təcili yardımda idin. O gecə qan qrupunu öyrəndim. Eyni qan qrupuna aid olduğumuzu bilmirdim heç. Həmin gecə məndən qan götürüb sənə köçürdülər. Axır ki, sənin qəlbinə*

*yol tapdım. Sən istəsən də, istəməsən də mən sənin qəlbinə girməyi bacardım daha. İndi mən sənin qəlbindəyəm. Əgər bunları oxuyursansa, çalış bir də özünə yaxşı bax. Qoyma heç barmağın cızılsın, barmağından axacaq hər damla qanda varam mən. Amma bunu bil ki, sən məni yenə tək qoydun. Sən məni əbədi həyatda tək qoydun. Buna görə çox şadam. Mən sənin ölümünə dözə bilməzdim. Səbir edə bilməzdim. Gözümün önündə ölsəydin mən necə yaşaya bilərdim? Sənin də ölümünü görmək istəmirəm, atam belə tərk etmişdi məni, anamı. Necə dözdüyümü hələ də bilmirəm. Dərdimə yanmağına görə yazmıram bunları. Sadəcə bunu bil ki, sən məni sevməsən də, mən artıq sənin qəlbindəyəm, istəsən də çıxara bilməzsən. Sən mənim qəlbimdə hər zaman vardın, hər vaxt. Səni sevirəm, Həmişə də sevəcəm. Özünə yaxşı bax. Məni heç vaxt unutma. Mənə verdiyin pulları da halal et. Mən sənə haqqımı halal edirəm. Səndən bircə xahişim var. Əgər bunları oxuyursansa xahişimi yerə salma. Bu səndən son istəyimdi. Nərminə məni bağışlamasını söylə, mənə haqqını halal etsin de. Az öncə ona zəng etdim. Məni də, səni də bağışlamasını istədim, o məni təhqir edib telefonu söndürdü. Sənin qəzaya düşməyini, komada olmağını ona mesajla yazdım. Yazıq qız pərişan olacaq yəqin. Gedərkən belə başını ağrıtmaq istəmirəm. Məndən bu qədər, daha mən bacarmıram, atamın yanına gedirəm. ƏLVİDA, Rasim."* – yazmışdı.

Məktubu oxuduqca əllərim əsir, üzüntüdən quruyan boğazım göynəyir, gözlərim dolurdu. Göz yaşım süzülüb balışı isladırdı. O məktubu oxuduqca sanki fəza çökürdü, kainat kiçilirdi, ulduzlar sönərək yerə tökülürdü. Sanki dünyadakı hər kəs yox olmuşdu, mən tək-tənha qalıb həsrət çəkirdim. Ürəyim sıxılırdı, zaman, an dayanmışdı. Hər tərəf donmuşdu. Məktub əlimdən sürüşüb yatağa düşdü. Səidə YOX idi artıq. Öpüşüb yatağa girdiyim insan yox idi artıq. Axırıncı dəfə mənə dediyi "çatanda xəbər et" – sözləri otaqda əks-səda edərək bağrımı yarırdı. Soyuq gecədəki öpüş, son öpüşümüz olmuşdu. O həyatımdan bir dəfəlik çıxmışdı. Uzaqlara, çox uzaqlara, məsafələr yetməyəcək qədər uzaqlara getmişdi, əllərim çatmayacaq sonsuzluğa, nə zaman qovuşacağımı bilmədiyim əbədiyyətə. Düşündükcə parçalanırdım. Fikirlər beynimi yeyir, sancılar sinəmi dəlirdi. Ona dediyim qaba sözləri xatırladıqca əzab çəkirdim. Hər zəng etdiyində söylədiyim: "cəhənnəm ol, məni narahat etmə, bezdirmisən" – kimi sözləri xatırlayıb özümə işgəncə verirdim. Kaş yenə zəng edə, yenə bezdirə idi. Saatlarla, günlərlə danışmağa hazır idim. Kaş belə olmayaydı, kaş kaş deməyəydim. Lənət olsun. Hər şeyə lənət olsun, belə həyat olmaz, belə mərhəmətsizlik olmaz, – deyə Tanrıya gileylənirdim. Bir an – bəlkə bu

bir oyundu, quramadı, – deyə düşündüm. Məktubu bitirib acı fikirlərlə qıvrıldığımda anam otağa qayıtdı. Udqunub xırıltılı səslə:

– Ana, Səidə, Səidə... ona nə olub? Hardadı? – deyə soruşdum.

Anam ah çəkib:

– Bala, Səidə sənin dostundu demişdi mənə, mən də Nərmin tanıyar deyə ondan soruşdum, sən içəridə yatmışdın onda, biz xəstəxananın həyətində dolaşırdıq. Səidə onun xalası qızı imiş demə. Soruşmağıma peşman oldum doğrusu...

Anamın sözünü kəsib:

– Ana, sən Allah day bəsdi, qısası nə olub onu de, ölüb? Özünü öldürüb? – soruşduğumda ana-bala gözlərimiz yaşla doldu. Anam yaylığının ucu ilə gözlərini silib, burnunu çəkə-çəkə:

– Özünü asıb, bala, – deyib susdu.

Təkcə anam yox, qapı, pəncərə, divarlar, ağaclar, külək, təbiət, bütün dünya, bütün aləm susdu. Mən də susurdum. Yalnız göz yaşlarım danışırdı. Burnumun suyu göz yaşlarıma qarışmışdı. Anam salfet ilə üz-gözümü sildiyində gözü yataqdakı məktuba sataşdı. Tez onu götürüb bükərək otaqdan çıxdı. Mən onun arxasınca:

– Ana, neynirsən onu? – deyə səslədim. Bir az sonra anam otağa qayıdıb:

– Yandırdım bala, o qız özün asıb, bəlaya salıb, sən də bəlaya düşmə deyə yandırdım.

– Mən niyə bəlaya düşüm ki?

– Polislər o qızın qaldığı evi axtarıblarmış, bəlkə kimsə öldürüb deyə, heç nə tapa bilməyiblər, mən də qorxumdan o qızın mənə verdiyi məktubdan heç kimə danışmırdım. Ona söz vermişdim deyə sənə verdim. Yoxsa çoxdan yandırmışdım.

– O məktub ondan mənə qalan son xatirə idi.

– Neynək bala, bir şey olmaz, canın salamat olsun.

***

Günlər ötdükcə yavaş-yavaş sağalırdım. Ayaqlarımı gipsdən çıxarıb, yaxında yeriyə biləcəyimi demişdilər. Anam Mingəçevirə qayıtmış, yanıma qardaşım gəlmişdi. Qardaşımla birlikdə özümü rahat hiss edirdim. O mənə siqaret alıb gətirirdi. Arada özü də öskürə-öskürə birtəhər çəkirdi.

Ad günümə xəstəxana otağında girmişdim. Həmin gün otağım adamla dolu idi. İş yoldaşım, müdirim, dostum, sevgilim, qardaşım, dayıoğlum və gözəl bir tibb bacısı. Hər kəs hədiyyə olaraq başımın altına pul qoymuşdu. Təkcə Nərmin başqa hədiyyə ilə gəlmişdi.

O üzərinə "ad günün mübarək" və "səni sevirəm" cümlələri yazılmış karamelli tort almışdı. Tort üzərində alışan bircə şamı üfürüb söndürdüyümə görə otaqdakılar məni alqışlayırdı, sanki böyük nailiyyət əldə etmişdim. Bir yaş da qocalıb iyirmi altıya adlamışdım. Ömür necə də tükənir, bitir və biz hər il sevinərək onu qeyd edirik deyə düşünürdüm. Kimisi cavan, kimisi qoca – hər kəsi soyuq məzar gözləyir. Qırx gün sonra hamı səni unudur, yada düşmürsən. İldə bir dəfə kimsə məzarın üstə gələr, o da unudulmasan bəlkə. Arxanca ən çox sevənlərin ağlar, onlar da varsa. Gözəl həyatın standart sonu. Eh cəhənnəmə ki, mən artıq sağalırdım. Asta-asta addımlayırdım, körpə uşaqlar, yenicə ayağa qalxan uşaqlar kimi. Yeriməyi unutmuşdum sanki. Olduqca çətinlik çəkirdim ilk günlər.

Bir neçə gün sonra evə yolladılar. Qardaşım maşın tutub məni Mingəçevirə apardı. Evdə böyük sevinclə qarşılanmışdım. Nədə olsa ölüb, ölümdən qayıtmış bir adamın qarşılanması. Qarşılanmanı gördükdə yenidən qəzaya düşməyi dilədim. Çünki bu zaman hər kəs sevgisini göstərir. Ona görə insan öləndə arxasınca xoş sözlər deyirlər, adətən. Qalan zaman ərzində sevgisini gizlədir insanlar. Kimisi utanır deməyə, kimisi qüruruna sığışdırmır, kimisinin də bir ayrı bəhanəsi var. Bu düşüncəsi, bu da insan.

Səidəyə olan sevgim də onun ölümündən sonra özünü göstərmişdi. Onadək özüm də bundan xəbərsiz idim, hamı kimi. Ölümlə bütün insanların bir-birinə nifrət hiss etdiyin sansa da, sevdiyini anlamışdım.

Ayağa qalxdığımda Səidəyə olan sevgimlə rayonlarına, onun dəfn olunduğu qəbiristanlığa getdim. Maşınımızla qardaşım məni ora aparmışdı. Özü qəbiristanlığın girişində dayanmış, mənsə Səidənin qəbrini axtarmağa getmişdim. Çəliklə gəzmək asan olmasa da onun məzarını tapmaq elə də çətin olmadı. O atasının məzarı yanında dəfn olunmuşdu. Başdaşına şəkli vurulmamışdı. Sadəcə adı, soyadı, doğulduğu və vəfat etdiyi tarix həkk olunmuşdu. Qəbrin gördüyüm anda gözlərim yaşla doldu. Məzarı başında boynu bükük eləcə durmuşdum. Göz yaşlarım süzülüb qəbrinə damcılanırdı. Anlamaq çətin idi – bir vaxt susmayan, danışıb baş-qulaq bezdirən insan, indi torpağa dönüb daş tək səssiz olmuşdu. Necə ola bilir bu? Necə olur axı? Niyə belə oldu? – mərhəmətli Tanrıya gileyləndim, bəndənin iradəsini, seçimini düşünmədən.

Dəli kimi məzarla danışırdım: “Salam, Səidə, mən gəlmişəm. Bilmirəm, burda olduğumu bilirsən, məni görürsən, yoxsa yox? Sənin üçün gəlmişəm bura. Səni görməyə. Darıxmışam, Səidə, çox darıxmışam. Məni

eşidirsənmi? Mən sənin üçün çox darıxmışam. Bəlkə də yalan dediyimi düşünürsən, ancaq düz deyirəm, inan ki, düz deyirəm, darıxmışam, nəyə inanırsan, ya da inanırdın ona and olsun ki, çox darıxmışam. Sən yaşayan vaxtlar bunu bilmirdim, hiss etmirdim, indi anlayıram, indi başa düşürəm, MƏN DƏ SƏNİ SEVİRƏM. Eşidirsənmi məni? Mən də səni sevirəm, eşidirsən, eşidirsən? Əgər məni eşidirsənsə, yalvarıram sənə, bir işarə ver, eşidirsən? Mənə bir işarə ver."

Boşuna tükətdiyim nəfəs idi. Nə bir işarə vardı, nə də bir səs. Az öncəki kimi bir neçə bəyaz topa buludlu mavi səmadan günəş parıldayır, asta əsən külək şehli yaşıl çəmənləri sağa-sola silkələməkdə, şam ağaclarının budaqlarını oynatmaqda davam edirdi. Əfsanəvi bir şeylər olacaqmış kimi gözlərimi diqqətlə onun məzarına zilləmişdim. O səssizcə sükuta baxırdı. Onun səsini boğan əbədi sükut qulaqlarımı kar edirdi, dinlədikcə daha da səssizləşir, daha da dərinləşirdi. Əlimi ürəyimin üstə qoyub: "Bax, Səidə, sən düz burdasan, ürəyimdə. Hə, sən düz demişdin, ürəyimə girməyi bacardın. Sonsuzadək solumda qalacaqsan. Heç kim səni oradan çıxara bilməyəcək, heç vaxt səni unutmayacam. Bilirsənmi, Səidə, nənəm öləndə həyatı dərk etməyən anlamaz bir uşaq idim. Nənəm də sənin kimi qış aylarında, dizdən qar olan vaxtlarda

tərk etmişdi məni. O gün hamı ağlayırdı, atam, anam, qardaşım, bibilərim, bütün qohumlar. Bir tək mən ağlamırdım. Hər kəs ağlamadığıma görə təəccüb edirdi, çünki nənəmi çox sevdiyimi bilirdilər. Nənəmin öldüyü gündən iki həftə keçmiş, hər yerdə qar ərimişdi, bu vaxtı olanları anlayıb otağın küncündə qısılıb ağlayırdım. Qardaşım ağladığımı görüb: “Niyə ağlayırsan?” – deyə soruşmuşdu məndən. Mən ona: “Elə bilirdim qar əriyəndə nənəm qayıdacaq” – deyə cavab vermişdim. İndi mən həmin anlamaz uşaq deyiləm, daha həyatı dərk edirəm, bilirəm ki, qar ərisə də, bahar gəlsə də, güllər çiçək açsa da sən qayıtmayacaqsan. Amma bir gün mən sənə qovuşacağam, bəlkə bu gün, bəlkə sabah, bəlkə də gec, bilmirəm, amma qovuşacağam. Daha getməliyəm, yenə gələcəyəm, hələlik” – dediyimdə ardınca çaşaraq – “özünə yaxşı bax” – sözlərini əlavə etdim. Sözlərimə düzəliş verməyə çalışaraq – “məni bağışla, nə danışdığımı bilmirəm, elə bil ağlımı itirmişəm” – deyərək məzarla sağollaşıb ayağa qalxdım. Çəliyimi götürüb səndələyə-səndələyə qardaşımın yanına getdim. Maşına əyləşib danışıbdinmədən evə qayıtdıq.

***

Olanların üstündən bir xeyli müddət keçmişdi. Evimizdə bayram ab-havası hökm sürürdü. Anam mənim üçün Nərminə elçi getməyə hazırlaşırdı. Artıq xeyir iş üçün onların qapısına gələcəyimizi xəbər etmişdik. Geriyə yalnız elçi getmək qalırdı. Özümü çox xoşbəxt hiss edirdim. Axır ki, istədiyimə nail olacaqdım, Nərminlə evlənəcəkdim. Təkcə qorxum Nərminin valideynlərinin bu işə razı olmayacağı idi.

Anam:

– Bakıda evin də var, işin də, niyə verməsinlər? – deyərək mənə təskinlik verirdi. Özü də elə ürək rahatlığı ilə deyirdi ki, sanardın bəlkə nəsə bildiyi var. Mən də biçarə aşiq anamın sözü ilə ürəklənərdim.

İki gün sonra atam, anam, qardaşımın yoldaşı və qonşumuz, çoxbilmiş Bəsirə xala maşına əyləşib Nərmingilə yola düşdülər. O gün heç olmadığım qədər həyəcanlı idim, Nərminin ata-anasının razı olmayacağı qorxusu bütün fikrimi əlimdən almışdı. Bizimkilər ünvana çatanadək Nərmin tez-tez zəng edib, – harda qaldılar? Gəlirlər? – deyə soruşduğunda – harda olsalar çatarlar, – deyə cavab verirdim. Nərmin yenə zəng edib:

– Gəldilər, evdə oturub söhbət edirlər, mən çay hazırlayıram, bizimkilər özlərin naza qoyub, – dedi.

– Necə? Bəs dedin anamla danışmışam, o da atamla danışıb, verəcəklər. İndi nə oldu bəs?

– Hə danışmışam, mənə elə demişdilər, indi özlərin naza qoyublar.

– Birdən verməsələr, onda necə?

– Narahat olma, "qız evi, naz evi" yalandan deməyiblər ki, day telefonu söndürürəm, çay aparmalıyam.

– Yaxşı, xəbər gözləyirəm səndən.

– Yaxşı, narahat olma, hələlik, öpdüm, – deyib telefonu söndürdü.

Ürəyim partlayırdı. Binanın həyətində bir əlimdə siqaret, bir əlimdə telefon var-gəl edərək qayınatam və qayınanam olacaq insanları ürəyimdə söyürdüm. Bu vaxt telefonuma zəng gəldi, həyəcanla telefona baxdım. Zəng edən Rauf idi. Telefonu açıb:

– Alo, salam Rauf, necəsən? Nə var, nə yox? – dedim.

– Salam, qardaş, yaxşıyam, sağ ol, sən necəsən?

– Mən də yaxşıyam, çox sağ ol, işlər necə gedir?

– Yavaş-yavaş, şükür Allaha, özünü necə hiss edirsən? Yenə çəliklə gəzirsən?

– Yaxşı, şükür, çəliyi bu gün atdım, əvvəlki kimiyəm, qəzaya düşməmişdən əvvəlki kimi.

– Hə, əladı ki, həmişə belə. Elçi işi nə oldu? Nə xəbər? Nişanlandın?

– Elə mən də xəbər gözləyirəm, bizimkilər elçiliyə gedib, görək nə xəbərlə gələcəklər.

– Nə xəbərlə gələcəklər ki, verəcəklər, yaraşıqlı oğlansan, sənə verməyib kimə verəcəklər ki?

– Yaraşığa baxan var? Day məni bağışla, zəng edim görüm nə oldu, sonra danışarıq, özünə yaxşı bax.

– Oldu, qardaşım, hələlik, özünə yaxşı bax, – deyib telefonu söndürdü.

Saata baxdım, iyirmi üç dəqiqə keçmişdi. Amma nə anamdan, nə də Nərmindən zəng gəlirdi. Mən “yəqin verməyiblər, versə idilər zəng edib xəbər edər, muştuluq istəyərdilər” – deyə düşünürdüm. Siqaret çəkərək telefonu oynadır, zəng etməyə qorxurdum. “Birdən pis xəbər aldım, onda necə olacaq?” – fikri ilə qurcalandığımda Nərmindən zəng gəldi. Telefonu açar-açmaz:

– Hə, nə oldu? – deyə soruşdum.

O sevinclə söylədi:

– Verdilər.

Ürəyim sakitləşdi və gözlərim gülməyə başladı, onun sözünü təkrarladım:

– Verdilər! Şükür Allaha, day ürəyim partlamışdı.

– Çox sevinirəm, Rasim, yenə zəng edəcəyəm sənə, hələlik, – deyib telefonu söndürdüyündə anam zəng etdi. Telefonu açdığım an anam:

– Allah xoşbəxt etsin bala, yarıyanlardan olasan, aldıq qızı, – dedi.

Mən utanırmış kimi:

– Çox sağ ol, ana, – dedim. Ardınca bir xeyli də xeyir-dua verdi və mən elə – çox sağ ol, ana – dedim, çünki başqa nə deyəcəyimi bilmirdim.

Bir neçə gün sonra nişan etdik. Qonşu rayonda, onların evində qeyd olunan kiçik bir nişan oldu bizim nişanımız. Səssiz oldu, nə bir aşıq gəlmişdi, nə də hansısa musiqi aparatından səda vardı. Nərminin anası bacısı qızı Səidənin ölümünə görə belə olmasını istəmişdi. Belə olması mənim də ürəyimcə olmuşdu.

***

Nişanlandıqdan on üç gün sonra Bakıya qayıtdım, daha sağalmışdım, heç qəzaya düşməmiş kimi sağalmışdım. İçərişəhər ətrafında yerləşən iş yerimə gedib əvvəlki işimə başladım. "Səssizlik" adlı böyük pubda barmen vəzifəsi məni gözləyirdi. Müdir işə qayıtmağıma çox sevinmişdi. Onun ən yaxşı işçilərindən biri idim. Çünki rus, ingilis dillərində danışmaq, müştərilərlə yaxşı ünsiyyət qurmaq bacarığım var idi. Həm də içkiləri qarışdırıb ortaya yeni təamlar çıxarmağı bacarırdım. Bunu necə etdiyimi bilmirdim, sadəcə qarışdırır və digər barmenlər kimi çalxalayır-

dım, amma bu məndə yaxşı alınırdı. Daimi müştərilər də məni çox sevirdi. Onlar da geri dönməyimə çox sevinmişdilər. Hamıdan çox özüm sevinmişdim buna. Axşamçağı saat dörddə işə gedir, gecə saat ikidə işdən ayrılırdım. Maaşım səkkiz yüz manat idi, dövrə görə pis maaş deyildi. Hələ müştərilərin verdiyi karlı bəxşişləri maaşa aid etmirəm. Elə imkanlı müştəri var idi ki, enerji içkisi və viski qarışığına görə əlli manat, bəzən yüz manat bəxşiş verirdi. Ayda ən azı dörd yüz-dörd yüz əlli manat bəxşişdən qazanırdım. Gündəlik xərclərimi elə bəxşişlərdən əldə etdiyim məvaciblərlə çıxarırdım.

Daha həmin zamanlar nişanlı bir oğlan idim, xərclərimə, pullarıma fikir verməli idim. Əvvəlki Rasim olsa idim, önümdə əyləşən xanımlara ya tekilla, ya da viski süzərdim və pulunu almazdım. Daha simic, xəsis olmalı idim. Yubkası qısa, ayaqları çöldə olan qadınlara qarşı hislərimi cilovlamalı, acgözlük etməməli idim.

Nişanlandıqdan sonra Nərmin hər gün azı yeddi dəfə zəng edib nə etdiyimi, puba qızların gəlib-gəlmədiyini soruşardı. Mən də həmişə "əşi, nə qız? Bura ancaq bığı burma kişilər gəlir, qızlar da ancaq oğlanlarla gəlir, o da ayda bir dəfə ola-olmaya" – deyirdim. Məndən daha xoşbəxtinin olmadığını sanır-

dım. Sevdiyim qızla nişanlanmışdım, evim vardı, işləyirdim, özü də yaxşı maaşla. Müdirim xətrimi istəyirdi, iş yoldaşlarım məndən razı idi. Elnur hər dəqiqə gəlib kef-əhvalımı soruşub gedərək başımı xarab edirdi. Gecə saat ikidə işdən çıxıb evə qayıdardım. Evə çatan kimi yatağa girib yatır, səhər saat on bir-on ikidə oyanırdım. Zəng edib uzun-uzadı mənasız söhbətlərlə Nərminlə danışır, bir az evdə vaxt keçirib yenə işə gedirdim. Arada Rauf gələr, onunla oturardım. Bəzən marixuana gətirər, birlikdə çəkib hallanardıq. Sonra hallı-hallı işə gedər, müştərilərlə məzələnərdim. Bazar günləri Nərmini götürüb şəhərə çıxardım. Çoxlarının inanmadığı Tanrıdan daha nə istəyəcəyimi bilmirdim. Tanrı üçün böyük arzuları olmayan, sıradan bəndələrdən biri idim. İmkanlı müştərilər kimi həftədə yeni maşınla, yeni bir qızla gəzməyi arzulamırdım. Sadəcə bir qadınla, Nərminlə yaşamaq kifayət edirdi. İşləyib maaşımı toplayaraq maşın almaq arzum vardı sadəcə. Yaşadığım həyat, ürəyimdəki bir arzu mənə yetirdi.

***

Bazar günlərindən biri idi. Nərmini götürüb park-bulvara sinemaya getmişdim. Romantik olsun deyə qorxu filmi seçmişdim. İstəyirdim ki, filmdə qorxulu

epizod gələndə o qorxaraq məni qucaqlasın və mən qorxmaz kişi kimi ona “qorxma, filmdi, yalandı” – deyim.

Bilet almaq üçün növbəyə durduq. Orta sıralardan iki yer seçib popkorn və su alaraq film izləyəcəyimiz zaldakı filmin bitməsini gözlədik. Bir neçə dəqiqə sonra tamaşaçılar zalı tərk etdi və biz gedib öz sıramızda əyləşərək izləyəcəyimiz filmin başlanmasını gözlədik. Bu vaxtı iki qız əyləşdiyimiz sıraya yaxınlaşıb, əllərindəki biletlərin nömrələrinə baxaraq keçib sağ tərəfimdə oturdular. Yanımda qızların oturduğunu görən Nərmin:

– Gəl yerimizi dəyişək, – dedi.

Onun niyə belə söylədiyini bildiyim üçün qəsdən:

– Niyə? Yerim çox rahatdı, – dediyimdə sanki beyni oynadı yerindən, gözlərini bərəldib səsini boğaraq:

– Sənə deyirəm, dur, yerimizi dəyişək, – deyə üzərimə çımxırdı. Səs-küy salmasından qorxaraq:

– Yaxşı, – deyib yerimi ona verdim. Bir az sonra sol tərəfimdə üç qız əyləşdi. Nərminin ürəyinin partladığını hiss edə bilirdim. O gah filmə, gah da solumda əyləşən xanımlara baxırdı. Solumda əyləşən qızlar sanki çimərliyə gəlmişdilər, əsas yeri örtən qara qısa yubkada və döşlərin arasını açıqda qoyan dar köynəklə. Nərminin bunlara ürəyinin partlaması

təbii idi. Oturacağımın sol yanındakı yuvarlaq boşluğa içdiyim suyu qoymuşdum. Peşman olub dönüb götürmək üçün suya tərəf baxdım. Nərmin qolumdan çimdik götürüb:

– Hara baxırsan? – deyə qəzəbli tərzdə soruşdu. Sudan bir qurtum içib, gülə-gülə:

– Suyu götürürdüm, – dedim.

O:

– Yalan deyirsən, – deyib qaşlarını çataraq əsəblə filmi izləməyə davam etdi. O beş-altı dəqiqə əsəblə filmi izlədikdən sonra:

– Kino maraqsızdı, ürəyim sıxılır, dur gedək, – dedi.

Mən sadəcə:

– Yaxşı, – deyərək ayağa qalxdım. Para qalmış popkorn qutusunu və suyu götürərək sinema zalını tərk etdik. Dənizkənarı bulvarda gəzişdiyimizdə Nərmin deyinməklə məşğul idi. O mənə sol tərəfimdə oturan qızın ayaqlarına baxdığımı deyirdi. O qızın ayaqlarına baxsam da and-aman edərək belə bir şey olmadığını deyirdim. Nərminsə israrla baxdığımın üstündə dayanmışdı. Mən axır artistlik edib özümü əsəbiləşmiş kimi göstərərək:

– Sən nə danışırsan? Nəyimə lazımdı o qız? Neynirəm onu? Onun ayaqlarına baxmaq mənə nə verə-

cək? Dəli olmusan sən? Ya məni əsəbiləşdirmək istəyirsən? Allah haqqı sən son zaman nə danışdığını bilmirsən, iki saatdı deyirəm ki, mən heç yerə baxmamışam, söz batmır sənə? Gərək əsəbiləşəm, kobud-kobud danışam, onda inanasan mənə? Nə deyim ki, inanasan? Hə Nərmin, nə deyim inanasan? Tüpürüm o qıza, o qurbağaayağa görə mənlə mübahisə edirsən, – deyə deyindim.

O, əsəblə deyindiyimi görüb susmaq mövqeyinə keçdi. Mənsə deyinməkdə davam etdim. O sıra "oğru elə bağırdı, doğrunun bağrı yarıldı" misalı ağlımdan keçərkən az qalmışdı ki, gülərək özümü ələ verəm. Nərmin qəzəblə deyindiyim üçün mənə inanıb, gözlərinə inanmaqdan imtina etdi. Halbuki, solumda oturan qızın nəinki ayaqlarına, həm də iri sinəsinə baxmışdım. Necə o tüklü yeri lezvalanmış, bəmbəyaz zərif ayaqlara, köynəyin yaxasından pırtlayaraq çıxan tərli döşlərə baxmaya idim ki? Onlara baxmasa idim, bütün kişilik ehtiraslarına xəyanət etmiş olardım. Onlara baxmamaq qüsursuz vücud yaratmış Tanrıya belə acıq gedərdi. Şeytan özünü aciz sanıb yaratdığı şəraitdən təəssüflənərək intihar edə bilərdi. Hər kəsə, hər şeyə hörmət edərək o döşlərə, ayaqlara baxmışdım. Gəl ki, Nərmin mənə qarşı, yanıq gözlərimə qarşı üsyana çıxmışdı. Yaxşı ki, şivən qoparıb özümü

doğru göstərməyə çalışmışdım. Nərmin tumanımı başıma atdığımı görüb söhbəti dəyişərək gülmüşdü o zaman. Onun söhbəti dəyişməyi elə mənim də ürəyimdən olmuşdu. Qalan popkornu yemiş, sahildə daşların üzərində oturub dənizi seyr edərək söhbət etmişdik. Sonra Əcəmiyə, mənim evimə, Nərminlə birlikdə yaşamağı arzu etdiyim evə gəlmişdik. Öpüşüb, sevişib axşam olandasa tələbə yoldaşları ilə birgə qaldığı kirayə evə yola salmışdım.

***

İyun ayının əvvəlləri, baharın son günləri idi. Havalar getdikcə istiləşirdi, yay mövsümünün növbədə səbirsizliklə gözlədiyi açıqca bəlli idi. Yetmiş üç gün öncə oyanmış təbiət çəmənlərlə, çiçəklərlə bəzənib gözəlləşərək insanın ruhunu canlandırırdı. Təbiətin ətri ilə sərxoşlaşmış quşlar yeni çiçək açmış gül kolları, yaşıl ağac budaqları arasında gəzərək nəğmə oxuyur, mavi səmada qanad çalaraq gözdən itirdilər. İki bəyaz kəpənək qoşalaşıb hər şeydən xəbərsiz son saatlarını da güllər içində sərf edir, bal arıları yorulmaq bilmədən çiçəkdən çiçəyə uçaraq şirə çəkir, zəhmətkeş qarışqalar qış üçün yem toplayırdı. Nərmin də bu vaxtı dörd divar arasında imtahanlara hazırlaşırdı. Altı fənn üzrə verəcəyi imtahanların aralıq müddəti dörd-

beş gün idi. O dərslərini yaxşı oxuyurdu, üç kurs boyu hansısa fəndən kəsildiyini görməmişdim. İmtahanlar başladığından başı kitablarla qarışsa da boş vaxtları da olurdu. İmtahana iki gün qalmış suallara hazırlaşar, ondan əvvəlki vaxtları boş-bikar keçirər, tələbə yoldaşları ilə birgə parka dolaşmağa, piknikə, filmə baxmağa gedərdilər.

İyun ayında mənim iş vaxtlarım dəyişmişdi. O aydan saat axşam onda işə başlayar, səhər saat altıda işdən çıxardım. Müdirim Teymur müəllim əsas müştərilərimizin, pulluların gecə saat ikidən sonra gəldiyini və mənim işlərimi bəyəndiklərini deyərək mənim iş vaxtımı dəyişmişdi. Maaşımı da yüz manat artırmışdı. Yüz manata görə qəti olaraq səs çıxarmamışdım. Daha gecə saat onda işə gedir, səhər saat altıda işdən çıxır, günorta saat üçə, dördədək yatırdım. Günortalar oyanıb telefona baxdığımda Nərminin yeddi-səkkiz dəfə zəng etdiyini görərdim. İş vaxtının dəyişməsi ilə özümə, ətrafımdakılara vaxt ayıra bilmirdim. Baxmayaraq ki, yuxudan sonra altı saat boş vaxtım olurdu, onun da necə gəlib keçdiyini anlamırdım. Yay ərzində iş növbəmə görə Nərminlə saysız mübahisələrim düşürdü. O mənə – daha mənimlə maraqlanmırsan, əvvəlki kimi sevmirsən məni, həyatında başqa biri var, – kimi sözlər deyirdi. Ona nə

qədər başa salmağa çalışsam da o məni anlamaq istəmirdi.

İyunun axırı sonuncu imtahanını verib iyulun əvvəli rayona getmişdi və mən həsrət çəkməyə başlamışdım. Beləliklə, bazar günü görüşlərimiz yox olmuşdu. İki dayanacağım qalmışdı təkcə – iş və ev. Daha bazar günləri Nərminlə yox, Raufla görüşürdüm. Rauf hər bazar görüşdüyümüzdə – nişanlanandan bəri adam zad saymırsan, – deyərdi. Mənsə həmişə – indi də görüşürük, ay mənim qardaşım, nə dəyişib anlamıram, – deyə cavab verərdim. O isə anlamamaqda davam edərdi. Sanki o mənim nişanlım, Nərminsə dostum idi. İki qayanın arasında qalmış kimi hiss edirdim özümü.

Nərminlə yay ərzində bütün əlaqələrimiz telefon üzərindən olmuşdu ancaq. O mənə "darıxıram" – deyər, mən ona "darıxıram" – deyər, "sevirəmlə" başlayıb, "sevirəmlə" sonlanan söhbətlər qurardıq. Avqust ayının axırlarında Nərmin:

– Evdə oturmaqdan ürəyim partlayır, bəlkə gəzintiyə çıxaq? Harasa gedək, gəzək bir az, bezmişəm day evdə oturmaqdan, – demişdi.

"Düz deyir də, yazıq bütün günü evdə oturur ancaq" – düşüncəsi ilə gəzmək üçün maraqlı yerlər axtarmağa başlamışdım. İnternetdə istirahət zonalarına

baxdığımda qəfil Masallıdan əsgər yoldaşımın dediyi "Yaqubov, gəl bizim yerləri gəz bir, gör nə gözəl, səfalı torpaqlarımız var, səni İstisuya, Yanar dağa aparım, çıx Talış dağlarına təmiz hava al" – sözləri yadıma düşdü. Telefonu götürüb əsgər yoldaşımı yığdım. İlk zəngimə cavab vermədi. Səbirsizliklə ikinci dəfə yığdım. Nömrəmi dəyişdiyimə görə kim olduğumu bilmədiyindən telefonu açıb soyuq tərzdə:

– Bəli, kimdi danışan? – dedi.

Bu fürsəti əldən verməyərək səsimin bor yerinə salıb:

– Alo, polis bölməsindəndi, danışan polis general-mayoru Rüfət Mirzəyevdi, – dedim.

O bir az susduqdan sonra cavab verdi:

– Ooo... Yaqubov, nə yaman özünü sıxa-sıxa danışırsan, elə bildin tanımayacam? Necəsən, nə var nə yox? Səsini eşidək.

Kef-əhval tutub ordan-burdan danışdıqdan sonra istirahət etmək üçün yerləri, qalmaq üçün otelləri, otellərin günlük haqqını, təxminən dörd günlük nə qədər xərcimin çıxacağını soruşdum. O mənə özünün də bilmədiyini, sabah öyrənib məlumat verəcəyini söylədi. Saat onda işə yollandım. Yenə eyni barın arxası, eyni içkilər və bir sürü alkoqolla olan anlaşılmaz söhbətlər öz yerində idi. Saat gecə ikini keçdikdə puba yanların-

da bir, ya da iki qız gəzdirən imkanlı şəxslər gələrdi. O gecə də daimi müştərilərdən biri iki qızla bərabər puba girib, həmişə oturduğu, pəncərə qırağı masada əyləşdi. Ofisiantı səsləyib:

– Üç dənə əla qarışıq meyvə qəlyan düzəlt, – cibindən çıxardığı kiçik sellofan bükülü otu uzadıb, – bunu da mənimkinin tütününə qarışdırmağı yaddan çıxarma, – dedi. Onun içəri girdiyindən bəri hallı olduğu aydın idi. Kefi yaman kök idi. Yağlı müştəri qızlara nəsə deyib üzünü mənə çevirərək, – Rasim, bura üç dənə viski yolla, həmişəkindən, öpürəm, – deyə qışqırdı.

Mən başımla təsdiq edərək:

– Baş üstə, – deyib viskiləri hazırlamağa başladım. Jack Danielsla redbulu qarışdırıb onların masalarına qoyduğumda o qızlara özünü göstərərək cibindən bir xeyli pul çıxarıb içindən şax əllilik götürdü. Əlliliyi cibimə soxuşduraraq:

– Bunu qoy cibinə, get kef elə, – dedi.

Hər zamankı artistliyimi edərək:

– Ehtiyac yox idi, təşəkkür edirəm, – deyib masadan ayrıldım.

Birinci dəfə idi ki, gətirdiyim ilk içkiyə görə bəxşiş alırdım, adətən onlar sərxoş olduqdan sonra bəxşiş verərdi. Ağ rəng tufli, tuflisi rəng köynək, köynəyi

rəng şalvar geyinmiş və şalvarı rəng kəmər bağlayaraq tamamən ağa bürünmüş, sıx bozumtul saçlarını arxaya daramış, qırmızısifət, azca qarınlı, hündürboy, ortayaşlı bu dayının kefinin kök olduğuna söz ola bilməzdi. Qızları sağ-solunda əyləşdirib əllərini boyunlarına keçirərək laqqırtı vuran adamın lap xainliyini çəkirdim. Adam həftədə bir maşınla, hər dəfə də yeni qızlarla iki gündən bir gəlib düzəltdiyim içkilərdən içib çıxıb gedirdi. Sanki pulu çaydan torla yığırdı.

Adamın sifariş etdiyi qəlyan on dəqiqəyə masasına gəldi. Qəlyanı düzəldən ofisiantın gözləri qıpqırmızı olmuşdu. Yazıq onu yandırana kimi tüstüyə düşmüş, hallanmışdı yəqin. Yağlı müştəri hazırlanmış qəlyandan ciyərlərinə somurub tüstünü öskürərək çölə buraxdı. Qəlyanı düzəldən ofisiantı yanına çağırıb qəfil bir şillə vurdu. Bu an pubda olan hər kəs diksinərək səsə tərəf dönüb baxdı. Orta yaşlı qudurmuş sakitləşmək bilməyib – bu nə zibildi gətirmisən, – deyə çığıraraq ayağıyla qəlyanı aşırdı. Qəlyan aşaraq kafel döşəməyə çırpıldığında şüşəsi sınaraq çilik-çilik oldu və içindəki su ətrafa çiləndi. Başına keçirilmiş qarpız parçalanaraq dörd bir yana düşdü. Kömürlər zala sərilmiş kiçik xalının üzərinə düşərək tüstüləməyə başladı. Dayı susmaq bilmirdi, dəliyə

dönmüşdü sanki. Araya müdir, mən və digər ofisiantlar girmişdi. Şillə yeyən ofisiantsa qırağa çəkilib başını aşağı salaraq yanlış əməl tutmuş uşaq kimi dayanmışdı. Müdir yağlı müştərini əldən çıxarmamaq üçün başına dolanır, üzrxahlıq edirdi. Onunla gələn qızlarsa ağızlarını açıb sürpriz tamaşanı izləyirdilər. Qəzəbli müştəri sakitləşmək yerinə müdirin üzrxahlıq etməsi ilə daha da lovğalanırdı. O əyilib masanın üzərindəki viski rumkasını götürərək ofisianta tərəf tulladı. Ofisiant başını azca sola çəkməsə idi zərblə atılan rumka üzünə isabət edərək göz-qaşını partlada bilərdi. Xoşbəxtlikdən rumka yan keçərək divara çırpılıb çilikləndi. Bu hərəkətdən sonra hər kəs laldinməz dayanıb ona baxırdı. O bir azda deyinib, – bir daha bura gəlsəm kişi deyiləm, – deyərək cibindən çıxardığı əlli manatı masanın üstünə tullayaraq, qızları da götürüb çıxıb getdi. Ətrafı təmizləmək şillə yemiş fağır ofisiantı gözləyirdi. Həmin gecə ən azından mənə bəxşiş verildikdən sonra mübahisə düşdüyü üçün sevinirdim. Hadisənin səbəbkarı olan ofisiantı o gecədən sonra bir daha görə bilmədim. Onu işdən ya müdir çıxarmışdı, ya da özü xəcalətindən çıxmışdı.

Sabahı gün əsgər yoldaşım İsmayıl zəng edib Masallıdakı hotellərin siyahısını, qiymətlərini, gəzməli yerlərin adlarını, bir həftəlik təqribən nə qədər xərcim

çıxacağını söylədi. Gecə işə getdiyimdə dünənki səs-küyə görə müdirdən icazə istəməyə çəkinib bir həftə gözləməyi məqsədəuyğun bildim. Gəzinti barəsində Nərminə bir söz deməyib ona sürpriz etmək istədim. Həm də işdən icazə ala bilməmək də vardı. Hər şeyi dəqiqləşdirdikdən sonra söyləməyi düşünürdüm. Həmin gecə Elnurun iş növbəsinin dəyişildiyini, mənimlə eyni vaxta salındığını gördüm. Elnur ofisiantlıq edir və qəlyan düzəltməklə məşğul olurdu. Yeni növbəsindəki gecə o mənə – uşaqlar deyir dünən gecə dava düşüb burda, müştəri ofisiantı vurub hə? Düzdü? – soruşdu. Dünən gecə baş vermiş hadisəni, nə səbəbə olmasını təfərrüatlı Elnura danışdım. Elnur hər şeyi diqqətlə dinləyib – məni vursa idi, Allaha and olsun qəlyanı başına geydirərdim, – demişdi. Mən də – elə mən də, – demiş və puba gələn müştəriləri xoş üzlə qarşılayıb yola salmağa davam etmişdim.

Altı gün keçdikdən sonra müdirdən bir həftəlik icazə istədim, müdir iki həftəmin pulundan imtina edərsəm icazə verəcəyini söylədi. Onunla bu şərtlə razılaşıb Nərminə zəng edərək səyahətə çıxacağımızı, özü ilə kiçik bir çanta götürə biləcəyini dedim. Nərmin bizim bölgənin mentalitetində nişanlıların birlikdə olmasının yaxşı qarşılanmadığını və bu səbəbdən ailəsinin icazə verməyəcəyini bildiyi üçün

ata-anasına dərsləri ilə əlaqədar universitetə getməli olduğunu deyərək Bakıya yola düşmüşdü...

Onu günorta saatlarında avtovağzalda qarşılayıb evə apardım. Axşam kiçik səyahətimizdə lazım olacaq geyimləri çamadana yığıb giriş qapısının önünə qoyduq. Öpüşüb-sevişərək gecələyib səhəri taksi ilə Masallıya yola düşdük. O taksidə sakitcə Pərinuş Səniinin "Mənim payım" romanını oxuyurdu, mənsə telefona qulaqcıqları keçirib mahnıya qulaq asaraq yol boyu quraq düzənliklərə, boz dağlara, kiçik təpələrə baxırdım. O an birlikdə olmaq elə xoş gəlirdi ki, zamanın dayanmasını, keçməməyini istəyirdim. Evlənəcəyim günü səbirsizliklə gözləyir, xoşbəxt həyatımızın olacağını düşünürdüm. Hər şeyin düşündüyüm kimi olacağını, kiçik arzularımın yerinə yetəcəyini sanırdım, böyük həyat imtahanının qarşıda məni gözlədiyindən xəbərsiz olmayacaq xəyallar qurur-bəzəyir, yeni xəyallar dalınca qaçırdım.

***

Günorta saat üçə işləmiş Masallıya çatdıq. Əsgər yoldaşım İsmayıl taksidən endiyimizdə bizi qarşılayıb ailəsi ilə birlikdə yaşadığı evlərinə qonaq apardı. Onların boz şiferli damı olan qırmızı kərpicdən hörülmüş, aynabəndli, böyük ikimərtəbə evlərinin qarşısın-

da alma, heyva, tut, nar, gilas və başqa meyvə ağacları vardı. Bu bağ-bağatlı ev kənddəki çox evlərdən öncə tikilsə də köhnə olmasından əsər-əlamət yox idi. Evin taxtadan düzəldilmiş qəhvəyi rəngli giriş qapısının sol yanında ikinci mərtəbədəki aynabəndə qalxan daşdan hörülmüş pilləkəni vardı. İsmayılın göstərişi ilə bu pilləkəni qalxıb aynabəndə keçdik, onun ata-anası mehribancasına önümüzə çıxdı və otağın ortasına qoyulmuş, cürbəcür yeməklər düzülü dördkünc böyük masa ətrafına dəvət etdi.

Talış mətbəxinin ləziz təamları ilə bol olan masada məşhur ləvəngi də vardı. Ləvənginin əsl ləzzətini ilk dəfə orada daddım və bir xeyli təriflədim. Yemək yeyərkən əsgərlikdən, işdən, havadan-sudan söhbət edərək xoş vaxt keçirdik. Bəzən İsmayılın ata-anası öz aralarında Talış dilində söhbət edirdi, bizsə heç nə anlamayaraq ağzımızı açıb baxırdıq. Onlar bunun fərqinə vardığında gülərək Azərbaycan dilində – elə bilərsiniz sizin qeybətinizi edirik? Elə deyil ha... evdə həmişə doğma dilimizdə danışırıq, çox vaxt qonaqlarımız da talış olur deyə, dilimizi bilməməyiniz fikrimizdən çıxır, – kimi bənzər sözlər deyirdilər.

İsmayılın xahişi ilə gecəni onlarda keçirib səhəri gün İstisu yoluna çıxdıq. İsmayılın "Mercedes"i ilə otelə gedib iki nəfərlik otaq danışdıq. Əşyalarımızı

oteldə qoyub maşına əyləşərək Talış dağlarına tərəf yola düzəldik. Dağ yollarında ətraf aləm yamyaşıl palıd, vələs, dəmirağacı ilə örtülmüşdü. Maşın yamaca çəkilmiş asfalt örtüklü yolda irəlilədikcə dağdan aşağı yuvarlanmaq qorxusu yaşayırdım. Dağlara çıxdıqca ağaclar, yaşıllıqlar çoxalır, quşların səsləri qulaqlarımızı oxşayırdı. İrəlilədiyimiz istiqamətdə sağa baxdıqda uzaqda ətrafı iri daşlarla dolu ensiz bir çay görünürdü.

Maşının pəncərəsindən içəri kondisionerdən çıxırmış kimi sərin külək dolurdu. Hava elə valehedici idi ki, insanın üzündə ixtiyarsız təbəssüm yaradırdı. İsmayıl möhtəşəm və möhtəşəm olduğu qədər təhlükəli yollarda maşını ehtiyatla sürərək bizi Yanardağ deyilən yerə apardı. Üzərində yaşıl palıdlar olan qayalıqlar arasında maşın saxlamaq üçün böyük ərazi vardı. Həmin yerdən az irəlidə yol bitirdi. Daha maşından enib qalan yolu piyada getməli idik. Yolun bitdiyi yerdə dağın zirvələri arasından ensiz bir çay axırdı. Bu çay maşınla gəldiyimizdə yolun sağında gördüyüm çaydan heç də fərqlənmirdi. Ətrafı, içi çoxlu irili-xırdalı daşlar, qaya parçaları olan çayda kiçik balıq dəstəsi ani hərəkətlə gah sağa, gah sola üzürdü.

Bizdən qırx-əlli metr aralıda iki nəfər qırmaqla balıq tuturdu. Çayın qarşı tərəfində dörd-beş nəfər

adam yerdən qaynayaraq çıxan suya kibrit vurub nəsə etməyə çalışırdı. İsmayıl balağını çırmalayıb daşların üzəri ilə birtəhər həmin adamların yanına keçdi. Nərminlə mənsə çayın üzərinə salınmış, yaşıl rəngə boyanmış taxta körpü ilə onların yanına gedib nə etdiklərinə baxdıq. Cavan oğlanlardan biri kibriti yandıraraq suya yaxınlaşdırır, şaqqıldayaraq köpüklənən suyu alışdırmağa çalışırdı. Biz ora çatdığımızda o buna müvəffəq oldu. Tərkibində rəngsiz, iysiz metan qazı olan möcüzəsiz su alovlandı. Nərmin ətrafı, Yanarsuyu telefonu ilə videoya çəkdikdən sonra yeni "möcüzələr" axtarmaqda davam etdik.

İsmayıl dik yamacdan zirvəyə doğru uzanan kub daşlarla düzəldilmiş pilləkənləri göstərərək – bura ilə dağın başına çıxırlar, ordan qəşəng mənzərə canlanır, – söylədiyində həyəcanla pilləkənlərə cumduq. Pilləkənlər həddən artıq sərt yamacda uzun bir məsafəyə çəkilmişdi. Dönüb geriyə, aşağı baxdığımda başım gicəllənirdi. Hər an sürüşüb yıxılmaq təhlükəsi var idi. Bu təhlükəyə görə Nərminə – öndə sən get, sürüşüb yıxılarsan birdən; işdir yıxılsan heç olmasa tuta bilim səni, – deyərək önə verib arxasınca dırmaşırdım. Həmin pilləkənləri dəfələrlə çıxıb-düşmüş İsmayıl – mən də sənin arxanca çıxıram, işdir birdən sən də yıxılarsan, bilmək olmaz, – deyərək ardımca

dırmanırdı. Pilləkənlərin üzəri böyük palıd ağaclarının kölgəsində qalmışdı. Bəzi ağacların budağından tutaraq canını sığortalayıb çıxmaq da mümkün idi. Biz təngnəfəs nəhayət pilləkənləri bitirə bildik. Amma dağın zirvəsinə çatmamışdıq. Pilləkənlərin bitdiyi yerdə nəfəsimi dərə-dərə aşmış bir ağacın gövdəsi üstə oturub dincimi alır, gözlərimi sehrləyən mənzərəni izləyirdim. Nərmin əllərini çiynimə qoyub dərindən nəfəs alırdı. Təzyiqdən onun çəhrayı dodaqları qızarmışdı. İsmayıl bizdən on beş metr qabaqda dayanıb gözlədiyində:

– Gəlin, şəhər uşaqları, nə tez yoruldunuz, qabaqda daha gözəl mənzərələr var, – deyib güldü. Onun sözünə məhəl qoymayaraq üç-dörd dəqiqə oturub nəfəs dərdik. Durmaq istəmədiyimiz kötükdən birtəhər ayağa qalxıb ləhləyərək ağır addımlarla İsmayılın ardınca getdik. İsmayıl dağ yamacındakı dörd balaca çuxuru göstərərək – baxın, bura da yanır, – dedi.

Balaca torpaq çuxurlardan ikisi yanırdı, ikisi isə yox. Ocağı sönmüş çuxurlara ürəyim yandığından alışqanla ocaqların yandırıb yoluma qoyuldum. Dağın zirvəsinə çıxmaq üçün azca diki aşmalı idik. Amma bu elə də asan deyildi. İsmayıl geriyə çəkilib qaçaraq dırmanmağı bacarmışdı, Nərminlə mənsə

torpaqda eşələnir, sürüşür, ancaq dırmana bilmirdik. Axır bir əlimlə ağaclardan, qurumuş otlardan tutaraq, bir əlimlə də Nərmini dartaraq üç metrlik maneəni aşa bildim. Zəhmətimizə, oraya təngnəfəs dırmanmağımıza dəydi. Artıq zirvədə idik.

***

Önümdə bənzərsiz mənzərə canlanırdı. Mavi səma altında, yaşıla bürünmüş dağın zirvəsində gözlərimi üfüqə zilləmişdim, alçaqlarda düz görünən üfüq xətti zirvələrdə əyriliyini gizlədə bilməyərək dünyanın yuvarlaq olduğunu açıq-aşkar nümayiş etdirirdi. Sanki üfüqlərdə buludlar yerə toxunaraq sərhədsiz dünyanı sərhədləyirdi. Mənzərəni izlədikcə Tanrının qüdrətinə heyran qalırdım. Sanki üfüqləri yox, onu izləyirdim, insanın təsəvvür etməyə çalışdığı Tanrının bircə sözlə yaratdığını sadəcə təsvir etməyə rəngarəng saysız sözlərin belə aciz qaldığı sonsuz gücü. Sonsuz gücü izlədikcə özümü xoşbəxt hiss edirdim. Xoşbəxtcəsinə ətrafı izlədiyimdə uzaqdan futbol meydançası boyda görünən bir neçə kənd diqqətimi cəlb etdi. Kəndlərdəki evlər kağızdan düzəldilən kiçik evciklərə bənzəyirdi. Heyranlıqdan sərxoş olduğum vaxtı Nərmin sözləri ilə ifadə edə bilməyəcəyi dünyanı videoya çəkməklə məşğul idi. Gözlərimin

acgözlüklə yediyi mənzərədən doyduğumda zərif havadan həvəslənib siqaret yandırdım. Təmiz havada, quşların ötdüyü gül-çiçəklə bəzənmiş dağın zirvəsində, yaşıllıq içində siqaret çəkməyin də ayrı bir ləzzəti vardı.

Şabalıdyarpaq palıd meşəsində önümüzə çıxan böyürtkən kollarından zar-zor böyürtkən dərib, yeyib yabanı almanın dadına baxdım. Yabanı alma həddən artıq turş və dadsız idi. Dişləyib yemək istədiyimdə dodaqlarımı büzərək ağzımdakını yerə tüpürmək məcburiyyətində qaldım. Meşədə gəzib dolandıqdan sonra sıra yenə pilləkənlərə gəlmişdi. Pilləkənlərə baxıb burdan necə dırmandığımı düşünürdüm.

Adamın başı gicəllənirdi. Mənə yuxarı çıxmaq aşağı düşməkdən asan gəlmişdi. Palıd ağaclarının budaqlarına tutunaraq ehtiyatla addımlamağa çalışırdım. Nərmin qorxudan möhkəmcə əllərimdən yapışmışdı. İsmayılsa öz kefi ilə aşağı düşməkdə idi. Pilləkənləri enərkən Nərmin diqqətsizliklə yamacdan pillələr üzərinə yuvarlanmış, kiçik yuvarlaq torpaq parçasına ayaq basaraq tarazlığını itirib sürüşdü. Müvazinətini itirdiyində bir əlimlə əlindən, bir əlimlə də budaqdan tutduğum üçün onu dartaraq yıxılmaqdan qurtardım. O an sinəmdə elektrik partlayışı oldu, sanki üzərimə soyuq su tökdülər. Bu hadisə ilə pilləkənləri otura-

otura düşdük. Çayın sahillərini birləşdirən yaşıl körpünü keçib maşına oturaraq şəlaləyə getdik. Orada da saysız şəkil çəkdirib mənzərədən doyaraq otelə qayıtdıq.

İsmayıl bizi otelin önündə qoyub evlərinə yollandı. Gəzib dolanmaqla tamam əldən düşmüş, həm də acıxmışdıq. İki mərtəbəli otel binasının arxasına keçib restoranında əyləşdik. Əyləşdiyimiz çardaqdan restoranın arxasında olan profildən karikaturası çəkilmiş insan başına bənzər hovuz görünürdü. Ətrafında çoxlu oğlan, altı-yeddi nəfər də qız var idi. Nərmin hovuzu göstərərək – a... nə qəşəng hovuzdu, – dediyində ofisiantı səsləyib quzu kababı, salat və içməyə sərin su sifariş edirdim. Yeməklərimizi yeyib bitirdikdə gözlərimi yuxu basırdı. Nərminə otağa gedib yatmağı təklif etdiyimdə – "hovuza girmək istəyirəm" – dedi. Otel otağına gedib yerimi düzəltdiyimdə Nərmin hovuza hazırlaşırdı. Kondisioneri qoşub nazik adyalı üzərimə çəkərək onu izləyirdim. O əynindəkiləri soyunub qırmızı rəngli büstqalter və tumanını əyninə keçirib üstündən şort, qısaqol köynək geyinərək – hələlik, – deyib otaqdan çıxdı.

Hardasa iki saat sonra Nərminin səsinə oyandım. O islaq saçlarını dəsmalla qurulayaraq – gərək sən də gələydin, ləzzət elədi, su ılıq idi, adam heç çıxmaq

istəmirdi, – dedi. Ona cavab vermədən gözlərimi yumub yuxuya getməyə çalışdım. Onun adyalı qaldıraraq yatağa girməyini hiss edirdim. Yerini rahatlayandan sonra dönüb başımı qucaqlayıb alnımdan öpdü.

Gecə beşin yarısı yuxudan oyandım. Otaq buz təki olduğundan Nərmin adyala bürünərək büzüşüb yatmışdı. Alaqaranlıqda güclə tapdığım pultla kondisioneri söndürüb böyrəklərimin dadına yetmək üçün tualetə qaçdım. Tualetdən çıxıb qısaqol köynək və cins şortumu geyinərək bayıra düşdüm. Otel həyətində barmağa keçən sandalı şappıldadaraq var-gəl edir, siqaret çəkərək sabahın açılmasını səbirsizliklə gözləyirdim. Həmin anlar o özgə yerdə tək başına sıxıntıdan partlayır, nə edəcəyimi bilmirdim. Bir neçə siqaret çəkdikdən sonra yatağıma qayıdıb Nərmini qucaqlayaraq gözlərimi yumdum. Yuxum gəlmədiyindən yata bilmirdim, ən çoxu yuxulayırdım, amma yenə oyanırdım. Saat səkkizin yarısınadək Nərminin saçları ilə oynayıb yatmağa çalışmışdım. Təsadüfən gözlərim pəncərəyə sataşdığında havanın işıqlandığını görüb bayıra çıxdım. Yenə bir neçə siqaret çəkib otağa qayıtdığımda Nərmin hamamda əl-üzünü yuyurdu. O əl-üzünü qurulayarkən:

– Sabahın xeyir, aşkım, hara getmişdin? – deyərək uzanıb dodaqlarımdan öpdü. Bir öpüşlə hara getdiyi-

mi anlayaraq: – Yenə siqaret? Az çək də bunu, – dedi.

Hər zamankı kimi ciddiyə almadan:

– Yaxşı, – deyib onu da götürərək səhər yeməyinə getdim.

Yeməkdən sonra hovuz başında əyləşib özümə pivə, Nərminəsə çay sifariş etdim. Söhbət edərək pivədən, çaydan içir, İsmayılın gəlməsini gözləyirdik. İkinci pivə butulkasını qurutduğumda İsmayıldan zəng gəldi. Telefonu açıb:

– Alo, hə, hardasan, qardaş? – soruşdum.

– Otelin qarşısında, sizi gözləyirəm.

– İndi gəlirəm, azca səbirli ol, – deyib telefonu söndürdüm. Barın pulunu ödəyərək İsmayılın yanına getdik. Maşına əyləşib yenə dağ yollarında səyahətə çıxdıq. İsmayıl bu dəfə bizi Yardımlı şəlaləsinə aparırdı.

***

Yolumuz keçən dəfəkindən uzun olmuşdu. Söhbət edib siqaret çəkərək təqribən iyirmi dəqiqəyə həmin şəlaləyə çatdıq. İki mərtəbədən ibarət, çox da ürəkaçan mənzərəsi olmayan Şəlalə haqqında İsmayıl məlumat verdi:

– Bu vaxtlar, yəni avqust-sentyabrda şəlalənin suyu azalır, deyibən bir az kasad görünür. Qoy yağışlar başlasın... onun səsindən qulaq tutulur.

İyirmi-iyirmi beş metr hündürlükdən sürətlə axıb qayaya çaxılan suyu izləyirdik. Sanki yuxarıda su motoru işləyir, şlanq vasitəsi ilə su axıdılırdı. Şəlalənin eni heç bir metr olmazdı bəlkə. Ensiz şəlalə axıb qayaya çırpılaraq ətrafa buz təki su damlaları sıçradırdı. Şəlalənin arxasında, qayanın altında iki metrlik boşluq vardı. Nərmin həmin yerə, şəlalənin arxasına keçib məndən şəklini çəkməyimi istədi. Geriyə qayıdanda qaya üzərindəki yaş mamıra ayağını basıb ikinci dəfə yıxıldı, yaxşı ki, çevik davranaraq əllərini yerə dayayıb başını xəsarət almaqdan qoruya bildi. O yıxıldığı yerdən qalxıb gülərək mənə tərəf gəldiyində təəssüflə ona baxaraq başımı bulayırdım. O yanıma gəlib:

– Niyə başını yellədirsən? – dedi.

– Ölmüşdün az qala, bu da ikinci, dünənkindən ağıllanmayıbsan deyəsən, – deyindim.

O dodaqlarını sallayıb:

– Oldu oldu da, neynəyim? – dedi.

İsmayıl didişdiyimizi görüb:

– Hə, day bəsdirin, gəlin gedək, görüm sizi başqa hara aparıram, – deyərək bizi sakitləşdirib arxasınca maşına apardı. Gəldiyimiz yolu geri qayıtdığımızda Nərmin qaşqabağını töküb, dodaqlarını sallamışdı. Qollarını çarpazlayaraq maşının pəncərəsindən çölə baxır, səsini çıxarmırdı. Təsadüfən bu vaxtı yolun bir

tərəfindən digər tərəfinə qaçan tülkünü gördüyümdə:

– Tülküyə bax, tülküyə bax, – deyərək Nərminə göstərməyə çalışdım.

Nərmin uşaq kimi:

– Hanı, hanı? Heç görməmişəm, – deyə tülkü olan səmtə baxanadək tülkü qaçıb gözdən itdi.

Nərmin:

– Yalançı, – deyib yenə dodaqlarını sallayaraq qaşqabaqlı tərzdə dağlara baxmaqda davam etdi. Əsgər yoldaşım onun mənə dediyi yalançı sözünə gülüb:

– Hə düz deyir, gəlinbacı, mən də gördüm, buralıq tülkü ilə doludur, yola baxsanız görərsiz, yenə qarşımıza çıxacaq, – dedi. İsmayılın sözündən arxalanıb Nərminə acıq verirmiş kimi:

– Eşitdin? – dedim. Bir az sonra yol qırağında yenə tülkü gördük. Bu dəfə üçü birdən; kolluqlar arasında yola baxaraq sağa-sola gedirdi. Nərmin tülküləri gördüyündə – aaa... nə şirindilər, heç görməmişdim, – dedi.

Mən:

– Yalançı, zooparkda gördüklərin nə idi bəs? – dedim.

O sözlərinə düzəliş verməyə çalışaraq: – Belə görməmişdim yəni, ordakı tülkülər tülküyə oxşayır ki? Nə gündədirlər, – dedi.

İsmayıl:

– Bunları zəhrimara qalsın, arada kəndə girir, toyuq-cücəni boğub öldürürlər, – deyindi.

Nərmin:

– Heç elə heyvana oxşamırlar, bir baxın nə şirindi.

– Elə ona görə tülkü deyirlər də, etibar yoxdur, bəzi insanlar kimi, şirin-şirin, tülkü-tülkü adamın yanın, axırda da canın alır.

İsmayıl:

– Hə qardaş, nə yaxşı dedin, indiki bəzi adamlar tülküdən də betərdir, onlara tülkü demək tülküləri təhqir eləməkdi, tülkü onların yanında "toya bəzə, apar"dı.

Nərmin qaşlarını dartıb:

– "Toya bəzə, apar"dı nə deməkdi? Başa düşmədim.

– Yəni tülkü bəzilərinə baxanda kişi adamdı, kimi bir şey, bildin?

– Hə, başa düşdüm.

***

Artıq gəlib başqa məkana çatmışdıq. Maşından düşüb ətrafa göz gəzdirdim. Dağın yamacında evlər salınmış, qarşısında maşınlar dayanmışdı. Dayandığımız yerin aşağısında çay axırdı. Pilləkənlərlə aşağı enib çırmalandıq, dayaz çayın içində gəzdik. Balaca

uşaqlar çayda sağa-sola qaçışır, bir-birinə əlləri ilə su sıçradırdılar. Nərmin də bir ara mənim üstümü islatdı. Amma islatmağına peşman etdim. Bu gəldiyimiz yerdə elə də göz oxşayan, maraqlı, qəribə bir şeylər yox idi. Oldu olacaq yalnız iki yaşıl zirvənin arasından çay axması idi. Bu qədər. Orada çox qalmayıb maşına oturaraq hotelə qayıtdıq.

Nərmin yenə hovuza getmək istəyirdi və mənim də onunla getməyimə israr edirdi. Xətrinə dəyməyib parça şortumu əynimə keçirərək onunla hovuz başına getdim. O bardan dəsmal alıb, hamamda üst geyimlərini çıxarıb hovuz başında özünə yer tutdu. Mənsə hovuz yanında qurulmuş bardan pivə alıb hovuza yaxın masaların birində əyləşdim. Ətraf oğlanlarla qaynaşırdı. Nərmin də daxil olmaqla barmaqla sayılası qədər qız var idi. Nərmin hovuz nərdivanları ilə yavaş-yavaş suya dalıb, eninə iki dövrə vurduqdan sonra hovuzun kənarında dayanıb dilini istifadə etmədən əli, qaş-gözü ilə məni də hovuza çağırırdı. Mən də ona kinetik dillə "pivəmi içib gəlirəm" – dedim.

Yaşıl heyva ağacı altında dəmir ayaqlı taxta oturacaqda oturub qurtum-qurtum pivəmi içir, onun günəş şüaları altında parıldayan su damlalarının üzərində süzülüb axdığı bəmbəyaz bədənini seyr

eləyirdim. Nərmin mənə baxmayanda isə digər qadınlara baxırdım. Bu vaxtı bir oğlan özünü qızların gözünə soxmaqdan sarı həlak edirdi. Orta boylu, atletik bədənli qaraşın oğlan hovuzun kənarından təkan verərək göyə atılır, dövrə vurub kəlləsi üstə suya dalırdı. Qaraşın oğlan bu hərəkəti yorulmaq, bezmək bilmədən, dayanmadan edirdi. Dövrə vur, kəllə at və yenidən, yenidən, yenidən. Hər dəfə atılıb hovuza kəllə vurduğunda bütün ətrafa su çilənirdi. Kiminsə onun hərəkətindən xoşhal olduğu nəzərə çarpmırdı. Amma adam bununla fəxr edir, lovğalanaraq özünə qoyulmurdu. Axırı hovuza nəzarət edən şəxslərdən biri atletik bədənli oğlana yaxınlaşıb – bunları etmək olmaz, qadağandı, – dediyində həmin oğlan nəzarətçi ilə razılaşıb fəaliyyətinə ara verdi. Lakin nəzarətçi getdikdə o yenidən öz fəaliyyətini davam etdirdi.

İkinci pivə butulkasını yarılayıb xumar-xumar həmin oğlanı izləyirdim. O daha güclü təkan verib atılmaq üçün hovuzdan hardasa iki metr yarım kənara çəkildi. Qaçaraq hovuza sarı irəlilədiyində islanmış zəmində ayağının biri sürüşdü. Oğlan beli üstə yerə çaxıldığında başı zərblə kafelə çırpılıb partladı. Üstəlik sürüşərək hovuzun içinə düşdü. Ətrafı atletin al-qanı bürüyərkən hovuz başındakı uşaqlar və qadınlar cikkə çəkib qışqırır, Nərmin cəld hovuz-

dan çıxıb yanıma qaçaraq ağlayırdı. Onu sakitləşdirə bilməyib hovuz başından hotelə apardığım üçün kafelə çaxılan lovğanın aqibətinin necə olduğundan xəbərsiz qaldım. Otaqda Nərmin tövşüyərək gözü yaşlı:

– Gedək burdan, day burda qalmaq istəmirəm, – kimi sözlər deyirdi. Nə qədər sakitləşdirməyə çalışsam da uşaq kimi dediyindən dönmürdü. Çarəsiz qalıb İsmayıla zəng edərək hotelə çağırdım. Paltarlarımızı maşına qoyub onların evinə yollandıq. Nərmin daha danışıb-dinmir, ancaq əsirdi. Elə bil ki, qışın oğlan çağındayıq və o üşütmə keçirir, heç yaxşı görünmürdü. Əsgər yoldaşım onun tir-tir titrədiyini görüb maşının kondisionerini söndürmüşdü. İsmayılgildə olduğu bütün vaxt ərzində də danışıb-dinmir, lal kimi oturub əsirdi. İsmayılın anası Nərminin halını görüb mənə:

– Bala, onu ruh tutub, qonşumuzda molla var, gedib qızıma Quran açdıracam, – dedi.

İsmayılın anası ilə:

– Yox, nə ruh tutması ay xala, – deyərək hovuzda baş verənləri danışıb, – qorxub sadəcə, – ilə söhbətimə yekun vurdum.

İsmayılın anası Mehriban xala:

– Qorxubsa dua yazdıraq, – deyib üzünü İsmayıla tutdu: – Bala, get molla Sakitə de ki, xanım qızıma qorxu duası yazsın, – dedi. İsmayıl da anasının sözünü dinləyib tələm-tələsik evdən çıxdı. Bir az sonra əlində üçkünc formada bükülü kağızla evə qayıdıb kağızı anasına verdi. Mehriban xala üçkünc kağızı kiçik yaşıl rəng parçaya bükərək tikib sancaqla Nərminin köynəyinin içəri tərəfindən yaxasına taxdı və çox astadan dua oxuyub, salavat çevirərək əlini üzünə çəkib Nərminin alnından öpdü. Mehriban xala öz resepti ilə müalicə etməyə çalışdığı nişanlımın yaxın zamanda sağalacağını vəd etdi.

Axşam yeməyini yeyib saat onda yola çıxdıq. İsmayıl maşını ilə bizi Masallı dəmiryol vağzalına çatdırdığında saat on birin yarısı idi. İki nəfərlik kupeyə bilet alıb qatarın gəlməsini gözlədik. Hardasa saat on birdə qatar vağzalda dayandığında İsmayılla sağollaşaraq çamadanı götürüb vaqona mindik. Biletdə göstərilən vaxta görə səhər saat yeddiyə qalmış qatar Bakı vağzalında olmalı idi. Vaqona minib çamadanı sürüyərək irəlilədiyimizdə mənzərəsi anbaan dəyişən böyük pəncərəsi, ensiz yataqları olan, kiçik kupedə yol boyu sevişərək romantik bir gecə yaşayacağımı xəyal edirdim. Nərmin gördüyü hadisənin təsirindən ayılmadığından xəyallarım xülyaya döndü.

Hərəkət edən o balaca otaqda romanlardakı kimi romantik bir səyahət yaşamadıq. Qatar tərpəndiyində yatıb vaqon nəzarətçisinin “mələfələri verin, Biləcəri stansiyasıdır, şəhərə az qalmışıq” – deyə bağırması ilə oyandıq. Nərmin səhər də yaxşı deyildi. Söhbət edib başını qarışdırmaq istəsəm də – hə, yox – kimi qısa cavablardan savayı ağzından söz çıxmırdı. Onun səssizliyi ilə birlikdə vağzaldan taksiyə oturub birbaşa evə getdik. Evdə lal-dinməz bir stəkan çay içib sakitcə yatağa uzandı. Onun psixi sarsıntı keçirərək depressiyaya düşəcəyindən, ağlını itirib dəli olacağından qorxurdum. Bu qorxular məni gəzintiyə çıxmağımıza peşman etsə də, çox uzun müddət narahat olmağıma da aman vermədi. İki gün sonra onu avtovağzaldan Gəncə avtobusu ilə evlərinə yola saldığımda daha özünə gəlmiş, olanları unutmuşdu.

***

Dəniz mövsümü qapanmaq üzrə ikən istirahət günləri bitmişdi artıq. Dalğalara dalıb gözdən itən üzgüçülər, qumsalda uzanıb özünü günə verən çılpaqlar az-az gözə dəyirdi. Sonuna bir neçə gün qalmasına rəğmən yay fəsli son saatlarını odlu-alovlu yaşayaraq insanları qısaqol köynəkdə, nazik, yüngül geyimdə belə tərləməyə məhkum edirdi. Sakitcə,

təmkinlə yayın can verməsini gözləyən, həyatı soldurmaq məqsədi ilə doğulmuş bədbin payız can üstə olan güclü yayla qarşılaşmaqdan çəkindiyi üçün ortaya çıxıb nə külək qopara bilirdi, nə də yağış yağdıra. Gecə ilə gündüzün bərabərliyinə bir həftə qalan, təbiətin qorxu içində olduğu bu vaxtlarda hər il olduğu kimi universitet qapıları tələbələrin üzünə açılmışdı. Nərmin şəhərə gəlib sonuncu kurs üzrə oxuyur, universiteti bitirməyə, diplom almağa hazırlaşırdı. Mən də gecədən səhərədək pubda öz işlərimlə məşğul olaraq pul qazanmağa çalışırdım. Arada telefonla Nərminlə danışır, bəzən Raufla görüşür, bəzən də Nərmini görməyə tələbə yoldaşları ilə birgə yaşadığı kirayə evə gedirdim.

Aytən və Günəş adlı qızlarla birlikdə kirayələdikləri iki otaqlı mənzil universitetindən iki dayanacaq yuxarıda, çoxmərtəbəli binalardan birində idi. Qonaq kimi nişanlımı görməyə getdiyim bu mənzildəkilərin Nərmin də daxil üçünün də tələbə olduğundan hər dəfə onlara əli dolu gedir, meyvədən, şirniyyatdan alıb aparırdım. Tələbələrdən Günəş adlı qız susqun, sakit bir qız idi, danışıb deyib-gülən biri deyildi. Onunla danışanda sözü ağzından maqqaşla çəkib çıxarmaq lazım gəlirdi. Qaşları çatma, gözləri qıyıq, siması solğun olduğundan təbii olaraq həmişə qaşqa-

baqlı görünürdü. Aytənsə iri gözləri, dümdüz qaşları, kiçik burnu və balaca dodaqları ilə sevimli görünüşü olan mehriban, istiqanlı bir qız idi. Onlara getdiyimdə gülər üzlə önümə çıxar, yeznə deyərək xitab edərdi. Həmişə də gülməli mövzu tapar, söhbət edər, üzümü güldürərdi. Onunla söhbət etmək mənim üçün çox xoş olurdu. Aytənlə səmimi dostluq münasibəti qurduğum üçün bəzən nişanlım narahatlıq keçirərək onu mənə qısqanardı. Mənimsə heç zaman Aytənə qarşı ağlımın ucundan başqa fikir keçməzdi. Bəzən olurdu ki, bazar günləri şəhərə çıxdığımızda Aytən də bizlə birlikdə gələrdi. Gəlməmişdən öncə narahat edib-etməyəcəyini soruşar, sonra gələrdi. Sadəcə mehriban və səmimi olduğuna görə onun bizimlə birlikdə gəlməsini xoş qarşılayırdım. Bir dəfəsində Aytən mənə:

– Yeznə, daha toyu eləyin, gəlib yeyim, içim, dava salım, – deyərək zarafat etmişdi. Onun zarafatına cavab olaraq:

– Nərmin universiteti qurtarsın, toyu edəcəyik, onda gəlib dava salarsan, – deyib ürəkdən gülmüşdüm.

Bir dəfəsində ona görə mübahisəm düşmüşdü. Bu hadisə Nərminin ad gününə maraqlı hədiyyə seçmək məqsədi ilə Aytənlə birlikdə şəhərə çıxdığımız zaman

baş vermişdi. Neftçilər metrosundan çıxıb dükanlara sarı gedərkən iki oğlan yanımızdan keçdiyində onlardan biri digərinə:

– Gör nə bomba qızla fırlanır, – dedi.

Mən Aytənə:

– Sən get, indicə gəlirəm, – deyib geri dönərək həmin sözü deyən oğlanın önünü kəsdim. Yumruğumu sıxıb gözlərimi bərəldərək corabsız ayaqlarına zamşa tufli geyinmiş, başında qara kepka, əynində qara şalvar, qara köynək olan, arıq oğlana əsəblə:

– Nə danışırsan, çurban çaqqal, dilin ağzına çoxluq edir, ya düz yolunla gedə bilmirsən? – bağırdım.

Qurumuş öncə qorxudan söz deyə bilməyib udqunaraq yazıq-yazıq üzümə baxdı. Yanındakı boynuna gümüşü zəncir, qoluna enli qızılı bilərzik taxmış balaca boy, gonbul oğlan aramıza girib:

– Yaxşı, qaqa, mən onun adından üzr istəyirəm, bağışla, – dedikdən sonra isə qorxudan udqunan qurumuş vəhşi şirə döndü. Gonbulu kənara çəkirmiş kimi boynunu qaldırıb əlini uzadaraq mənə:

– Nə deyirsən e, sən? Yaxşı eləyirəm, sözün var? Hələ bunun köynəyindəki yazıya bax: "Mənim düşüncəm, mənim baxışlarım, mənim dünyam", sənin dünyanı xaraba qoyaram düşüncən dəyişər, bildin, ə, – dedi.

Onun dediyindən utanmaq əvəzinə ikinci hərəkəti, abırsızlığı sanki mənə od vurdu. Özümü itirərək qeyri-ixtiyari sol əlimin arxası ilə gonbula itələtmə vurub sağ əlimlə qurumuşun sol tərəfindən çənəsinə möhkəm bir yumruq ilişdirdim. Qurumuş zərbənin təsirindən sağ üstə birbaşa yerə sərəli qaldı. Toxtamaq bilməyib ani hərəkətlə gonbulun da burnunun üstə yumruq ilişdirib söyərək Aytənin arxasınca qaçdım. Ətrafda polislərin çox olduğunu bildiyimdən tələsik onu da götürüb taksiyə əyləşərək "Xalqlar"a getdim. Aytən həmin günü o minnətdarlıq, təşəkkür qalmadı ki, deməsin mənə. Həmin günü Aytən:

– Bezmişik belələrinin əlindən, şəhərə çıxa bilmirik, yaxşı payların verdin. Heç elə bil onların anaları-bacıları yoxdu, – dediyində Fəvvarələr bağında yaxınlaşdığım qızları düşünərək xəcalət çəkib:

– Mən yaxınlaşıb, narahat edib-etmədiyimi soruşuram, "narahat edirsən" deyəndə uzaqlaşıram, – fikri ilə özümə təskinlik verdim.

Nərminin yaş gününəsə sıradan bir hədiyyə alıb geri qayıtdıq. Yaş günü olduqca maraqlı keçmişdi. Onların yaşadığı kirayə evə bir sürü qız, iki nəfər də oğlan tələbə gəlmişdi. Oğlanlardan biri cilvəli Firuz, digəri isə Əli adlı sakit oğlan idi. Demək olar ki, məndən savayı kişi yox idi. Tələbə qızlardan ikisi içki

içib siqaret çəkirdi. Mən də məclisdə onlarla içki içir, siqaret çəkir, vaxtımı keçirirdim. İçki içdiyim qızlardan biri Əliyə:

– Bəs sən niyə içmirsən? Axı səni içən görmüşəm, – dediyində, Əli:

– Özümü yaxşı hiss etmirəm, siz kefinizə baxın, – demişdi.

Həmin günü özünü yaxşı hiss etməyən sakit oğlandan savayı hamının kefi yaxşı idi. Özünü ən yaxşı hiss edənsə Nərmin idi. Çünki ona çoxlu hədiyyələr gəlmişdi. Kimi gül buketi, kimi oyuncaq ayı, pinqvin, kitab, saat, çərçivə, kimi də ayaqqabı alıb gətirmişdi. Ən çox gözümə dəyən kitab və saat olmuşdu. Tələbələr ya ucuza qurtulsunlar deyə həmin hədiyyələri almışdılar, ya da kitab və saatın mənalı hədiyyə olduğunu düşündükləri üçün. Mənim aldığım hədiyyəyə gəldikdə isə maraqlı olmadığı üçün adını çəkmək belə istəmirəm.

Axşam üstü saat 8-də qonaqların hamısı getmiş, yalnızca mən və kirayəçilər Günəş, Aytən, Nərmin qalmışdıq. Saat doqquza qalmış Nərminin rəsmi əks olunmuş tortdan “Nərminin başını” kəsərək çayla yeyib oradan ayrılmışdım. Evdən ayrıldığımda da əlavə olaraq öpüş hədiyyə edib çıxmışdım. Saat onda yenə pub, yenə iş, yenə içkili müştərilər. Səhərə yaxın özü-

mü it kimi yorğun, olduqca halsız hiss edirdim. İşdən evə gəldiyimdə birbaşa yatağa girmiş, bir də axşamüstü səkkizə qalmış oyanıb duş qəbul etmiş, yemək yeyib yenidən işə yollanmışdım. Sonrakı günlərim iş və ev olaraq taleyimə yazılmışdı...

***

Zaman öz axarında keçir və mən it kimi işləyirdim, yayda olacaq toyum üçün pul toplayırdım. Zaman keçdikcə çox şeyi dəyişdirirdi. Ən pisi də insanları dəyişdirməsi idi. Dəyişiklərdən biri də Nərminlə aramızda olan hava dəyişkənliyi, soyuq münasibətlərin yaranmış olması idi. Sanki əvvəlki kimi sevmirdik bir-birimizi, sanki əvvəlki hisslər yox olurdu yavaş-yavaş. Ona olan sevgim gözlərimdə adiləşmiş, qəlbimdə vərdiş halını almışdı. Onu əvvəli kimi sevib qısqanmadığımı düşünməyə başlamışdım. Daha telefon zənglərimiz, mesajlarımız da azalmışdı. Keçmiş günlərdəki kimi gündəlik zənglər, mesajlaşmalar, "səni sevirəm" sözləri yoxa çıxmış, yerini üçgünlüklərə, həftəliklərə vermişdi. Nərminin də məndən soyuduğunu, onun da mən keçirdiyim hissləri keçirdiyini anlasam da ona bildirmirdim. Münasibətimiz saysız – kiçik və arabir böyük mübahisələrlə zar-zor addımlamağa çalışırdı.

Bir kərəsində o qədər əsəbiləşdim ki, ayrılmağa qərar verdim. Zəng edərək anama nişan simvolu olan üzüyü geri almağı, nişanı qaytarmağı, ayrılmaq istədiyimi söylədim. Anam məni dinlədikdən sonra hönkürərək ağlamağa, mənə nəsihət verməyə başladı. Elə ağlayıb fəryad qopardı ki, öz fikrimdən əl çəkmək qərarına gəldim. Hətta ayrılmaq fikri ağlıma gəldiyi üçün özümü pis hiss etdim. Bu söhbətdən sonra anam üç gün ardıcıl zəng edərək Nərminlə mehriban olmağımı, özümü sakit aparmağımı, qızın həyatını məhv etməməyimi söyləmişdi. Mən də tutduğum əməldən peşman olmuş, Nərminlə münasibətimi əvvəlki yerinə qoymuşdum. Amma hər şey o ilk günlərdəki kimi deyildi. Onu tanıdıqca yeni xasiyyətlərini kəşf edirdim. Daha onun cilvələrinə, naz-qəmzələrinə nəvaziş göstərə, səbir edə bilmirdim. Günlər keçdikcə, aradakı pərdələr qalxdıqca onun istəkləri çoxalırdı. Bəzən elə şeylər istəyirdi ki, almağa imkanım əl vermirdi. Pullarımı da onun istədikləri boş, mənasız yerlərə xərcləmək istəmir, toya saxlamaq istəyirdim. O hələ günlərin birində:

– Daha metro ilə, avtobusla gəzməkdən yorulmuşam, nə zaman maşın alacaqsan? Məni maşınla gəzdirsən nə olar ki? – demişdi.

Mən:

– Mənim o qədər pulum yoxdu axı maşın alım, evi düzəltdirmək istəyirəm, görmürsən də mənim evimin vəziyyətin, divarların rəngi gedib, divar kağızları qopub, cırılıb. Mətbəx mebeli demək olar ki, çürümək üzrədi, hamam kafelinin rəngi saralıb, kranlar ərp bağlayıb, saymaqda davam eləyim, ya bəsdi bu qədər? Saysam bitmək bilməyəcək, mən də sənin üçün çalışıram, – dedim.

Nərmin: – Belə de, onda divar kağızlarını, otaqların rəngini mən seçəcəyəm, razısan? Hələlik maşın qalsın, evi düzəltdir, sonra alarsan. Evi nə vaxt təmir etdirməyi düşünürsən? – dedi.

Qulağımın arxasın qaşıyaraq:

– Gələn həftədən başlayacaqlar, usta danışmışam artıq. Materialın xərci bir az çoxdu, amma pulum kifayət edəcək, – dedim.

– Hə, əladır ki. Nə vaxt gedək divar kağızına baxmağa? Mən deyən olacaq ha...

– Bu bazar baxarıq, – deyib onunla razılaşdım.

Bazar günü Nərmini də götürüb divar kağızı satılan dükanlara baxmağa getdik. Yol boyu Nərmin telefonunda cürbəcür divar kağızlarının rəsmini göstərir, hansılarını bəyəndiyini, hansı rəngləri xoşladığını deyirdi. Nərmin gələcək yataq otağımız üçün ağ rəngli, üzərində qara yarpaqvarı naxışları olan mənim də

xoşuma gələcək oboy seçdi. Qonaq otağı üçünsə açıq boz rəng üzərində tünd boz rəngdə gülləri olan başqa bir oboy. Uşaq otağı üçün açıq mavi rəngli üzərində delfin şəkli olan, mətbəx üçünsə sarı-qara rəngli kənardan baxdıqda kafelə bənzəyən divar kağızı. Sıra tualet və hamam üçün kafel, mətbəx üçünsə mebel seçiminə gəlmişdi. Kafellərə, mətbəx mebellərinə baxıb sifarişimizi verərək evə qayıtmışdıq.

Üç gün sonra evimdə işlər başlanmışdı. Danışdığım iki usta gəlib uşaq otağı olacaq otaqdan işə qoyulmuşdular. Səhərlər onlarla birlikdə olub, axşam işə getməklə tamam əldən düşdüyümdən qonaq otağındakı işlərin yekunlaşmağına yaxın onlara – daha, qardaş, məni bağışlayın, sizə yemək bişirə, çay verə bilməyəcəm, işdən evə gəlib bunları eləmək, sonra yenə işə getmək tamam əldən salıb məni. Dörd-beş saat yatsam da yuxumu ala bilmirəm, day məni bağışlayın, yeməyi, çayı özünüz hazırlayın, mətbəxdən də istədiyiniz kimi istifadə edə bilərsiz, – demişdim.

Yaşda böyük, saçları bozarmış, orta boylu usta – problem yoxdu, qardaş, o nə deməkdi? Sənə necə rahatdı elə et, biz özümüz yeməyimizi də bişirərik, çayımızı da dəmləyərik, – demişdi. Yaşda kiçik olan arıq, uzun köməkçi də – hə, qardaş problem yoxdu, baş üstə, – deyərək ustasının sözünü təsdiqləmişdi. Mən

də beləcə evin açarını onlara verib işdən döndükdə yatır, sadəcə günortalar oyandığımda onlarla birlikdə oturur, yeməyimi yeyir, yenidən yatır, onları yola salıb işə gedirdim. Azca çətinliyim yataq otağımın təmiri başlayanda olmuşdu. O zaman yatağımı yenicə təmirdən çıxmış uşaq otağı olacaq otağa daşıyıb "delfinlərlə" birlikdə yatırdım.

Evdə iş gedən günlərin birində hər gün olduğu kimi işdən evə qayıdıb yatağıma girərək yatıb günorta oyandığımda evdəki səssizliyin fərqinə vardım, ustaların səsi gəlmirdi. Yataqdan çıxıb otaqları gəzdim, nə mətbəxdə idilər, nə də mənim yataq otağımdakı işlərinin başında.

***

Evin təmir işləri ilə əlaqədar tör-töküntü olduğundan heç nə anlaya bilmirdim. Telefonu götürüb öncə yaşca böyük ustaya zəng etdim, amma nömrəsinə zəng çatmadı. Ardınca yaşca kiçik olana zəng etdim. Onun da nömrəsinə zəng çatmadı. İstirahət etdiklərini düşünüb dincəldiklərinə vicdanımla haqq verərək yenidən yatağıma qayıtdım və axşam işə getdim. Səhər evə qayıtdığımda yatmadım. Çay dəmləyib heyva cemi ilə nahar edərək yenilənmiş qonaq otağında oturub televizorda xəbərləri izlədim. Kürdəmir, Dərnəgül yo-

lunda baş verən qəzaları, atanın balasını öldürməsi ilə bağlı, qonşunun qonşusunu torpaq üstə bıçaqlaması ilə bağlı, oğurluqla bağlı cinayət xəbərlərinə baxırdım. Oğurluqla bağlı xəbərləri izlədiyimdə beynimdə işıq yandı sanki. Telefonda saata baxdım, doqquzu göstərirdi. Ustalarsa həmişə saat yeddidə, maksimum səkkizin yarısında işlərinin başında olurdular, lakin hələ də gəlib çıxmamışdılar.

Nömrələrinə zəng etdim, lənətə gəlmişlərə zəng çatmadı. Siqaretimi söndürüb telefonu qulağıma qoyaraq evdə narahatcasına var-gəl edirdim. Ustalara zəng çatmırdı ki, çatmırdı. Telefonu divanın üstünə atıb yataq otağından çıxarılıb qonaq otağına qoyulmuş çamadanın üstünə cumdum. Çamadanın ağzını açıb Son Zəng albomumu vərəqləməyə başladım. Vərəqlər sona yetdiyində albomun arxasından tutub ağzı aşağı sirkələdim. Bir şey çıxmadı. Onu kənara ataraq çamadanın içini qarışdırdım, qarışdırdım, büsbütün ələk-vələk elədim, fəqət axtardığımı tapmadım. Pullar yox idi. Götürülmüşdü. Yerə oturaraq dizlərimi sinəmə çəkib əllərimi başımın arxasında daraqlayaraq silkələnir, pulları götürənləri var-yoxdan çıxarırdım. İki min səkkiz yüz yetmiş manat. Üç aylıq maaş və bəxşişlərdən ibarət o pulları mətbəx mebeli və ustalar üçün depozit kartından çəkmişdim. Ən

azından adıma kart açdırıb bütün pullarımı karta qoyduğum üçün sevinirdim. Yoxsa əclaflar onları da apara bilərdi.

Yenidən telefona cumub ümidsiz halda oğrulara zəng etdim. Telefonda eşitdiyim yenə mobil operatorun – zəng etdiyiniz abunəçinin telefonu söndürülüb, zəhmət olmasa bir az sonra zəng edəsiniz, – söyləyən robotunun səsi oldu. Qəfil onların nömrəsini verən qonşum Cavid yadıma düşdü. Tez evdən çıxıb onların qapısını döydüm. Qapını Cavidin on beş yaşlarında oğlu açıb atasının işdə olduğunu dedi. Mən də evə qayıdıb Cavidə zəng edərək əhvalatı ona nağıl etdim. O təəssüflə:

– Ən yaxşısı polisə ver, onların nömrəsini iş yoldaşımdan almışdım, iş yoldaşımın evində işləmişdilər, iş yoldaşım da yaxşı tanımır onları, o da kimdənsə alıb nömrələrin, tapmağa çalışarıq, xəbər çıxsa zəng edəcəm, amma ən yaxşısı polisə deməkdi, – demişdi.

Eşitdiklərimlə kədərlənərək bütün gün otaqda var-gəl edib, siqaret çəkib pullarımı düşündüm. Tez-tez Cavidə zəng edib nəsə öyrənib-öyrənmədiyini soruşdum. Axşama kimi ondan ürək açan məlumat, xəbər gəlmədi. Axşam işə gedib başıma gələnləri işdəkilərə də danışdım. Müdirim Teymur:

– Puldan əlini üz, polis oğruları tapsa da, sənin pulun tapılmayacaq, indiyə xərcləyiblər, – deyərək "gözəl güzəranıma sevinclər" bəxş etdi.

Səhəri işdən gəldiyimdə yeməyimi yeyib yatmaq bilmədən birbaşa şöbəyə qaçdım. Polis nəfəri şikayətimi qeydə alıb adımı, soyadımı, nömrəmi, ünvanımı götürərək xəbər çıxdığı anda məlumatlanacağımı dedi. Şöbədən evə qayıdıb qardaşıma zəng edərək başıma gələnləri ona da danışdım. Qardaşım:

– Niyə ustaların başında dayanmırsan axı? İndi kimə etibar var? Bu da axırı, day neynək, oldu, oldu, evdə də işlər para qaldı, hə?

– Cəhənnəmə qalsın, hə.

– Narahat olma, burda yaxşı ustalar tanıyıram, onları gətirəcəm, özüm də gəlib işin başında duracam.

– Allah razı olsun, qardaş, nə zaman başlaya bilərlər? Ev tör-töküntüdü, evə baxdıqca ürəyim sıxılır.

– Sabah, uzağı biri gün orda olacam, fikir eləmə, özünə yaxşı bax, oğruların tapılsa xəbər edərsən.

Mən:

– Yaxşı, qardaşım, sən də özünə yaxşı bax, evdəkilərə salam de, – deyib yatmaq məqsədi ilə çarpayıma uzandım, amma telefon zəngləri yatmağa aman vermədi. Qardaşım olanları evdə kimə danışmışdısa hamısı zəng etmişdi. Yarım saat atamla, bir saata

yaxın anamla, əmioğlumla, əmimlə – nəslimin yarısı ilə oğruluqdan danışıb telefonu səssizə ataraq güclə yata bildim. Axşam iş, səhər ev. Yataqda qurcalandığımda qapı döyüldü. Qapını açıb qardaşımı və iki nəfər cavan ustanı qarşıladım. Onunla qucaqlaşıb-görüşüb gələn qonaqlarla salamlaşıb evə keçirdim.

Qardaşım:

– Səhər oyanıb yola çıxmışıq, birbaşa bura gəlmişik, acından ölürük, yemək yeməmişik, yeməyə nəyin var? – deməsi ilə soyuducunu yoxladığımda yeməyə nəsə tapmadığımdan bayıra çıxıb yaxınlıqdakı dükandan sobada bişirilmiş cücə, isti təndir çörəyi, salatlıq pomidor, xiyar, içməyə su alaraq geri qayıtdım. Gələn yeni cavan sənətkarlar yemək yeyib cana gəldikdən sonra təmirdən çıxmış otaqlara baxıb:

– Gör nə gündə vurublar, heyf sənin pulundan, – deyərək yarım qalmış yataq otağına keçib işə qoyuldular. Qardaşımla çay içərək söhbət edib axşamı yetirib işə yollandım. Səhəri gün mebel salonundan bir nəfər gəlib mətbəxdə ölçülər götürərək getmişdi. Günortaçağı telefonuma tanımadığım nömrədən zəng gəlmişdi. Nömrədə eyni rəqəmlərin çoxluğundan kasıb adamın zəng etdiyini hiss etdim. Telefonu açıb: – Alo, buyurun, – dedim.

Telefondakı:

– Salam, polisdən sizi narahat edirik, Yaqubov Rasimdi?

– Bəli, mənəm, buyurun.

– Sizin oğruları tapmışıq, gəlib üzləşə bilərsiniz, – dedi.

Polisə təşəkkürümü bildirdim, telefonu söndürüb qardaşımı da götürərək bölməyə getdim. Evimdə işləyən həmin adamlar yazıq-yazıq oturub gözümün içinə baxırdılar. Söyüş söymədən dişimin dibindən çıxanları deyib şikayətimdən dönməyərək əliboş geri qayıtdım. Müdirimin dedikləri doğru çıxdı. Mənim oğurlanan pullarım xərclənmiş, geri qayıtmamışdı. Pullarım geri qayıtmasa da, ən azından onların cəza almalarına sevinmişdim.

***

Evimin təmirinə hardasa bir ay vaxt sərf olundu. Qardaşımın mənə yazığı gəldiyindən ustaların haqqını özü ödədi. Belə baxdıqda mənim hardasa min üç yüz manat pulum oğurlanmışdı: oğurluq edənlərin zəhmət haqqını çıxmaqla qardaşımın yardım etməsini nəzərə alsam.

Evdəki işlər bitdiyində evin yeni dizaynını bəyənərək xoş sözlər söyləyəcəyini umduğumdan Nərmini həyəcan, səbirsizlik qarışıq məmnunluqla evə

baxması üçün dəvət etdim. O öncəliklə yataq otağından başlayaraq bir-bir təmirdən yeni çıxmış otaqlara könülsüzcə nəzər yetirib quru tərzdə:

– Pis alınmayıb, yaxşıdı məncə, – dedi. Mən onun əllərini ağzına tutaraq sonsuz sevincini gizlədə bilməyib necə reaksiya verəcəyini gözlədiyimdə o sadəcə quru tərzdə "pis deyil" – demişdi. Yetim bir uşaq günlər öncə itirdiyi anasını sabah da görməyəcəyini başa düşərək hər gecə yatağa girdiyində necə məyus olursa, mən də elə məyus oldum.

Otaqlara göz gəzdirdikdən sonra çay içərkən Nərmin söz arası: – Bəs nə zaman maşın alırsan? – dediyində söhbəti dəyişməyə çalışıb evə çəkdiyim xərclərdən, təmir haqqından, oğurluqdan danışmışdım. Onu kirayə qaldığı evə yola salıb tək başına oturduğumda "yazıq qız belə baxanda düz deyir, o da maşında gəzmək istəyir. Allah kino çəkənlərin evin yıxsın, baxırlar o kinolara, sonra da belə deyirlər. Alacam inşallah, toya kimi alacam, əlimdə bir az pul var, qalanın da atamdan borc alaram, mən də özümə camaatın kişiləri sayağı maşın alaram, Nərminlə gəzib şellənərəm" – deyə fikirləşdim. Buna görə də müdirə – toya pul yığıram, yoxsa deməzdim, – deyərək söhbət açıb maaşımı artırması şərti ilə iş saatımı artırmasını istədim. O əvvəlcə etiraz etsə də xahiş-minnət,

uzun-uzadı şirin söhbət qəlbini yumşaltdı. Beləcə xoş ünsiyyətlə ilanı yuvasından çıxararaq saat beşdən sübh saat beşədək min iki yüz manat qarşılığında razılaşıb ağır iş rejiminə yazıldım.

Əmək qanunvericiliyini pozaraq on iki saat işləmək yorucu olsa da karlı idi, çünki iş saatının çoxluğu müştərinin verdiyi bəxşişin də çoxluğu demək idi. Altıya qalmış evə çatır, saat ikiyə, üçə, bəzən də dördə kimi yatır, saat beşdə yenidən işə gedirdim. Gecələr oyaq qalıb səhərlər yatdığımdan günəşlə vidalaşıb ulduzlarla dostlaşmışdım. Bu yeni rejim Nərminlə əlaqəmə maneə olduğundan münasibətimizə mənfi təsir etmişdi. Daha əvvəlki kimi günortalar görüşə, danışa, harasa gəzməyə çıxa bilmirdik. Ancaq iki həftədən, üç həftən bir, bazar günləri görüşsək, görüşürdük, görüşməsək, üzümüzü görmək bir ay çəkirdi. Bu minvalla vaxt keçir, evlənəcəyimiz gün yaxınlaşırdı.

Yazın son günləri axır nəfəsin verməyə, isti yay günləri dünyanı işğal etməyə, Nərmin diplom işinə hazırlaşdığında mən maşın almaq üçün pul toplayırdım. O diplom işi yazdığı ərəfələrdə əlaqələrimiz tamamən azalmışdı. Zəng etdiyimdə tələsik danışar, müdafiəyə hazırlaşdığını deyib sağollaşardı, bəzi günlər işdən zaman ayırıb heç zəng edə bilməzdim. O günlər bi-

zim evdə toy hazırlıqları görür, toya dəvət olunacaq adamların siyahısını çıxarır, dəvətnamələr yazırdılar. Qardaşım əsgər yoldaşlarıma, dostlarıma dəvətnamə yazmaq üçün hər dəfə zəng edib adlarını soruşduğunda çox sevinirdim. Bir az da həyəcanlanırdım. Bəylik kostyumunda, solumda Nərmin... səkkiz yüz göz üzərinə zillənmiş, alqış sədaları altında şadlıq sarayında addımladığımı düşündükcə özümü qəribə hiss edirdim. Bəlkə də bir il sonra qızım olacaqdı, ya da oğlum. Atalıq necə hissdi, deyə düşünməyə başlamışdım artıq. Məndən necə ata olacaq, görəsən? Mən bunu bacaracammı? Nərminlə birlikdə bir ömür sürə biləcəyəmmi? Suallar beynimdə fırlana-fırlana işləyir, pul yığmaqda davam edirdim.

***

Məşğuliyyətimin, ağır iş rejiminin üstündən aylar ötmüşdü. Bir az pul topalamağı bacarmış, bir az da atamdan borc almışdım. Daha hansı maşını alacağımı düşünürdüm, amma hər şeyi Nərmindən gizlədərək sürpriz etmək istəyirdim. Buna görə də ona heç nə demədən bazar günü yetdiyində Sumqayıtın maşın bazarına yollandım. Özümlə birlikdə Raufu da yoldaş etmişdim, Rauf da maşın dəllalı olan dostu Samiri özü ilə gətirmişdi. Üç nəfər bazarı ələk-vələk

edib mənim bəyəndiyim, Samirin müsbət rəy verdiyi ağ rəngli "Kia Optima" almışdım. Sabahı gün maşını öz adıma keçirmiş, bütün sənədlərini almış, qeydiyyatını aparmışdım. Bazar günü Nərminə zəng etdiyimdə zəng çatmadığı üçün bazar ertəsi zəng edib xoş xəbəri demək istədim. Amma bazar ertəsi də ona zəng çatmadı. Onun necə sevinəcəyini görmək, duyduğu sevinclə xoşbəxt olmaq istəyimdən səbirsizlənib Aytənə zəng vurdum. İlk iki zəngdə onun telefonu çağırsa da, o cavab vermədi. Usanmadan üçüncü dəfə zəng etdiyimdə nəhayət, o sönük səslə cavab verdi:

– Salam, Rasim, necəsən?

Səsindəki narahatlığı hiss edə bilirdim.

– Salam, Aytən, yaxşıyam, sağ ol, sən necəsən? Bağışla, narahat elədim, Nərminə zəng çatmır iki gündü, yanındadısa telefonu ver danışım.

– Heç yaxşı deyiləm, sənə necə deyim bilmirəm? Nə deyim bilmirəm?

– Nə olub? Pis nəsə baş verib? Ürəyimi partlatma daha, de, Nərminə nəsə olub?

– Yox, heç nə olmayıb, əslində olub, amma, yəni sağlamlığında bir şey yoxdu, bunu sənə necə deyəcəyimi bilmirəm.

Əsəbiləşib:

– Daha de görüm nə deyirsən? Ürəyim partladı, nə olub? – deyə çığırdım.

Kövrək səslə dilləndi:

– Əlini tanıyırsan? Nərminin qrup yoldaşı Əli?

Səbirsizlənsəm də sakit tərzdə:

– Yox, nə olub ki? Onun bura nə əlaqəsi? – deyə soruşdum.

O günahkar kimi:

– Bir qulaq as da, Əli var idi ha, Nərminin ad gününə də gəlmişdi, arıq, qaraşın, sakit oturmuşdu hey... – danışdığında sözünü para qoyub çəmkirdim:

– Hə bildim, sözünün canın de daha.

Aytən ah çəkib:

– Məni bağışla, əlimdən bir şey gəlmədiyi üçün, olanı deyirəm, sakit olmağa çalış, xahiş edirəm, – dediyində ürəyimin döyüntüsün barmaq uclarımda hiss edərək sözünü yenə kəsib:

– Day deyəcəksən nə olub? Çərrətmə məni, de, – deyə ikinci dəfə üstünə bağırdım.

– Nərmin, Nərmin Əli ilə birlikdə olurdu haçandır, mən elə bilirdim onlar dostdu, yoxsa sənə deyərdim. Eh nəysə, uzatmayacam, Nərmin iki gün əvvəl axşam evdəki əşyalarını yığıb Əlinin maşınına qoyaraq çıxıb getdi. Niyə getdiklərini açıqlamağıma yəqin ki, ehtiyac yoxdu. Nə demək istədiyimi başa düş. Eşidirsən, Rasim, ordasan?

Onun sözlərin dinləyərkən sanki başımdan qaynar su tökürdülər, alnımın tərini silib dilimi yaşlayaraq:

– Hə, hə, eşidirəm, necə yəni Aytən?! Başa düşmədim! – dedim.

Aytən:

– Yəni Nərmin sənə xəyanət elədi, o Əli ilə birlikdə yaşamağı seçdi, – dediyində bütün bədənim keyləşdi, telefon əlimdən sürüşüb düşdü. Gözlərimdə qığılcımlar sayrışaraq ətrafı qaranlığa bürüdü

***

Gözlərimi açıb özümü divanla masanın arasında uzanmış vəziyyətdə tapdım. Başımın arxası möhkəmcə ağrıyırdı. Əlimin içi ilə başımın arxasını ovxaladıqda qəfil Aytənin dediyi sözləri xatırlayaraq telefonu götürüb son zəng etdiyim adamın kim olduğuna baxdım. Son danışdığım adam Aytən idi. Onunla bir dəqiqə iyirmi yeddi saniyə telefonda danışmışdım. Bu həqiqətə inana bilmədiyimdən zəng edib bir də danışdım və xatırladığım ən pis həqiqəti bir də eşitdim. Nə edəcəyimi bilmədim. Heç nə düşünə bilmirdim. Hərəkətsiz halda dayanmışdım. Sanki havasız, qaranlıq bir boşluqda sürüklənirdim. Hər tərəf zülmətə gömülmüş kimi idi, qığılcım qədər işığa möhtac qalmışdım. Əlimlə gicgahlarımı sıxır, düşdüyüm bataq-

lıqdan çıxmağa qapı axtarırdım. Hərəkət etdikcə daha da dərinə batırdım. Bu bataqlıqda tək qurtuluş yolu ölüm idi.

Ayağa qalxıb hamama keçdim. Aynanın önündən ülgüc qutusunu götürdüm. Qutudan birini çıxarıb ağır-ağır kağızını soydum. Sıra üz qırxmaq üçün istifadə edilən kəsici aləti damara çəkməyə gəlmişdi. Dərindən nəfəs alıb-verərək soyuq ülgücü asta-asta biləyimə yaxınlaşdırdım. Onu baş barmağımla işarə barmağımın arasında möhkəmcə sıxıb saxlamışdım. Ürəyim sürətlə çırpınırdı və bunu boğazımda hiss edə bilirdim. Göz yaşlarım axıb biləyimə damcılanırdı. Bir parlaq iti ülgücə, bir də sol biləyimə baxırdım, biləyimdəki göyümtül damarlara. Azacıq ağrıdan bir neçə saniyə sonra huşumu itirib qan gölməçəsində çırpınaraq öləcəkdim sadəcə. Amma buna ürək edə, cəhd edə bilmirdim. Çox düşündüm, kəsim, kəsməyim deyə. Fəqət qorxdum, bacarmadım. Ayıq başına canıma qıymağı bacarmadım. Ağlıma Səidə gəldi. Onun mənə məktubunda yazdığı:

– Qoyma heç barmağın cızılsın, barmağından axacaq hər damla qanda varam mən – sözlərini xatırladım. Həm Səidənin sözlərinə, həm də qorxduğuma görə ülgücü yerə atıb pulqabımı götürərək evdən çıxdım. Küçə başındakı böyük marketdən bir neçə

metrə ip, yeddi butulka aşırı spirtli pivə alaraq harasa tələsirmiş kimi evə qayıtdım. Pivənin birini açıb içməyə başladığımda anama zəng etdim. Anam telefonu açıb:

– Salam oğul balam, necəsən? – dedi.

Mən qəzəbli tərzdə:

– Hamısını sən elədin, sən elədin. Mən sənə dedim, mən dedim ki, ayrılmaq istəyirəm. Dedim sənə, sən nə dedin? Ağlayıb gözünün yaşın tökə-tökə yox bala, ayrılmayın, qızı bədbəxt eləmə, həyatın puç eləmə dedin. İndi yaxşı oldu? De mənə, indi yaxşı oldu? – bağıraraq danışdım.

Anam:

– Nə olub, a bala, nə olub sənə?

– Nə olacaq, fahişə Nərmin başqası ilə qaçıb, nə olacaq, bunu istəyirdin? – bağırdım.

Anam:

– A bala, de evim yıxılıb ki... – deyəndə telefonu söndürdüm. Zəng etdiyində də məşğula verdim. İkinci butulkanı içib qurtaranda qayınanam olacağını sandığım itə zəng edərək:

– Sənin fahişə qızın başqası ilə qaçıb, – dedim.

Onun:

– Fahişə anandı, it oğlu, – deyərək telefonu söndürməyindən hər şeydən xəbərdar olduğunu anla-

dım. Ardınca qayınatam olmaq istəyən oğraşa zəng vurub:

– Ay oğraş, sənin fahişən başqası ilə qaçıb, – dediyimdə o heç nə demədən telefonu üzümə söndürdü.

Dördüncü butulkanı bitirib ipi götürərək yazı masasının üzərinə çıxdım. Tavana asılmış çilçırağı bağlandığı zəncirdən çıxararaq yerə tulladım. Mətbəx qapısından düşən işıqla alaqaranlıq olan otağın tavanında ipi zəncirə keçirib düyün vuraraq bərk-bərk bağladım. Boynumu ipin həlqəsinə keçirdiyimdə bütün həyatım, atam, anam, qardaşım, qardaşım oğlu, dostlarım, qohumlarım, bütün tanışlarım, uşaqlıq xatirələrim gözümdə canlandı. Atamın mənə idman elətdirməsi, qardaşımla güləşdiyimiz vaxtlar, məktəbə getdiyim ilk gün, anamın danışdığı nağıllar... Uşaqlıda aynada gördüyüm əksimi xatırladım. Başımı əyib bütün bədənimə baxdım, ayaq barmaqlarımdan əllərimin içinə kimi. Çox dəyişilmişdim. Əllərim, ayaqlarım, əzələlərim böyümüşdü. Uşaq vaxtındakı 1.30 sm boylarındakı Rasim yox, 1.80 sm boylarında bir Rasim idim. Cismən güclü idim. Amma ruhum çox zəifləmişdi. Mənən aciz biri olmuşdum. Həyatla mübarizə apara bilməyən aciz biri. Ağlımdan saysız

fikirlər keçdiyindən və tam sərxoş olmadığımdan özümü öldürə bilmədim.

Boynumu həlqədən çıxarıb yenidən içki başına keçdim. Beşinci, altıncı və nəhayət yeddinci butulkanı mədəmə ötürüb aşa-aşa yerimdən qalxıb güclə masaya çıxdım. Artıq gözlərimin önündə yalnızca Nərminli xatirələr, gözlərimdə isə qan var idi. Boynumu həlqəyə keçirib masanı ayaqlarımla aşırmağa çalışdım. Masanı ayağımla silkələyir, silkələyir, aşırmağı bacarmırdım. "Lənət şeytana" – deyərək yenə boynumu həlqədən çıxarıb masadan endim. Mətbəxdən balaca oturacaq gətirərək masanı kənara çəkib oturacağı ipin altına qoydum. Oturacağa çıxmağa müvazinətimi tarazlaya bilməyib divanın üstünə, divanın üstündən oturacağın üstünə qalxdım. Həlqəni boynuma keçirdiyimdə qapı döyüldü.

Mən:

– Yox, bu dəfə bəhanə olmayacaq, – deyərək ipi sıxdığımda qapı möhkəmcə yumruqlanırdı. Oturacağı silkələdiyimdən saniyələr öncə qapının cəftəsinin əyildiyini və qapının açıldığını eşitdim, ardınca oturacağın döşəməyə çırpılaraq çıxardığı səsi. Boynumda ağrı, gözlərimdə qaraltı... Və kiminsə qışqırtısını bulanıq duydum.

***

Yenə qəzadakı tək qaranlıq, yenə qəzadakı tək anlaşılmazlıq və hərəkətsiz bir vücud vardı. Üzümə möhkəmcə şillələr çırpıldığın hiss edirdim. Alnıma, sinəmə çoxlu iynələr batırdı, buz kimi iynələr. Təkrar-təkrar şillə dəyir, ardınca iynələr batırdı. Dəyişiklik oldu, buz kimi iynələrin ardınca möhkəm soyuq küləklər əsdi. Üşüyürdüm. Gözlərimi açıb Raufun əksin gördüm. Əlindəki mavi dəsmalla sərin verirdi. Güclə eşidiləcək tonda:

– Rauf, – deyib sözə başladığımda öskürək danışmağıma aman vermədi. Boğazımda yanğı hiss edirdim, həlqənin yeri göynəyirdi. Rauf əlini suya batırıb alnıma, boynuma, sinəmə çəkərək:

– Özünü yorma, qardaş, – dedi.

Mən yenə boğazımdakı yanğı ilə dodaqlarımı tərpədib:

– Haradan çıxdın? – deyərək öskürəklə sözümü bitirdim.

Rauf dəsmalla sərin verərək:

– Elçin zəng etmişdi, tez sənin yanına gəlim deyə. Həyəcanla danışdı, mən də tələm-tələsik gəldim. Yaxşı ki qapı açıq idi. Bu nə axmaqlıqdı edirsən? Heç atanı, ananı fikirləşmədin?

– Nç-nç-nç, – dedi. Dodaqlarımı tərpədib danışmaq istədiyimdə öskürək boğdu. Rauf yenə əlini isladaraq üzümə-gözümə çəkib:

– Danışıb özünü yorma, oldu, keçdi daha, dur otur bir az, nə soruşsam azca başını tərpətsən kifayətdi, yaxşı? – dedi. Mən də onun sözünə astaca başımı aşağı-yuxarı tərpətdim. Birdən başım gicəlləndi və mədəm bulandı. İrəli əyilib evin ortasına qusdum, boğazım kəsilibmiş kimi göynədi. Öskürə-öskürə tüpürüb köynəyimin qolu ilə ağzımı sildim. Rauf ayağa qalxıb hamama keçdi. Deyəsən duşu açmışdı, suyun səsini eşidirdim. Bir az sonra yanıma qayıdıb qoluma girərək məni hamama apardı. Paltarlarımı çıxarmağa kömək edib vannaya salaraq çimizdirdi.

O anlar özümü balaca, anlamaz uşaq kimi hiss edirdim. Vannanın içində boynumu bükərək sakitcə oturmuşdum. Hərəkət etməyə halım yox idi, heç hərəkət etmək də istəmirdim. İntiharla ölməsəm də ölü kimi idim. Dostum dəsmal və yeni geyimlər gətirib məni qurulayıb geyindirərək yerimə apardı. Nə zaman yatdığımı bilmədim, səhər oyandığımda Rauf hələ də yanımda idi. Qonaq otağına keçib tavana baxdım. İp yerində yox idi. Deyəsən Rauf ipi açıb atmışdı, üstəlik döşəməni də silib təmizləmişdi. Ətraf çox sakit idi. O ankı ürək sıxıntısını zərrə qədər də olmasa zərrənin

zərrəsi qədər belə ifadə edə biləcək sözlər mövcud deyil, Tanrının təsəvvürü insan oğlunun şüurunda mövcud olmadığı kimi. Təsəvvürün mümkünsüzlüyü qədər özümü bədbəxt hiss edirdim. "Filankəs necə bədbəxt adamdı" sözünün mənasını o an anlamışdım mən.

Günorta qardaşım gəlmişdi. Evə girən kimi möhkəmcə qucaqlayıb o üzümdən-bu üzümdən öpmüşdü. Rauf çıxıb getmişdi, qardaşımla birlikdə qalmışdıq. Elə də çox danışmırdıq, sakitlik hökm sürməkdə davam edirdi. Zaman keçir, sakitlik böyüyür, otaq sıxılır, dünya kiçilirdi. Kimsə ilə danışmaq, kəlmə kəsmək, kimsə ilə üz-üzə gəlmək istəmirdim. İstəmirdim ki, bir qadına sahib çıxa bilməyən adamın üzünə kimsə baxsın. İstəmirdim ki, qadını əlindən alınmış yapalağı kimsə görsün. Kimsəyə baxmağa üzüm qalmamışdı. Nərminin ona etdiyim o qədər şeyi heç etməsi, məni ataraq başqasına getməsi, qadınımın məni aldatması çox ağır gəlirdi. Bu ağırlıq altında özümü ayaqlar altında qalıb əzilən böcəklər kimi hiss edirdim. Onun başqası ilə öpüşdüyünü, başqası ilə yatağa girdiyini düşündükcə özümü zibil kimi, heç kimi, yoxmuş kimi hiss edirdim. O kiminsə altında sikdirib həzz alırdı, mənsə əzab çəkirdim. Yaşamın ən ucuz və ən iyrənc əzabı ilə yaşamağı qüruruma sığışdıra bilmirdim.

***

Qardaşım mənimlə birlikdə artıq on yeddi gün idi ki, qalırdı. Danışdığımız sözləri bir araya yığsaq heç bircə səhifə etməzdi bəlkə. İyul ayının ortaları idi. Saat ya yeddiyə, ya da səkkizə qalırdı.

Qardaşıma:

– Çörək alıb gəlirəm, – deyərək düz-əməlli sürə bilmədiyim maşınımın açarını götürüb evdən çıxdım. Aytənə zəng edərək: – Salam, Aytən, necəsən? Səndən bir şey xahiş edəcəm, – dedim.

– Salam, Rasim, səsini eşitdim, yaxşı oldum, sağ ol, əlbəttə buyur.

– Xahişim odur ki, buruq baş gədə var idi ha, Firuz idi, kim idi, tələbə yoldaşın, onu zəng edib görüşə çağırasan. Bilirəm ki, mən desəm gəlməyəcək. Onunla işim var, xahiş edirəm, heç nə soruşmadan edəsən, səndən indiyədək heç nə istəməmişəm, amma bunu et.

– Yaxşı Rasim, inşallah qorxulu heç nə yoxdur, çağıraram, hara çağırım? – demişdi.

Aytənə Firuzu hansı məkana dəvət etməsi ilə bağlı məlumatları verib sağollaşdım. Bir az sonra Aytən zəng edib Firuzu dəvət elədiyi yerin adını dedi. Telefonumu söndürüb, məhəllə marketindən böyük bıçaq alıb maşınla yola düşdüm. On beş dəqiqəyə Aytənin dediyi məkana çatdım. Firuz yolun kənarında daya-

nıb saçı ilə oynayaraq yol gözləyirdi. Maşını onun yanında saxlayıb sağdakı ön qapının şüşəsini endirərək üzümə səmimi ifadə verib:

– Salam, qardaşım, necəsən? Nə var, nə yox, burda nə edirsən? – dedim. O məni görüb açıq şüşədən əlini içəri salaraq:

– Aaa... Salam, əzizim, yaxşıyam, sağ ol, sən necəsən?

– Mən də yaxşıyam, sağ ol, burda nə edirsən? Hara gedirsənsə aparım.

– Dostumu gözləyirəm, Aytəni, tanıyırsan da?

– Hə, niyə tanımıram, gəl otur maşında gözlə, bir az söhbət edək, çoxdandı görmürəm səni, darıxmışam.

– Narahat etmərəm ki, – deyərək keçib maşınımda əyləşdi. O qapını örtər-örtməz maşını qazla yerindən tərpətdim və üzümün ifadəsi dəyişdi. Firuz dəliyə dönüb qorxu içində:

– Aaa..., sən nə edirsən? Hara gedirsən? Saxla düşürəm, saxla, – dediyində maşını gözdən uzaq, kimsəsiz əraziyə sürürdüm. İynəyarpaq küknar ağacları ilə sıx, qaranlıq yerdə onu maşından düşürüb bıçaqla hədələyərək Nərminlə Əlinin yaşadığı evin adresini soruşdum.

– Allaha and olsun bilmirəm, vallah bilmirəm, burax gedim, qurban olum, – deyə mənə yalvardı. Onu

maşına söykəyib bir əlimlə köynəyinin yaxasından tutub bıçağı boğazına dayayaraq:

– Nərminə zəng edirsən, heç nə bildirmədən evinin adresin soruşursan, desə ″neynirsən?″, sən də deyərsən "darıxmışam, səni görmək istəyirəm, qonaq gəlmək istəyirəm", başa düşdün? Əgər nəsə bildirsən, hiss elətdirsən, – boğazına dayadığım bıçağı göstərərək, – başını bu bıçaqla üzəcəm, qoyun kimi çapalayıb öləcəksən, heç səsini də çıxara bilməyəcəksən. Başa düşdün? – dedim.

O qorxub:

– Hə, hə, ba... ba... başa düşdüm, – deyə pəltəkləyərək Nərminin yeni nömrəsinə zəng vurub danışdı. Aralarındakı uzun söhbətdən, Firuzun darıxmaq, qonaq gəlmək haqda yalanlarından sonra Nərmin evinin adresini deyib Firuzla sağollaşdı. Adresi dəqiqləşdirmək üçün Firuza:

– Nərminə təzədən zəng et, de ki, whatsappdan sənə mövqeyin[1] yollasın, yenə də əvvəlki kimi danışırsan, – dedim. O yenə Nərminə zəng edərək mənim dediklərimi təkrarladı. Firuzun əlindən telefonun alıb whatsapp proqramın açdım. Bir neçə saniyə sonra Nərmin evin mövqeyini yolladı. Firuzun telefonunu cibimə qoyub, özünü də kimsəsiz yerdə atıb xəritədə

[1] Xəritə üzərində koordinat.

göstərilən adresə doğru yola düşdüm. Telefonun göstərişləri ilə Bakıxanova – mövqe göndərilən ünvana çatdım.

Önümdə qırmızı kərpicdən hörülmüş üç mərtəbə, qara damında yuvarlaq pəncərələri olan böyük bir ev ucalırdı. Ətrafına çəkilmiş üç metr hündürlükdə hasarla şəhərdəki əksər evlərdən fərqli dizaynda tikilmiş ev qala kimi görünürdü. Maşını hasarın yanında saxlayıb üstünə çıxdım. Maşının üstündən də hasara atıldım. Hasara əllərimi atdığımda üstünə çəkilmiş xırda şüşələr əllərimi doğrayaraq göynətdi. Ağrılara baxmayaraq hasarın üstünə dırmanmağı, oradan da həyətə girməyi bacardım. Həyət bütün simmetrik düzülmüş qırmızı və qara rəngli kafel döşəmədən, hasar kənarı səliqə ilə dördkünc formada budanmış şam ağaclarından və kiçik klassik üslublu işıqlandırıcılardan ibarət idi. Bir də həyətin ortasında qara rəngli “BMW X6” vardı. Maşının kapotuna tüpürərək yanından keçib evin üzərində qar kristallarına bənzər qızılı rəng ornamentləri olan dəmirdən böyük giriş qapısına yaxınlaşdım. Giriş qapısının yaxınlığındakı şam ağacının dibindən yaş torpaq götürüb qapının gözlüyünə sürtdüm. Gözlük palçıqla tamamilə tutulduğunda qapı zəngini bir neçə dəfə vurdum. Astadan addım səslərinin qapıya yaxınlaşdığını eşidirdim.

***

Qapının digər üzündə cavan, həm də tanış bir səs:

– Kimdi? – dedi.

Azca səsimi boğaraq:

– Mənəm, tanımadın? – dedim.

– Yox, kimdi ki?

– Sən canın ələ salma məni, mənəm də, qapını aç, – deyəndən sonra cəftənin dartılaraq açıldığı zaman çıxardığı sürtünmə səsini eşitdim və ardınca qapı aralandı. Qapıda düşmən sifətindən çaşmış halda üzərimə zillənən iki qara göz var idi. Qapını açmasına peşman olmuş, əldən-ayaqdan düşmüş, lal kimi durub, canavarı görmüş qoyun kimi baxırdı. Bir addım geriyə çəkildiyində cəld kəmərimə keçirdiyim bıçağı çıxararaq var qüvvətimlə qarnına sapladım. Bıçaq yarımqol köynəyini asanlıqla dəlib qarnını deşdiyində ağzını qocaman açıb nəfəsini çəkərək gözlərini bərəltdi, başını aşağı əyib bıçağın sancıldığı nahiyəyə baxdı və astaca başını qaldırıb yazıqcasına yalvaran gözlərini gözlərimə zillədi. Dişlərimi bir-birinə sıxıb gözünün içinə baxa-baxa nifrətlə bıçağı çıxarıb bir də sancdım. O uzaqlaşıb qurtulmağa çalışarkən sol əlimlə sağ çiyninin arxasından tutaraq bıçaqla avtomat kimi işləyir, durmadan zərbələr endirirdim. Qarnına, mədəsinə, çiyninə, əllərinə. Bıçaq durma-

dan, dayanmadan irəli gedir, geri qayıdır və yenidən sancılırdı. O əli ilə müqavimət göstərdiyində bıçağı əlinin içinə saplamışdım. Barmaqlarından biri üzülüb dərisindən sallanırdı. Onun murdar və isti qanı əllərimə bulaşdığında belə durmadım. Zərbələri vurduqca həzz alaraq ağrılarımı, əzablarımı çıxarırdım. Onu qorapalan[1] kimi deşik-deşik etmişdim. Zarıyaraq döşəməyə uzanıb qan gölməçəsində çapaladığında:

– Canım, kimdi gələn? – sözünü eşidərək başımı qaldırıb növbəti qatilimə, növbəti qurbanıma baxdım. Qatilim gözümün önündə dayanmışdı. O da yeni sevgilisi kimi lal olub qorxularını əks etdirən gözlərini üzərimə zilləmişdi. Ayağa qalxıb ağır-ağır caniyə sarı addımladığımda əlimdə tutduğum bıçaqdan, barmaqlarımdan Əlinin qanı süzülüb yerə damcılayırdı. Onun üzərinə getdikcə o geriyə addımlayır, islanmış cücə kimi yığılırdı. Axırı divara dirənib dayandı. Yerə çömbəlib əllərini üzünə tutaraq için-için ağladı. Zülmətdə belə görünə biləcək qəzəbimlə, əlimdə tutduğum qanlı bıçaqla tələsmədən ağır addımlarla üzərinə gedirdim. Sol əlimlə boğazından yapışıb çömbəldiyi küncdə divara sıxa-sıxa ayağa qaldırdım. Boğazını möhkəmcə sıxdığımdan onun gözləri, sifəti getdikcə qızarırdı, nəfəsi tükəndiyindən qolumu

[1] Plovsüzən.

dartıb cırmaqlayaraq canın qurtarmağa çalışırdı. Ah çəkib tüpürə-tüpürə:

– Niyə aldatdın məni? – deyə bağırdım. O səsini çıxarmayıb ağladığından ikinci dəfə – niyə aldatdın məni? – Deyə bağırıb başını zərblə divara çırpdım. Dili topuq vuraraq:

– Sən də, sən də aldatmışdın məni, – deyib yenə ağladı.

Daha da qəzəblənib:

– Sən xəyanətə xəyanətlə cavab verən fahişəsən, satılmış fahişə, – deyə bağırdım.

O ağlayaraq:

– Elə fikirləşirdin ki, xəyanətini bağışlayacam? Hər şey eləcə bitəcək? – dedi.

Dişlərimi qıcıyaraq:

– Buna görə etmisən guya? Günlər öncə elə fikirləşirdim ki, xəyanəti bağışlayacaq qədər böyük birisən. Sən demə, sən satılacaq qədər kiçik imişsən, alçaqlıq simvolu imişsən. Tüpürüm sənə. Tüpürüm sənin qadınlığına. Hər şey sənin istədiyin kimi də bitməyəcək. Bunu da lazımsız olacaq başına sox ki, xəyanət etdiyimə görə yox, sərvətə, pula görə xəyanət etdiyini bilirəm, kor deyiləm! – deyə çığırdım.

Saçlarından tutub ayağına badalaq vuraraq üzü üstə döşəməyə uzatdım. Bıçağı hulqumuna dayayıb

düşünmədən möhkəmcə yuxarı çəkdim. Bıçaq onun boyun sümüyünə dirənib dayandı. Qanı təzyiqlə bütün ətrafa, divara, tavana, yerə-göyə sıçradığında o başı kəsilmiş canı çıxan toyuq kimi çapalayırdı. Saçlarını buraxıb ayağa qalxaraq sağa-sola çırpınaraq qıvrılmasını izlədim. 15-20 saniyə sonra onun çırpınan zərif vücudu hərəkətsiz qaldı. Bir vaxtlar at quyruğuna bənzər yığdığı qəhvəyi saçı, baxmaqdan doymadığım üzü, üzünə gözəllik qatan eynəyi tamam qana batmışdı. Diz üstə əyilib qara rəng böyük yarı-oval formalı kauçuk çərçivəli eynəyini yerdən götürüb əlimdə sıxaraq gözlərinə baxdım, caninin gözlərinə. Yumulmamışdı. O qatil gözlər bərələrək mənə baxırdı, o ölü gözlərdə keçirdiyi ağrı, duyduğu qorxu alov tək bərq vururdu.

İçimdə heç yaşamadığım, heç bilmədiyim əcaib bir hiss yarandı. Mərhəmət, nifrət, sevgi və məyusluq qarışığı bir hiss. Özümdən asılı olmadan gözümdən yaş axmağa başladı. Bıçaq əlimdən sürüşüb düşdü. Qanlı əllərimi üzümə tutaraq hönkürə-hönkürə ağladım orda, zamanın fərqinə varmadan, bəlkə beş dəqiqə, bəlkə bir saat. Dizlərimi yerdən götürüb ayağa qalxaraq asta addımlarla evdən həyətə çıxdım. Bağlı darvazanın cəftəsini açıb keçərək maşına əyləşdim. Maşını sürətlə sürərək birbaşa Əcəmiyə, evimə qayıtdım. Evə

girdiyimdə qardaşım qulağında telefon otaqda var-gəl edirdi. Üst-başım qana bulaşmış halda gördüyündə həyəcanla:

– Nə olub sənə, nə olub sənə? – deyərək üstümə cumdu.

Mən:

– Öldürdüm, ikisini də öldürdüm, – deyə cavab verdim.

Qardaşım qucaqlayıb:

– Neynədin sən, ay bədbəxt, neynədin sən? – deyərək ağladığında mən sayıqlayaraq:

– Öldürdüm, ikisini də öldürdüm, öldürdüm, öldürdüm, – deyirdim. O məni duşa salıb bütün paltarlarımı əynimdən çıxardı. Yaş əsgi ilə üzümü silərək:

– Tez ol, tez ol, aparacam səni, aparacam burdan, heç kim tapa bilməyəcək, – kimi sözlər söylədiyində can verən balıq tək ağzımı açıb-yumurdum. O mənə quru paltar geyindirəndə nəhayət dilləndim:

– Heç yerə getməyəcəm.

Qardaşım əsəblə:

– Necə yəni getməyəcəm?! Tez ol, geyin deyirəm, – dedi.

Sakit tərzdə heç nə olmamış kimi:

– Yox qardaş, mən heç yerə getməyəcəm, ömrü boyu gizlənərək yaşamaq istəmirəm, tutacaqlar, tut-

sunlar, amma heç yerə getməyəcəm, qaçıb gizlənmək istəmirəm, başa düşürsən məni? Qaçıb gizlənmək istəmirəm. Daha nə ölməyimin, nə də yaşamağımın mənası var. Nə olacaqsa olsun.

– Sənin ağlın başında deyil, ömrünün yarısın içəridə çürüdəcəksən, ay bədbəxt, bunu istəyirsən? Nə danışdığını bilirsən? Bu cavan yaşını içəridə çürütmək istəyirsən? Bilirsən birdə nə vaxt çıxacaqsan çölə? Bilirsən?... Saçın, saqqalın ağaranda, qocalanda, onda da çıxıb görəcəksən nə anan qalıb, nə atan. Bütün tay-tuşlarının boyu böyüklükdə oğlu olanda sən içəridə çürüyəcəksən. Başa düşürsən məni? Bizə yazığın gəlmir sənin? Bir gör nə etmisən? Səni Rusiyaya, dostlarımın yanına göndərəcəm, yaşayarsan, qalarsan orda, evlənərsən, uşaqların olar. Biz sənin yanına gəlib-gedərik, heç kim tapa bilməz səni orda, heç kim. Yaşayarsan özün üçün necə istəyirsən.

– Yox, getməyəcəm, özünü yorma boşuna, qərarım qətidir. Hər şeyi gözəl başa düşürəm, hər şeyi gözə almışam, qaçmayacam. İçəridən qocalıb çıxsam da, içəridə çürüsəm də qaçmayacam, – dedim.

Qardaşım ağlayıb yalvarmaqda davam etsə də fikrimdən daşındıra bilmədi. Gözlərimizi bir nöqtəyə zilləyərək lal-dinməz səssizcə divanda oturmuşduq. Bu səssizliyi qapı tıqqıltısı pozdu. Ayağa qalxıb qapı-

nı açmağa getdiyimdə qardaşım qolumdan tutub yazıqca:

– Açma, – deyərək boynunu bükdü.

Qapı yenidən döyüldü və qapı arxasındakı adam:

– Evdə kimsə var? Polisdir, qapını açın! – deyə səsləndi. Qardaşımın əllərindən qolumu astaca çəkib, – axır-əvvəl açmalıyıq, – deyərək qapıya sarı getdiyimdə qardaşım çörəyi əlindən alınmış yetim uşaq kimi arxamca baxırdı.

Qapını açdığımda Firuz:

– Budur, Rasimdir, – deyə hündür boy, möhkəm əzələli polislərə qorxa-qorxa məni göstərdi. Onlar qapının ağzında qolumu qandallayıb pilləkənlərlə aşağı düşürdükdə qardaşım çarəsizcə ağlayırdı. Polislər məni qolu qandallı blokun önündə saxladıqları "Fiat" markalı PPX maşınına saldıqda bina sakinləri pəncərələrdən boylanaraq maraqla olub-bitənləri izləyirdi. Maşın hərəkət etdiyində dəmir şəbəkəli pəncərəsinə başımı söykəyərək qardaşıma baxırdım. O blokun önündə dizi üstə çöküb əlləri ilə bərk-bərk qucaqladığı başını aşağı-yuxarı yellədirdi. Barmaqlıqlar arxasında işıqlı yolları seyr etdirərək bölməyə apardılar.

Törətdiyim cinayətlə bağlı istintaqın gedişatında müstəntiqin hər hansı sualın cavabsız qoymadan, yalan demədən cavabladım, nə səbəbə etdiyimi, har-

da necə öldürdüyümü, niyyətimi, məqsədimi bütün təfərrüatı ilə. Bir də onda ayıldım ki, məhkəmədə barmaqlıqlar arxasından azadlıqdakı insanlara baxıram. Məhkəmədə Əlinin və Nərminin valideynləri söyüşlər qalmır, yağdırırdılar. Mənsə sakitcə onlara baxırdım. Ailəmdən sadəcə qardaşım vardı məhkəmədə. Qardaşım da boynunu büküb yazıq-yazıq mənə baxırdı. Dostum Rauf da onun yanında əyləşib heç nə ifadə etməyən gözlərini üzərimə zilləmişdi. O gün dövlət ittihamçısı elə gözəl ittiham edirdi ki, özüm-özümə nifrət edirdim.

Sonuncu məhkəmədə hökm oxundu. Ömürlük azadlıqdan məhrum etmə. Dövlətə zərər verən, kimsəyə xeyri olmayan bir məxluqa dönüşdürdü məni o ittiham hökmü. Həyatın müqəddəratını həll edən hökm. Sözlərin qüdrətini, sözün hökmünü o zaman anladım və onu da anladım ki, onu kimin dediyindən də çox şey asılıdır. Danışan dağdırsa sözü də zirvədir. Hökmün oxunması ilə qardaşımın gözündən yaş sel kimi axdı, Əli və Nərminin valideynlərisə az da olsa toxtamışdılar. Mən heç nə barəsində düşünmürdüm. Göz qapaqlarımı qırpmaqdan başqa hərəkət etmirdim. Məhkəmə bitdi və mənim həbsxana həyatım başladı. Barmaqlıqlar arxasında olduğum qırx birinci gün atamın öldüyünü öyrəndim.

***

Atam adam öldürdüyümü, məni polislərin apardığını öyrəndiyi zaman ürəyin tutub ölübmüş. Mənimsə bundan aylar sonra xəbərim olmuşdu. Atam haqqında düşünüb ağlamaqdan başqa əlimdən heç nə gəlmirdi. Daha onu geri qaytara, onunla kəlmə kəsə bilməyəcəkdim. Uşaqlıq illəri, atamla birlikdə keçirdiyim vaxtlar yadıma düşdükcə bağrım odlanırdı. O zamanlar atam cavan, iri cüssəli, möhkəm əzələli, saçı-saqqalı qapqara bir kişi idi. Ailəsini, millətini çox sevən, ürəyi təmiz və yumşaq, dildən acı bir adam idi, bəzən qəzəbli, anlaşılmayacaq dərəcədə mürəkkəb, bəzən mehriban, su tək şəffaf. Adətən susqun olar, şəxsi problemlərindən söz açmaz, dərdini bölüşməkdə çətinlik çəkərdi, kefsiz olduğunda nə anam, nə qardaşım, nə də mən ondan söz ala, səbəbin öyrənə bilərdik. Mingəçevirlilərin "dəniz" dediyi, atamla birgə getdiyimiz Mingəçevir Su Anbarındakı günlər atamın bizə olan sevgisini gizlətməzdi.

Hər dəfə qardaşımla dənizə girəndə atam da bizimlə birlikdə dənizə girər, bizim yanımızda üzərdi. Heç zaman bizi irəliyə getməyə qoymazdı. Qorxardı. Boğulmağımızdan, bizi itirməkdən qorxardı. Hələ dənizə gəlib çatmamış yol boyu boğulub ölənlərdən danışar, irəliyə üzməkdən çəkindirərdi. Bir dəfəsində

dənizdə olduğumuz vaxt bir uşağın cansız bədənin sudan çıxarmışdılar. Atam ondan sonra həmin il qardaşımla məni dənizə aparmadı. Növbəti il də bizi dənizə aparmaqdan imtina etmişdi. Ancaq üçüncü ili dənizə getməyə müvəffəq olmuşduq. O qardaşımla məni çox sevirdi. Heç zaman bizi sevdiyini dili ilə söyləməsə də mən bunu hiss edirdim. Atam heç vaxt sevgisini ifadə etməyi bacarmamışdı. Düşündükcə boğulurdum. Keçən günləri xatırladıqca boğulurdum.

"Həyata bax... mən içəridəyəm, atam torpaq altda, anam, qardaşım pərişan halda, kaş dənizdən çıxarılan cansız uşaq bədənlərindən biri də mən olaydım" – deyə düşünürdüm, atamı çəkinib utandığımdan ürəyim istədiyində qucaqlamadığıma görə peşman olmuşdum, bir ömür utancaqlığı bəhanə edərək doyunca sarıla bilməmişdim heç. Uydurma bəhanələrlə peşman olacağımı çox gec anlamışdım, artıq çəkinərək sarılmadığım sevdiyim insan həyatda yox idi. Nərmin həyatıma girib çıxana kimi həyatımı məhv etməyi bacarmışdı. Mən məhv olmuş, uçulmuş, xaraba qalmış şəhərə dönmüşdüm. Nüvə partlayışından çıxmış bir şəhərə. Kimsənin yaşayıb radiasiyaya məruz qalmaq istəməyəcəyi şəhərə. Dörd divar arasındakı xaraba qalmış şəhərə anası, qardaşı və dostundan başqa kimsə ziyarətə gəlmirdi.

İçəridəki həyat çöldəki qədər ürək açan deyildi. Hər istədiyini edə bilmirdin. Hər gün müəyyən olunmuş vaxtda yemək yeməli, müəyyən olunmuş vaxtda yatmalı idin. Həbsxananın daxili nizamnaməsinə əməl etməli, növbətçiləri dinləməli idin. Özləri istədiyi vaxtda səni həbsxananın həyətinə aparır, istədikləri vaxt içəri göndərirdilər. Azadlığım üçün, azadlıqda etdiklərim üçün, azadlıqdakılar üçün yamanca darıxmışdım. Günlər keçmək bilmirdi. Günləri, bəzən saatları, bəzən dəqiqələri saymışdım. Ömürlük həbs olunduğumu xatırlayaraq zamanı ölçdüyümün mənasız olduğunun fərqinə vararaq buna son vermişdim. Altmış səkkiz gün on yeddi saat saydığım sonuncu vaxt oldu.

Gündəlik məşğuliyyətim yeməkdən, çaydan, idmandan və siqaretdən ibarət idi, əgər tualetə getməyi saymasaq. Bunlardan savayı etdiyim yatmaq idi. Hər gecə cinayətkarlarla birgə yatırdım, qanunun qoyduğu adla: cinayətkarlarla, qatillərlə. O insanların əksəriyyətinə cinayətkar, qatil gözü ilə yox, zərərçəkmiş gözü ilə, yaralı gözü ilə baxırdım. O yaralılardan biri də on üç il öncə həbs olunmuş, qırış-qırış üzündən, solğun gözlərindən dərd oxunan ağsaqqal idi. Taleyi qaralanmış ağsaqqal yeznəsini qətlə yetirdiyindən məhkum edilmişdi. Onun qətlə yetirdi-

yi yeznəsi arvadını, ağsaqqalın bircə övladı olan qızını yeməyi gec gətirdiyinə görə döyə-döyə öldürmüşdü. Ağsaqqal da yeznəsini qoşalülə tüfənglə qorapalan etmişdi. Ağsaqqal atalıq instinkti ilə etdiyi hərəkətə görə azadlıqdan məhrum edilmişdi. Ədalət hökmü atanı azadlıqdan yox, övladdan məhrum etmişdi sanki. Bu adamın həbs edilməsini "ədalət" – deyə qəbul edə bilmirdim. Fəqət bütün həbs olunmuşlar ağsaqqal kimi də deyildi. Orada hər cürə adamlar var idi. Qarışqanı fil eləyib adam öldürənlər, elə filin özünə görə adam öldürənlər, söyüşə, qisasa, xəyanətə görə adam öldürənlər var idi. Elə məhbuslar var idi ki, ömrünün qırx üçüncü ilini içəridə keçirirdi.

***

Həbsxanaya düşdüyüm ilk gündən üç ay keçərdi, Rauf görüşə gəlmişdi. Görüşdə o mənə

– Sənin xəbərin var ki, deşik-deşik etdiyin adam ölməyib, xəstəxanadan sağ-salamat çıxıb? – dedi.

Mən duyduğumdan təəccüblənib mat-mat onun üzünə baxaraq:

– Yox əşi, həqiqi deyirsən? – dedim.

– Hə, üç həftə bundan öncə gördüm, sən dediyin maşın vardı ha, "BMW X6", həmin maşının içində gördüm, nömrəsinə belə baxdım, yüz faiz o idi.

– Sən hardan tanıyırsan Əlini, gördüm o idi deyirsən?

– Yadından çıxıb? O vaxt mənə telefonda şəklin göstərmişdin, onu vurmamışdan günlər öncə.

– Hə, hə, yadıma düşdü, var-yoxuna lənət olmuş ölməyib demək, it kimi neçə canı var onun? Elə bil doqquz canı var.

– Daha səkkizi qalır.

– O da qalmayacaq, canın alacam onun, səkkizin də alacam, canı çıxmalıdır onun, başa düşürsən məni, Rauf? O alçaq, şərəfsiz ölməlidir.

– Başa düşürəm, ancaq necə? Mən öldürüm onu? Bunu istəyirsən? – Ətrafa baxaraq işarə barmağımı ağzına tutub:

– Astadan danış. Yox, bunu istəmirəm, onu özüm öldürmək istəyirəm, amma sənə ehtiyacım olacaq, səndən başqa da yeddi-səkkiz nəfər sirr tuta bilənə. – dedim.

– Necə olacaq? Mən hələ anlamamışam söhbəti, nə etməli olduğumu bilmirəm axı.

– Gələn görüşə gəl, sənə planı şəkilli verəcəm, bütün məlumatları da göstərəcəm, bir az vaxt lazımdı sadəcə, o vaxta kimi dediyim qədər adamları tap.

– Yaxşı, taparam, amma nə edəcəyimizi desəydin yaxşı olardı.

– Vaxtı çatsın, məndən də yaxşı sən biləcəksən, darıxma... Tapacağın adamlar razı olmaq istəməsələr min manat vəd edərsən, ona da razılaşmasalar iki min manat, – dedim.

Qalan görüş vaxtını dərdləşərək bitirib sağollaşdıq.

Sabahı gündən planı qurmaq üçün işlərə başladım. Həbsxana hasarlarının kənarı ilə addımlayır, ölçü götürürdüm. Ölçü dəqiq olsun deyə ayaqlarımın arasına köynəyimdən açdığım nazik boz rəngli iplər bağlamışdım. Kənardan nəzərə çarpmayacaq qədər nazik iplər idi. Başlanğıc nöqtəsini düşünmüşdüm, amma son nöqtəni tapmaqda çətinlik çəkirdim. Günlər keçdikcə bütün ölçüləri çıxarır, yazır, pozur, plan qururdum. Raufla görüşə beşcə gün qala həbsxana həyətində dolaşdığımda məhbuslardan biri ilə mübahisəm yarandı. Həbsxana həyəti ortasında tozu-dumana qatmışdım, dustaqların əksəriyyəti bizi ayırmayıb kimin döyəcəyini gözləyirdi. Həbsxana nəzarətçiləri qaça-qaça gəlib ikimizin də qolunu qatlayaraq ayrı-ayrı qaranlıq kameralara atdılar.

Kamera rütubətli və soyuq idi. İçəridən qəribə qoxu gəlirdi. Qırx altı saatımı həmin rütubətli kameranın içində keçirərək itirmişdim. Raufla görüşə sadəcə üç gün qalmışdı. Buna görə də planı yazmalı, çəkməli, bitirməli idim. Hər xəlvət olanda bir list dama-dama

dəftər səhifəsi üzərində işlədiyim planı gizlətdiyim yerdən çıxarır, düzəliş edir, yenidən yerinə qoyurdum. Raufla görüşə bir gün qala planı hazır vəziyyətə gətirmişdim.

Həbsə düşməmişdən öncə qardaşımın dediklərini dinləməmişdim deyə peşman olmuşdum. Sonrakı ağılla oturub qaçmaq üçün plan hazırlamağıma səbəb Əli olmuşdu. "Mən içəridə əziyyət çəkim, o isə kef çəksin, heç ədalətli görsənmirdi..." – kimi fikirlərlə sabah oldu. Raufla görüşdə plan çəkilmiş vərəqi xəlvəti ona ötürdüm. O bükülü kağızı ona söylədiyim kimi, qara rəngli enli kəmərinin görünməyən üzündə uzununa tikdiyi gizli cibə bənzər qara parçada gizlətdi. İkimizin adına saxta vəsiqələr çıxarması barədə tapşırığımın ardınca adi məişət söhbətləri ilə görüş vaxtını bitirdik.

Hesablamağıma görə otuz yeddi gün sonra azadlıqda olmalı idim. Azadlığa çıxacağım gecə Əlini öldürüb Rusiyaya qaçacaqdım. Günlərin keçməsini səbirsizliklə gözləyirdim. Qaçış planı barədə içəridən kimsəyə danışmamışdım. Özümlə güclə bacarırdım. Az qalırdı ki, söhbət elədiyim zaman dustaqlardan kiməsə bunu danışım. Amma özümü sıxır, casusların ola biləcəyindən qorxub heç nə danışmırdım. Planı Raufa verdiyim günün üstündən otuz bir gün keçmiş-

di. Rauf görüşdə: “Dəqiq hesablamısansa cəmi bircə günlük iş qalıb, sabah işləri bitirəcəyik” – demişdi.

Onlar mənim düşündüyümdən də sürətli işləmişdilər. Azadlığa çıxacağım vaxta saatlar qalmışdı. Azadlığa saatlar qala məhbuslardan cılız, balaca boy, cavan biri ilə mübahisə etdim. Növbətçilər yenə məni rütubətli kameraya aparırdılar. Onlar məni kameraya salanda mən onların əlindən çıxmağa çalışaraq: “Bura salmayın məni, buraxın, qələt eləmişəm, salmayın bura məni, qorxuram burdan” – deyə bağırırdım. Növbətçilərdən biri arxamdan təpik vurub kameraya ataraq qapını itələyib bağladı. Axşamçağı idi. Ürəyim həyəcanla döyünürdü. Oturub elə hey fikirləşirdim. Rütubətli, qaranlıq kameranın döşəməsinə baxırdım. Qaranlığa gözüm o qədər öyrəşmişdi ki, kamera divarlarındakı cızıqları görə bilirdim. Bəzi məhbuslar divara adını yazmışdı, bəziləri isə söyüş.

Gecə saat üçə işləyirdi, hər kəs yatmışdı. Həbsxanadan nə bir insan səsi, nə də başqa bir canlı səsi eşidilirdi. Azca da olsa səs eşitmək üçün qulaqlarımı şəkləyərək oturub səbirsizliklə Raufu gözlədiyimdə qara damlı böyük evə gedib Əlini necə öldürəcəyimi düşünürdüm.

***

Saatlar sonra azadlıqda idim artıq. Raufla birgə saat dördə işləmiş yola düşmüşdük. Maşını 130–140 km/saatla sürərək birbaşa Bakıxanova, Əlini bıçaqladığım evə gedirdik. Bu dəfəki silahım bıçaq yox, balaca bir tapança idi. Rauf bu tapançanı dostları vasitəsi ilə qeyri-qanuni yollarla əldə etmişdi. Üzərində cəmi beş güllə vardı. Beş güllə Əlini öldürmək üçün tamam kifayət edərdi. Saat beşin yarısı həmin evin önünə çatdıq. Raufa:

– Maşını hasarın yanına ver saxla, burada gözlə, indicə qayıdıram, – dedim.

O, maşını hasarın kənarına sürərkən arxa oturacağa qoyulmuş fəhlə əlcəklərini götürüb əlimə geyinirdim. Birinci dəfə etdiyim kimi maşının üzərinə dırmaşdım. Tapançanın arxası ilə hasarın üzərinə düzülmüş şüşələrdən bir neçəsini sındırdım. Bu dəfə əlimi doğramadan həyətə girməyi bacarmışdım. Evin ətrafında dolanıb səssiz-səmirsiz evə girmək üçün alternativ axtardım. Axtardığımı günəşin doğuşunu seyr etmək üçün tikilmiş yerə ucalan təbiətdə tapdım. Evin balkonuna çıxa biləcəyim böyük bir ağac vardı. Ağacın qol-budağına tutunaraq dırmanıb üzərindən balkona sıçradım.

Balkona açılan plastmas qapı kilidli olmadığından rahatca evə girib yavaş-yavaş otaqları gəzdim. Divar-

larında qızılı rəng divar kağızı olan, balkon qapısı yanında boz örtüklü dairəvi divan qarşısına böyük plazma televizor qoyulmuş, tavanından klassik üslublu çilçıraqlar asılmış ikinci mərtəbədəki uzun və enli koridorda dördüncü otağa girdiyimdə onu tapdım. O stolüstü lampanın işıqlandırdığı alaqaranlıq otaqda sarışın bir qızla xorul-xorul yatırdı. Yatdıqları böyük çarpayının yanındakı çəkməcənin üzərində yarım butulka Jack Daniels, iki qədəh, içi filtr dolu külqabı və bunlardan əlavə istifadə edilməmiş bir ədəd qoruyucu vardı. İkisini də istifadə eləyib yerə atmışdılar. Yatağın ətrafı nəm salfet ilə dolu idi. Gördüyüm qədəri ilə o Nərmini əvəzləyəcək birini tapmışdı.

Asta addımlarla düz gəlib başı üzərində dayandım. Ağzının iyi burnumu iflic eləmişdi. Başının altından yumşaq balışı çəkib götürdüyümdə o yuxulu-yuxulu gözlərini açıb mənə baxdı. Sonra yenə gözlərini yumub yatdı. Balışı üzünə dayayıb tapançanı balışa söykəyərək vaxt itirmədən tətiyi çəkdim. Yanında uzanan qız səsə dik atıldı. Çığırmağa başlayırdı ki, onunda əllərini tutub balışı üzünə dirədim. O qolları ilə barmaqlarımı cırır, nəfəs ala bilməyib çırpınırdı. Silahı dayayıb ikinci dəfə tətiyini sıxdım. Sarışının yeni yetişməyə başlayan məmələrini və ağ mələfəni al-qana bulayaraq otağı tərk etdim. Üzərinə kafel vu-

rulmuş beton pilləkənlə aşağı enib Nərminin başını kəsdiyim yerdən keçərək ornamentli giriş qapısından bayıra çıxdım. Darvazadan keçib maşına əyləşərək ordan uzaqlaşdıq. Gecə ilə Rauf sürdüyü maşını aparıb sahibinə qaytardı.

***

İki gün sonra gəmi ilə ölkəni tərk edəcəkdik. Bu vaxt ərzində qohum, dost evlərinə, atamın məzarını ziyarətə belə getməyib gizləndik. Polislərə, bizi tanıyanlara görünməməli idik. Həmin iki günü enliyarpaq palıd ağacları ilə sıx olan meşədə gizlənmiş, Raufun öncədən aldığı bir bel çantası qədər balıq və ət konservlərindən yeyərək vaxt keçirmişdik. Bu vaxt keçdikdən sonra saxta vəsiqələrlə gəmi vasitəsi ilə Qazaxıstana üzdük. Saxta sənədlərdə mənim yeni adım Elşən, Raufunsa Surac idi. Yeni adıma öyrənişmək bir az çətin olsa da, gəmi ilə səyahət etmək qədər çətin olmadı. Dənizdəki qeyri-qanuni səyahət məni tamam əldən salmışdı. Gəmiləngər vurduqca başım gicəllənir, ürəyim bulanırdı. Bir neçə dəfə Xəzərin canlar almış sularına qusmuşdum. O qədər öyümüşdüm ki, gözlərim qızarmışdı. Mədəmdə bir şey qalmasa da zəhrimara qalmış hey bulanırdı.

Ayağım Qazaxıstan torpağına dəyəndə ürəyim sakitləşdi. Aktau şəhərinə yaxın sahilə çıxıb 22 saat-

dan çox maşınla şimala doğru yol getdik. Qazaxıstanda bir həftə boyu qalmağa məcbur qalmışdıq. Bizi Rusiya sərhədindən keçirəcək bələdçi: "Sərhədlərdə güclü nəzarət var, hələ gözləməliyik, fürsət olan kimi yola düşəcəyik", – demişdi. Mən də: "Porsuq kimi o qədər yer qazıb həbsdən qaçmışam, sərhəddə tutulmaq, təzədən ora qayıtmaq fikrim yoxdu" – demişdim. Bir həftə Rusiya sərhədinə yaxın bir kənddən iki kilometr aralıda taxtadan damı olan, çiy kərpicdən düzəldilmiş, çatlaq divarlarına palçıq çəkilmiş olduqca köhnə və balaca evdə gecələdik. Rauf və məndən başqa altı-yeddi adam bizimlə birlikdə həmin evdə qeyri-qanuni Rusiyaya keçmək üçün gözləyirdi. Evdən çölə tualetə getməkdən savayı çıxmazdıq. Evdə siqaret çəkməkdən göz-gözü görmürdü. O evdə olduğumuzda Rauf mənə:

– Qazmağa kömək edən adamların hərəsinə üç min manat verəcəyimi demişdim, indi hamısı məni axtarır yəqin. Yüz yetmiş səkkiz metr tunel qazmaq asan iş deyil, vedrə-vedrə torpağı çıxarıb sən dediyin kimi ətrafa yayırdıq ki, kimsə şübhələnməsin. Planın ən yaxşı hissəsi bilirsən hansı idi? – dedi.

– Hansı?

– Kameranın altın qazmaq. Əvvəl elə bildim bacarmayacaqsan.

– Ən asanı o oldu, məhbuslardan birinə bir balaca çiyin vurursan, böyük mübahisə düşür, nəzarətçilər də aparıb atırlar kameraya, beləcə nəinki nəzarətçilərin, heç dustaqların da heç nədən xəbəri olmur.

– Hə, fikirləşirəm, indi polislər nə fikirləşir görəsən, nə deyirlər: buranı necə qazdı bu?

– Yəqin ki, çöldən kömək edildiyin bilərlər.

– Bilirlər, bilsinlər, indi ordan çox uzaqdayıq, çətin ki, bir də tapa bilsinlər bizi.

– Evdəkilərdən sarı çox darıxacam, ömrümün sonuna kimi qürbətdə yaşamaq ağır gəlir mənə.

– Buna da öyrənişəcəyik, qardaş, buna da.

Mən:

– İnşallah öyrənişmərik, – deyib siqaret götürərək həyətə çıxmış, anamı, qardaşımı, rəhmətlik atamı və Səidəni düşünərək fikrə dalmışdım. Keçən günləri xatırlayıb hardan-hara gəldiyimi düşünürdüm. Özümə inana bilmirdim ki, mən bu vəziyyətə düşə bilərəm. Ədalətsiz həyat məni bu günlərə gətirib çıxaracaqmış.

***

Gecə saat dördün yarısı bələdçi ilə Rusiya sərhədinə gəldik. Bələdçi bizdən iyirmi metr aralıda iki sərhədçi ilə bir xeyli danışdıqdan sonra paltosunun iç cibinə qoyduğu pulu çıxarıb verdi və pulu alan əsgərlər hərbi

andı “unudaraq” sərhədi keçməyimizə göz yumdular. Rusiya sərhədini aşıb dincəlmədən köhnə bir maşınla yola düşdük. Doqquz saata yaxın yol gedib böyük Volqa çayının sahilində salınmış Ulyanovsk şəhərinə çatdıq. Burada bizi Raufun dostları qarşılamış, müvəqqəti qalmağımız üçün köhnə əşyaları olan iki otaqlı ucuz kirayə ev tapmışdılar.

İlk əvvəllər çətinliyimiz olsa da yavaş-yavaş böyük çayın sahilinə öyrənişdik. Ətrafdakı insanların çoxu azərbaycanlılar olduğundan adam özünü qürbət eldə hiss etmirdi. Hansı yana baxırdınsa bizimkilər. Azərbaycanlıların ən çox olduğu yerlərdən biri bazar idi. Bir də ən çox fəhlə işləyən bizimkilər idi. Raufla mən də fəhlə olaraq özümüzə iş tapmışdıq. Bu işi də özümüz yox, Raufun dostları tapmışdı. Raufun dostları da daxil olmaqla məni orda hər kəs Elşən deyə tanıyır, Elşən deyə çağırırdı. Üç aya yaxın fəhlə işlədikdən sonra bazarda kiçik yer götürüb meyvə-tərəvəz satmağa başladım. Raufsa fəhləçiliyi buraxıb Ulyanovskdakı kiçik bandit qruplaşmasından birinə qoşulub oğurluqla məşğul olurdu. Kirayə qaldığımız evə həftədə iki, ya da üç dəfə gələrdi. Hər gəldiyində də ya içmiş, ya da çəkmiş vəziyyətdə hallı, cibində oğurluq telefonlar, qızıl boyunbağılar, qolbağılar olardı.

Onu düşdüyü vəziyyətdən güclə də olsa çıxarıb bazarda yanıma gətirdim. Məndən iki sıra aralıda mənim kimi o da meyvə-tərəvəz satmaqla məşğul oldu. Ulyanovska gəldiyim gündən on səkkiz gün sonra zəng vurub qardaşımla danışdım. Səsimi eşitdiyinə o qədər sevinmişdi ki, sözlər həmin sevinci ifadə etmək üçün olduqca acizdi. Hüquq-mühafizə orqanlarının telefonları dinlədiyi qorxusu ilə başqa-başqa nömrələrlə hər həftə anamla, qardaşımla danışdığımda mənə Elşən deyə xitab edər və heç vaxt atamın qoyduğu adı çəkməzdilər. Anamla hər danışdığımda anam ağlayar, zəng etməyimə peşman edərdi. Bir gün qardaşıma whatsappdan qız şəkli yollayıb anama göstərməsini, gəlini olduğunu yazmışdım. Həmin qızla eyni küçədə yaşayırdım. Sarı saç, göy göz, arıq, uzun, iyirmi üç yaşında Katya adlı bir qız idi. Katyayla bazardakı işimə başlamazdan bir ay əvvəl dayanacaqda tanış olmuşdum. Hər səhər işə getdiyimdə onun dayanacaqda marşrut gözlədiyini görərdim. Bir dəfə risk edərək ona yaxınlaşıb:

– Salam, necəsən? – demişdim.

– Salam, tanıyıram sizi? – demişdi mənə.

Mən həyəcanla:

– Yox tanımırsan, səni hər səhər burada görürəm, səndən xoşum gəlir, sənlə tanış olmaq istəyirəm, – demişdim.

O tanış olmaqda naz etmədən razı olmuşdu. Bir-birimizə nömrə verib əlaqə saxlamışdıq. Tanışlıqdan bir neçə gün sonra bir-birimizin evinə get-gəl etdik. Katyanın atası uzun zaman öncə onları atdığından o anası ilə birlikdə yalnız yaşayırdı. Onun anası azərbaycanlıları çox sevməzdi, çünki Katyanın atası azərbaycanlı idi.

Bazardakı işimə yenicə başladığım həftələr Katyanın anası Svetlanaya Katya ilə evlənmək istədiyimi söylədim. Svetlana xanım Katya üç yaşlarında olduğu zaman onları tərk etmiş Oqtay adlı ərindən uzun-uzadı danışıb qızı ilə ailə qurmağıma razı olmadı. Mənim və Katyanın Svetlana xanımla günlərlə ölçülən söhbətimizdən sonra birtəhər razılıq aldıq. Svetlana: "Nə ərim var, nə də oğlum, bircə qızım var", – deyərək söhbətə başlayıb onlarla birlikdə yaşamağımı istədi. Hər şeyi gözə alaraq bir neçə kiçik vəzifəli şəxsə rüşvət verərək Rusiya vətəndaşlığına keçib bütün sənədlərimi qaydasına saldım. Beləcə Elşən və Katya rəsmi nikah bağlayıb evləndi.

Səssiz bir nikah oldu bizim nikahımız. Nə məclis, nə qonaqlar, nə də musiqi vardı. Atdığım bu yeni addımda Raufdan aralı düşdüm. Onu kirayə evdə tək başına qoyub yeni ailəmlə birlikdə yaşamağa başladım. O gündən bəri xərclərim çox azalmışdı. Katyanın

anası Svetlana, Katya özü və mən işləyirdim. Üstəlik daha kirayə haqqı da ödəmirdim. Raufunsa vəziyyəti bir az ağırlaşmışdı. Onunla yollarımız ayrıldığından o kirayəni təkbaşına ödəməli olmuşdu. Bu səbəbdən kirayə evdən çıxıb dostlarının yanına köçmüşdü. O evlənməyi düşünmədən həftədə bir qızla gəzirdi. Ona görə də xərci həmişə çox çıxırdı.

Katya ilə evlənib onlarla birlikdə yaşadığım üçüncü ay Katya ömrümdə bir, ya da iki dəfə görə biləcəyim bir təbəssümlə: "İki aylıq hamiləyəm", – dedi. Bunu öyrənməyimlə həyatımda baş verən bütün pis xatirələri yaddan çıxardım. Katyanın sözü ilə həyatım büsbütün dəyişdi sanki. Daha yenidən xoşbəxtliyin ləzzətini hiss edə bilirdim. Əlimi Katyanın boynuna keçirərək alnından öpüb saçlarının qoxusunu sinəmə çəkərək həyata qayıtdım. Cənnətin qoxusunu hiss edə bilirdim. O an "Cənnətin ətri min illik məsafədən duyular" – kəlamını xatırladım. Möcüzələr qoynunda cənnəti təsəvvür etməyə çalışaraq gözlərimi yumdum.

Aylar sonra cənnətdən gəlmiş bir qonaq gecələri yatmağa aman vermirdi. Bu balaca şirin qonaq anası kimi sarışın, göy göz qız idi. Katya onu "Saida" – deyə səsləyirdi, mənsə "Səidə".

*Bakı şəhəri, 24 iyun 2017-ci il.*